TOĞRUL XƏLİLOV

# SON TUNC-ERKƏN DƏMİR DÖVRÜNDƏ NAXÇIVANIN ƏKİNÇİ-MALDAR TAYFALARININ MƏDƏNİYYƏTİ



Ох.1 (47)ау
Х48

TOĞRUL XƏLİLOV

770926

# SON TUNC-ERKƏN DƏMİR DÖVRÜNDƏ NAXÇIVANIN ƏKİNÇİ-MALDAR TAYFALARININ MƏDƏNİYYƏTİ

4

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

"Elm və təhsil"
Bakı- 2013

*AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 25 yanvar 2013-cü il tarixli 2/10 saylı qərarına əsasən (protokol № 2) çap olunur.*

**Elmi redaktor: Vəli Baxşəli oğlu Baxşəliyev**
*AMEA-nın müxbir üzvü,*
*tarix elmləri doktoru*

**Rəyçilər: Vəli Hüseyn oğlu Əliyev**
*AMEA-nın müxbir üzvü,*
*tarix elmləri doktoru, professor*
**Bəhlul İmran oğlu İbrahimli**
*Tarix üzrə fəlsəfə doktoru*

**Toğrul Fərman oğlu Xəlilov. Son Tunc-Erkən Dəmir dövründə Naxçıvanın əkinçi-maldar tayfalarının mədəniyyəti. Bakı, "Elm və təhsil", 2013, 200 səh.**

Əsər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın Son Tunc-Erkən Dəmir dövrü mədəniyyətinin öyrənilməsinə həsr olunmuşdur. Bu dörə aid abidələrin geniş təhlili verilmiş, insanların həyat tərzi, məşğuliyyəti, dini-ideoloji görüşləri və digər aktual məsələlər öyrənilmişdir. Araşdırma zamanı əldə olunmuş elmi yeniliklər Azərbaycan arxeologiyasında mühüm yer tutur.

Əsər Naxçıvan arxeologiyası ilə bağlı elmi-tədqiqat işlərinin, ümumləşdirici əsərlərin yazılmasında, seçmə kursların tədrisində istifadə oluna bilər.

$\frac{4702000000}{N098-2013}$ *qrifli nəşr*

© "Elm və təhsil", 2013

MÜNDƏRİCAT

Ön söz ........................................................................ 8
Giriş ........................................................................ 10

## I FƏSİL
## ARXEOLOJİ ABİDƏLƏR

1.1.Yaşayış yerləri ........................................................ 14
1.1.1. Oturaq yaşayış yerləri ........................................... 16
1.1.2. Mövsümü yaşayış yerləri ........................................ 22
1.1.3. Qala tipli yaşayış yerləri ........................................ 32
1.1.4. Qəbir abidələri ........................................................ 43
1.1.5. Qayaüstü təsvirlər ................................................... 64

## II FƏSIL
## ARXEOLOJİ MATERİALLARIN TƏHLİLİ

2.1. Əmək alətləri ............................................................ 80
2.2. Keramika məmulatı ..................................................... 86
2.3. Silahlar ...................................................................... 108
2.4. Bəzək əşyaları ............................................................ 112
2.5. Xronologiya ................................................................ 130
Nəticə ........................................................................... 134
İstifadə edilmiş ədəbiyyat .............................................. 143
İllüstrasiyalar ................................................................ 161

## İXTISARLARIN SİYAHISI

*ASE-Azərbaycan Sovet Ensklopediyası.*
*AMM-Azərbaycanın Maddi Mədəniyyəti.*
*Аз ФАН ССР-Азербайджанский флиал Академии Наук ССР.*
*АЭИА-Археологические и этнографические изыскания в Азербайджане.*
*АНГССР-Академии Наук Грузинской ССР.*
*ГАИМИК-Государственной Академии Истории Материальной Культуры.*
*МКА-Материальная культуры Азербайджана.*
*МИА ССР-Материалы и исследования по археологии ССР.*

*Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir*

**Heydər Əliyev**
*Azərbaycan xalqının ümummilli lideri*

*Naxçıvan qədim Azərbaycan torpağıdır, qədim tarixə və mədəniyyətə malikdir*

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***

*Naxçıvanın hər daşı, hər qayası bir tarixi abidədir*

**Vasif Talıbov**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri***

## ÖN SÖZ

Azərbaycan arxeologiyasında ən aktual və maraqlı sahələrdən birini Son Tunc-Erkən Dəmir dövründə Naxçıvanın əkinçi-maldar tayfalarinın mədəniyyəti təşkil edir. Bu dövrdə Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da maraqlı mədəni-iqtisadi proseslər baş vermişdir. Qədim əkinçi-maldar tayfalar metallurgiya və metalişləmə, dulusçuluq, dabbaqlıq və digər sənətkarlıq sahələri ilə məşğul olaraq zəngin mədəniyyət yaratmışlar. Onların həm maddi, həm də mənəvi mədəniyyətinin yalnız Azərbaycan arxeologiyasında deyil, dünya arxeologiyasında yeri və əhəmiyyəti böyükdür. Buna görə də Toğrul Fərman oğlu Xəlilovun "Son Tunc-Erkən Dəmir dövründə Naxçıvanın əkinçi-maldar tayfalarının mədəniyyəti" mövzunda apardığı arxeoloji araşdırma təqdirəlayiqdir.

Giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatların siyahısından, xəritə və illüstrasiyalardan ibarət olan tədqiqat əsəri öz aktuallığı etibarı ilə Azərbaycanın tunc dövrü arxeologiyası üçün xüsusi əhəmiyyət kəsb edir. Naxçıvanın qədim dövr tarixinin daha dərindən öyrənilməsində mühüm yer tutur.

Müəllif tədqiqat əsərində problemin hərtərəfli öyrənilməsi üçün Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələri kompleks şəkildə öyrənmiş, onları hərtərəfli şəkildə tədqiq edərək təhlil etmişdir. Müəyyən olunmuşdur ki, Naxçıvanın aran və dağlıq zonalarında müxtəlif formalı yaşayış yerlərinin qeydə alınması əhalinin yaylaq və qışlaq maldarlığı ilə məşğul olması ilə bağlıdır. İstər oturaq, istərsə də yarımköçəri həyat tərzi keçirən əkinçi-maldar tayfalar qala tipli yaşayış yerlərindən istifadə etmişlər.

Monoqrafiyada etnik-mədəni tarixi prosesləri, miqrasiya və arxeoloji mədəniyyətlərin mənsubiyyəti problemlərinin öyrənilməsi sahəsində qəbir abidələrinin mühüm elmi əhəmiyyət daşı-

dığı ön plana çəkilmişdir. Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid qəbir abidələrinin tipologiyası verilmişdir. Qəbir abidələrinin tədqiqi zamanı müəyyən olunmuşdur ki, bir sıra heyvanlarla bağlı dəfnetmə adəti yalnız lokal xarakter daşımamış Cənubi Qafqazın digər ərazilərinə də yayılmışdır.

Müəllif Gəmiqaya və bəzi qəbir daşları üzərindəki rəsmlərlə yanaşı ilk dəfə olaraq Gilancay vadisinin yuxarı hissəsində qeydə aldığı petroqlifləri də tədqiqat əsərində hərtərəfli şəkildə öyrənmişdir. Təsvirlərin qədim əkinçi-maldar tayfaların həyat tərzi, dini ideoloji görüşləri ilə bağlı olduğu müəyyən olunmuşdur. Tədqiqat işində müəllifin iştirakı ilə ilk dəfə qeydə alınmış Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrin (Qumluq, İlikliqaya, Dəmyələr) öyrənilməsi onun elmi əhəmiyyətini daha da artırır. Tədqiqata cəlb edilmiş abidələrdən aşkar edilən arxeoloji materialların Azərbaycanın digər həmdövr abidələri ilə yanaşı olaraq Cənubi Qafqaz, Anadolu, Ön Asiya və digər ərazilərdən tapılmış arxeoloji materiallarla müqayisəsi nəticəsində Son Tunc-Erkən Dəmir dövründə Naxçıvanın əkinçi-maldar tayfaları ilə Yaxın Şərq, Ön Asiya tayfaları arasında yaxın iqtisadi-mədəni əlaqələrin olduğu müəyyən edilmişdir.

Ümüdvarıq ki, əsər tədqiqatçıların, oxucuların diqqətini cəlb edəcək, Naxçıvan arxeologiyası ilə bağlı elmi-tədqiqat işlərinin, ümumləşdirici əsərlərin yazılmasında faydalı olacaqdır.

**Vəli Baxşəliyev**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*Naxçıvan Bölməsinin "Qədim dövür arxeologiyası şöbəsi" nin*
*müdiri, AMEA-nın müxbir üzvü, tarix elmlər doktoru*

## GİRİŞ

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan qədim insan məskənlərindən biridir. Bu ərazidəki arxeoloji abidələr həm Azərbaycan, həm də dünya arxeologiyasında mühüm yer tutur. Onların öyrənilməsi dünya arxeologiyasının bir sıra problemlərinə aydınlıq gətirir. Bu səbəbdən Naxçıvan Muxtar Respublikasının ərazisindəki qədim yaşayış yerlərinin, nekropolların, müdafiə istehkamlarının tədqiq edilməsinin elmi əhəmiyyəti böyükdür. Onların tədqiqi bu ərazidə məskunlaşmış insanların məişət və təsərrüfat həyatına aid yeni faktlar əldə etməyə imkan verir. Aparılan tədqiqatlar xalqımızın etnogenezisi və tarixi abidələri ilə bağlı bir sıra erməni "tədqiqatçıları" tərəfindən (A.Ayvazyan, A.Martirosyan, A.Gevorqyan və b.) irəli sürülmüş saxta fikirlərin heç bir elmi əsası olmadığını sübut edir. Buna görə də, Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvan Muxtar Respublikasındakı arxeoloji abidələrin daha dərindən öyrənilməsinin həm elmi, həm də, siyasi əhəmiyyəti vardır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi: "Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi ... barədə çox az iş görülübdür" (9, s. 17). Ümummilli lider Heydər Əliyev tarixi abidələrin qorunması və öyrənilməsi üçün bir çox işlər görmüşdür. Bu baxımdan 1998-ci ilin aprel ayının 10-da qəbul edilmiş "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasınınını Qanununun əhəmiyyəti böyükdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən 2008-ci ilin fevralın 5-də imzalanmış "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu

tərəfindən aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında", Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən 2005-ci ilin dekabrın 6-da imzalanmış "Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" sərəncamlar da bu sahədə mühüm əhəmiyyət daşıyır.

Tədqiqat işi Naxçıvan arxeologiyasının az öyrənilmiş sahələrindən birinə, Son Tünc-Erkən Dəmir dövründə əkinçi-maldar tayfaların mədəniyyətinin öyrənilməsinə həsr edilmişdir. Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrin öyrənilmsi ilə bağlı aparılan tədqiqatların tarixinə nəzər saldıqda görürük ki, bu sahədə ilkin araşdırmalar XIX əsrin sonu-XX əsrin əvəllərində aparılmışdır.

1895-ci ildə Araz çayının sol sahilində yerləşən Qızılburun adlı ərazidə təsərrüfat işləri aparılarkən bir neçə daş qutu qəbir dağılmışdır. Dağılmış qəbirlərin materiallarının bir qismi sərhəd gözətçi məntəqəsinin rəisi N.V.Fyodorov tərəfindən toplanılmışdır. 1896-cı ildə Fyodorov İmperator Arxeoloji Komissiyasının tapşırığı ilə Qızılburunda qazıntı işləri apararkən əldə etdiyi materialları Moskvaya göndərmişdir (36, s. 6-7).

1926-cı ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi yanındakı elmi cəmiyyətin köməyi ilə Maddi-Mədəniyyət Tarixi Akademiyası tərəfindən Qızılburun abidəsinə göndərilmiş ekspedisiya orada qazıntı işləri apararaq xeyli maddi-mədəniyyət nümunələri əldə etmişdir (150, s. 218).

1934-1936-cı illərdə Ə.K.Ələkbərovun rəhbərliyi ilə Şortəpə, Şahtaxtı, Oğlanqala abidələri qeydə alınaraq kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Bu abidələrdən sadə və boyalı qablar, əmək alətləri, silahlar, bəzək əşyaları və başqa maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur (112, s. 55).

XX əsrin ortalarından başlayaraq Naxçıvanda aparılmış arxeoloji qazıntılar daha da genişləndirilmişdir. 1951-1964-cü illərdə I Kültəpə (96, s. 14-18), 1960-1962, 1968-1988-ci illər-

də II Kültəpə abidələrində sistemli tədqiqat işləri aparılmışdır (32, s. 69-73; 36, s. 25; 104, s. 26). Tədqiqat zamanı yalnız Azərbaycanın deyil, həmçinin, Cənubi Qafqazın Eneolit, Tunc və Ekən Dəmir dövrü abidələrinin dövrləşdirilməsi üçün elmi əhəmiyyət daşıyan nəticələr əldə olunmuşdur. 1968-ci ildə Gəmiqaya abidəsinin öyrənilməsi sahəsində ilk addımlar atılaraq oradakı digər təsvirlərlə bərabər Son Tunc-Erkən dəmir dövrünə aid qayaüstü təsvirlərin bir qrupu haqqında məlumat verilmişdir (181).

XX əsrin sonu-XXI əsrin əvvəllərindən etibarən Naxçıvandakı arxeoloji abidələrin öyrənilməsi ilə bağlı aparılmış geniş miqyaslı elmi təqiqat işləri zamanı Xaraba Gilan (Q.M.Aslanov, S.M.Qaşqay, B.İ.İbrahimov), Şahtaxtı (V.B.Baxşəliyev, V.H.Əliyev, Q.H.Ağayev, Q.M.Aslanov), Qalacıq (V.H. Əliyev, M.M.Seyidov), Gəmiqaya (V.H.Əliyev, V.B.Baxşəliyev, N.M. Müseyibli), Kolanı (V.H.Əliyev, V.B.Baxşəliyev), Haqqıxlıq, Sarıdərə (V.B. Baxşəliyev), Yurdçu (V.H.Əliyev, V.B.Baxşəliyev), I Kükü, II Kükü (V.B. Baxşəliyev, Ə.I.Novruzlu, A.Q.Seyidov), Ovçulartəpəsi (V.B. Baxşəliyev, C.Marro, S.H. Aşurov), Oğlanqala (V.B. Baxşəliyev, L. Ristvet, S.H. Aşurov), II Kültəpə (V.H. Əliyev), Xələc (A.Q. Seyidov, V.B. Baxşəliyev), Duzdağ (V.B.Baxşəliyev, C. Morro, C. Hamon, P. Dessaint, S. Sanz) və digər abidələr əsaslı şəkildə öyrənilmişdir. Bu sahədə aparılan elmi araşdırmalar bu gün də uğurla davam etdirilir. Ovçulartəpəsi, Oğlanqala, Duzdağ abidələrindəki arxeoloji ekspedisiyalar beynəlxalq səviyyəlidir, ABŞ və Fransa arxeoloqlarının birgə iştirakı ilə aparılır. Naxçıvandakı arxeoloji abidələrin öyrənilməsi ilə bağlı aparılmış geniş miqyaslı elmi təqiqat işləri zamanı onların bir çoxundan əkinçi-maldar tayfalarla bağlı Son Tunc-Erkən Dəmir dövrünə aid müxtəlif maddi-mədəniyyət nümunələri əldə olunmuşdur. Maldarlığın formalaşması və onun formaları ilə bağlı Y.İ.Krupnov (146, s. 307), B.B.Piotrovski (166, s. 75), T.Ə.Bünyadov (27, s. 60-65) və digərləri tərəfindən tədqiqat

aparılmışdır. Naxçıvanın arxeoloji abidələrini öyrənən arxeoloqlardan V.B.Baxşəliyev (16), V.H.Əliyev (36), A.Q.Seyidov (83) və digərləri öz monoqrafiya və elmi məqalələrində Son Tunc-Erkən Dəmir dövrünün bəzi problemlərinə toxunsalar da, qeyd olunan sahə ayrıca tədqiqat obyekti olmamışdır. Son Tunc-Erkən Dəmir dövründə Naxçıvanın əkinçi-maldar tayfalarının mədəniyyəti monoqrafik şəkildə öyrənilməmişdir. Buna görə də Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələr əsas tədqiqat obyekti seçilmişdir. Tədqiqat zamanı Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş maddi-mədəniyyət nümunələrinə xüsusi diqqət yetirilmişdir. Əkinçi-maldar tayfaların yaşayış tərzi, maddi və mənəvi mədəniyyəti, məşğuliyyəti, qonşu tayfalarla iqtisadi-mədəni əlaqələri və digər aktual məsələlər öyrənilmişdir. Tədqiqat zamanı qarşıya qoyulmuş əsas məqsəd Son Tunc-Erkən Dəmir dövründə Naxçıvanın əkinçi-maldar tayfalarının mədəniyyətini maddi-mədəniyyət nümunələrinə əsaslanaraq öyrənməkdən ibarətdir. Bu zamanı Son Tunc-Erkən Dəmir dövründə Naxçıvanda maldarlıq təsərrüfatında baş vermiş dəyişiklikləri öyrənmək, əkinçi-maldar tayfaların məşğuliyyətini müəyyənləşdirmək, onlarla bağlı arxeoloji abidələri topoqrafiyasına, təbii-coğrafi şəraitinə görə qruplaşdırıb onların bir-biri ilə oxşar və fərqli xüsusiyyətlərini ortaya çıxarmaq, Son Tunc-Erkən Dəmir dövründə maldarlığın hansı tiplərinin inkişaf etdiyini müəyyənləşdirmək, Cənubi Qafqaz və Yaxın Şərq ölkələri ilə əlaqələrdə Naxçıvanın Son Tunc-Erkən Dəmir dövrü abidələrinin yerini müəyyənləşdirmək, mədəniyyətlərarası əlaqələri ortaya çıxarmaq və digər aktual məsələlərin həlli nəzərdə tutulmuşdur. Mövzunun araşdırılması zamanı tipoloji təhlil, topoqrafik və müqayisəli analiz üsullarından istifadə edilmişdir.

# I FƏSİL

## ARXEOLOJİ ABİDƏLƏR

### *1.1. Yaşayış yerləri*

Son Tunc-Erkən Dəmir dövründə insanların maddi-mədəniyyətinin öyrənilməsi sahəsində yaşayış yerləri mühüm yer tutur (şəkil 1, 1). İctimai-iqtisadi tərəqqi ilə əlaqədər olaraq insanların həyat tərzində əmələ gəlmiş dəyişikliklər yaşayış məskənlərinin formalaşmasına öz təsirini göstərmiş, müxtəlif tipli yaşayış məskənləri yaranmışdır. Son Tunc-Erkən Dəmir dövrü yaşayış yerləri plan, konstruksiya, qruplaşma xüsusiyyəti və topoqrafiyasına görə bir-birindən fərqlənir. Yaşayış məskənləri başlıca olaraq dağlıq, dagətəyi və düzənlik yerlərdə salınmışdır.

Plan, konstruksiya və tikinti texnikasına görə yaşayış məskənləri iki yerə bölünür: ətrafı hasarlı və hasarsız yaşayış yerləri. Ətrafı hasarlı yaşayış məskənlərinin əksəriyyətinin divarları çay daşı və möhrə ilə tikilmişdir. Bir qrup yaşayış məskənləri isə nisbətən mürəkkəb quruluşlu olmuş, özünəməxsus tikinti texnikası ilə fərqlənmişdir. Onların tikintisinə daha çox vaxt və əmək sərf edilmişdir. Divarların hörgüsündə yonulmamış iri qaya parçalarından istifadə edilmişdir.

Araşdırmalar göstərir ki, hər bir yaşayış məskəninin salınmasında həyat tərzi əsas amillərdən birini təşkil etmişdir. İnsanlar tərəfindən hər hansı bir yerdə yaşayış məskəni kimi seçildikdə həmin ərazinin təbii-coğrafi şəraitinə xüsusi fikir verilmişdir. Əlverişli təbii-coğrafi şəraitə malik olan yerlər yaşayış üçün münasib sayılmışdır. Insanlar öz təsərrüfatlarına

uyğun olaraq çay və bulaq kənarlarında, su mənbəyinə yaxın olan yerlərdə məskunlaşmışlar.

Etnoqrafik araşdırmalar göstərir ki, bir-biri ilə qohumluq əlaqəsi olan tayfalar birlikdə yaşamağa üstünlük versə də, hər bir tayfa xüsusi əkin, otlaq sahələrinə sahib olmağa, daha çox məhsul əldə etməyə səy göstərmişdir. Tayfalararası rəqabət nəticəsində təsərrüfatın ayrı-ayrı sahələrinin inkişaf etməsi daha da sürətlənmişdir.

Son Tunc-Erkən Dəmir dövründə maldarlığın daha çox inkişaf edərək əkinçiliklə müqayisədə birinci yerdə durması insanların həyat tərzinə böyük təsir göstərmişdir. Onların saxladıqları heyvanların getdikcə çoxalması sürüləri çoxlu yemlə təmin etmək zərurəti yaratmışdır. Büna görə də, maldarlar düzənlik yerlərdəki otlaq sahələri ilə yanaşı olaraq dağlıq və dağətəyi ərazilərdə də məskunlaşmalı olmuşlar. Aran ərazidəki otlaqlardan qışda istifadə edilmişdir. Yayda onlar heyvan sürülərini dağlıq və dağətəyi ərazidəki orüşlərə aparmışlar. Həmin yerdə təsərrüfat həyatlarını davam etdirərək heyvanlara qulluq etmiş, daha çox ət, süd, yun və b. məhsullar toplamışlar. Bu zaman maldarlar tərəfindən yaylaqlarda salınmış oba və yurd yerləri dağlıq və dağətəyi ərazidə mövsümü yaşayış məskənlərinin təməli olmuşdur. Onlar yerləşdiyi yerin adı ilə yanaşı tayfa və ya tayfa başçısının adı ilə adlanmışdır. Otlaq sahələrinin miqdarından asılı olaraq obada yaşayanların sayı dəyişilmişdir. Hər bir qohum-əqraba kollektivi ayrıca oba təşkil etmişdir.

Əkinçi-maldar tayfaların təsərrüfat həyatında baş vermiş iqtisadi proseslər nəticəsində digər yerlərdə olduğu kimi (154, s. 55; 141, s. 72; 64, s. 10) Naxçıvanda da insanlar oturaq və yarımköçəri şəraitdə yaşayaraq öz həyat tərzlərinə uyğun yaşayış məskənləri salmışlar. Aran ərazisindəki yaşayış yerlərində oturaq maldarlıq, dağlıq və dağətəyi ərazilərdə isə yarımköçəri yaylaq maldarlığı inkişaf etmişdir. Qədim tayfalar yaylaq və qışlaq maldarlığı ilə məşğul olmuşlar. Sosial-iqtisadi proseslər, insanların həyat tərzində əmələ gəlmiş dəyişikliklər müxtəlif

tipli yaşayış məskənlərinin yaranmasına səbəb olmuşdur (63, s. 7). Yaşayış yerlərindən aşkar edilmiş tikililər yaşayış evlərindən, təsərrüfat xarakterli tikililərdən, müdafiə divarlarından, siklopik tipli istehkamlardan ibarətdir. İstər oturaq, istərsə də yarımköçəri həyat tərzi keçirən əkinçi-maldar tayfaların qala tipli yaşayəş yerlərinə ehtiyacı olmuşdur. Qala tipli yaşayış yerləri yaranmışdır. Bu dövrdə Orta Tunc dövrünə aid Qazancıqala, Qalacıq, Şahtaxtı və digər qalallar bərpa olunaraq yenidən istifadə edilmiş, bir çox qalalar tikilmişdir. Buna görə də əkinçi-maldar tayfalarla bağlı Naxçıvandakı olan Son Tunc-Erkən Dəmir dövrünə aid yaşayış məskənlərini üç əsas qrupa bölmək olar:

1. Oturaq yaşayış yerləri.
2. Mövsümü yaşayış yerləri.
3. Qala tipli yaşayış yerləri.

### 1.1.1. Oturaq yaşayış yerləri

Bu tip yaşayış yerlərində məskunlaşmış əkinçi-maldar tayfalar oturaq həyat tərzi keçirmişlər. Onların bir çoxu (I Kültəpə, II Kültəpə, Şahtaxtı və b.) iri tayfa birliyinin mərkəzi olmuşdur. Yaşayış yerlərində məskunlaşmış insanların təsərrüfat həyatında maldarlıqla əkinçilik təsərrüfatı arasındakı nisbət eyni olmamışdır. Bu tip yaşayış məskənlərində əkinçilik təsərrüfatı maldarlıqla müqayisədə üstünlük təşkil etmişdir. Maldarlıq təsərrüfatı oturaq, yaxud köçmə formada olmuşdur. Oturaq əkinçi-maldar tayfaların qış otlaqları Naxçıvanın maili düzənliklərini əhatə etmişdir. Həmin torpaqlar haliyyədə Arazboyunu əhatə edərək şimal-qərbdən cənub-şərqə doğru uzanır. Bu torpaqlar cənub-şərqdə Araz çayı ilə hüdudlanmış Araz ovalığını, şimaldan isə Arpaçay, Naxçıvançay və Gilançay vadilərinin Araza qovuşan hissəsini əhatə edir. Buraya daxil olan Sədərək, Şərur, Böyükdüz, Culfa, Ordubad, Naxçıvan

maili düzənliklərində oturaq maldarlığın inkişafı üçün əlverişli şərait var. Bu sahənin ən geniş yeri şimal qərbdə 20 kilometr, ən dar yeri isə cənub-şərqdə 4-5 kilometrdir. Onun yüksəklik göstəricisi 600 metrlə-1200 metr arasındadır (22, s. 43).

Naxçıvan Muxtar Respublikasının ərazisində qeydə alınmış oturaq yaşayış yerlərinə I Kültəpə, II Kültəpə, Qızılburun, Şahtaxtı, Qalacıq və digər abidələr daxildir.

***I Kültəpə yaşayış yeri.*** Naxçıvan şəhərindən şimal-şərqdə, Babək rayonunun eyni adlı kəndində yerləşir. Sahəsi 1, 5 hektara yaxındır. Burada ilk dəfə 1904-cü ildə kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Aparılan arxeoloji tədqiqat zamanı oradan əldə olunmuş maddi-mədəniyyət nümunələrinin bir qismi 1905-ci ildə Tiflisdəki Qafqaz muzeyinə verilmişdir.

115456

Abidə 1951-1964-cü illərdə O.H.Həbubullayevin rəhbərliyi ilə öyrənilmişdir. Aparılmış arxeoloji araşdırmalar nəticəsində yaşayış yerində Neolit dövründən Erkən Dəmir dövrünə qədər 22, 2 m qalınlığında dörd mədəni təbəqə tədqiq edilmişdir (96, s. 14-18). Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, I Kültəpənin Orta və Son Tunc dövrünə aid olan üçüncü mədəni təbəqəsi abidənin üzərindən 1, 5-2, 5, 3, 5-4, 5 m dərinlikdə yerləşir. Bu mədəni təbəqə bir-birindən fərqlənən dörd laya bölünmüşdür.

Erkən Dəmir dövrünə (e.ə. XI-VIII əsrlər) aid dördüncü mədəni təbəqə 1, 5 m qalınlığında olmuşdur. Təbəqənin dərinliyi 1, 5-2, 5 metr arasındadır (43, s. 95-96). Bu təbəqə digər təbəqələrlə müqayisədə çox az sahəni əhatə etmişdir. Orada yaşayışın qısa müddətli olması nəticəsində Erkən Dəmir dövrü təbəqəsi az yığılmışdır. Mədəni təbəqənin üstdə yerləşməsi nəticəsində o daha çox təbii aşınmaya məruz qalmışdır. Buna görə də yaşayış yerinin bu dövrə aid mədəni təbəqəsindən düzgün planlı bina qalıqları tapılmamışdır, yalnız uçub tökülmüş divar qalıqlarına təsadüf olunmuşdur. Tikinti qalıqlarına əsasən ehtimal etmək olar ki, buradakı yaşayış binasının qalıqları dördkünc formada olmuş, çay daşı və bişmiş

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

kərpiclə tikilmişdir. Bəzi binaların döşəməsinə daş döşənmişdir.

Mədəni təbəqədən aşkar edilmiş digər maddi-mədəniyyət nümunələri kəsək, bişmiş torpaq qalıqları, iri və xırdabuynuzlu heyvan sümükləri, ocaq yerləri, gil qablar və daş əmək alətlərindən ibarət olmuşdur. Osteoloji qalıqların mədəni təbəqələrdə stratiqrafik yerləşməsi ilə əldə olunan maddi-mədəniyyət nümunələrinin müqayisəli şəkildə öyrənilməsi onu göstərmişdir ki, xırdabuynuzlu heyvan sümükləri, keramika məmulatları (sadə və boyalı qablar) yaşayış yerinin bu hissəsində digər təbəqələrlə müqayisədə çoxluq təşkil etmişdir (43, s. 113-115). Bu fakt isə onu göstərir ki, Son Tunc-Erkən Dəmir dövründə qədim Kültəpə sakinlərinin təsərrüfat həyatında əkinçiliklə yanaşı, maldarlıq da mühüm yer tutmuşdur.

***II Kültəpə yaşayış yeri.*** Naxçıvan şəhərindən şimalda, Naxçıvançayla Cəhriçayın birləşdiyi yerdə, Yuxarı Uzunoba və Didivar kəndlərinin arasında yerləşir. Abidənin salamat qalan hissəsinin sahəsi 3 hektara yaxındır. Onun yerləşdiyi sahə ümumi planda üçbucaq təşkil edərək cənub tərəfdən dar, şimal tərəfdən isə genişdir. Şərqdə Naxçıvançaya tərəf uzanaraq bu hissədə çay vadisi ilə sərhədlənmişdir.

Yaşayış yeri ilk dəfə 1960-cı ildə tədqiqatçı O.H.Həbubullayev tərəfindən aşkar olunduqdan sonra 1962-ci ildən başlayaraq kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir (96, s. 19; 31, s. 38). Abidədə O.H.Həbubullayev və V.H.Əliyevin rəhbərliyə ilə 1968-ci ildə 400 $m^2$ ərazidə geniş miqyaslı qazıntı aparılmışdır (32, s. 70). Aparılmış arxeoloji araşdırmaların gedişində ümumi qalınlığı 14 m olan üç mədəni təbəqə aşkar edilmişdir. Abidənin şimal-qərb hissəsində 5 x 10 sahədə 1, 5 m dərinliyədək aparılan arxeoloji qazıntı nəticəsində daş divarların qalıqları, dən daşı, sadə və boyalı qab qırıqları, daş toppuz, kürz, sümük bizlər və çoxlu heyvan sümükləri tapılmışdır (104, s. 66).

1970-1975-ci illərdə yaşayış yerində aparılmış arxeoloji qazıntılar zamanı abidənin Narınqala hissəsinin planı çıxarılmışdır (102, s. 443). Onun öyrənilməsi V.H.Əliyevin rəhbərliyi ilə 1988-ci ilədək davam etdirilmişdir (81, s. 25; 103, s. 419). Hazırda qazıntılar yenidən bərpa edilmişdir. Yaşayış yerində aparılmış arxeoloji qazıntılarda tədqiqatçılardan V.B.Baxşəliyev, M.M.Seyidov, Q.H.Ağayev, A.Q.Seyidov. S.H.Aşurov da iştirak etmişlər. Abidənin öyrənilməsində bir müddət fasilə yaransa da, 2006-ci ildən bu sahədə arxeoloji tədqiqatlar davam etdirilmişdir (41, s. 61-66). Yaşayış yerində aparılan tədqiqatlar zamanı xeyli arxeoloji material əldə olunmuşdur. Onların maddi və mənəvi mədəniyyətimizin öyrənilməsi sahəsində elmi əhəmiyyəti böyükdür.

Yaşayış yerinin Son Tunc-Erkən Dəmir dövrünə aid olan üçüncü təbəqəsi ən üstdə yerləşdiyindən yaxşı saxlanılmamış, təbii aşınma nəticəsində dağılmışdır. Dağılmış mədəni təbəqədən tikinti qalıqları, sadə və boyalı gil qablar, osteoloji materiallar tapılmışdır (104, s. 124). Abidədə salamat qalmış tikinti qalıqları yaşayış evlərinin divarlarından ibarətdir. Divarlar 24 x 24 x 12 x 12 sm ölçülü çiy kərpicdən dördkünc planda tikilmişdir (37, s. 46). Yaşayış yerinin Son Tunc-Erkən Dəmir dövrünə aid olan üçüncü təbəqəsindən əldə olunmuş arxeoloji materialların içərisində müxtəlif heyvan sümükləri (osteoloji qalıqlar) bilavasitə əkinçi-maldar tayfalarla bağlılıq təşkil edir.

***Qızılburun yaşayış yeri.*** Naxçıvan şəhərindən cənubda, Babək rayonunun Nehrəm kəndi ərazisində, Araz çayının sol sahilində, Naxçıvanı Cənubi Qafqaz və Yaxın Şərq ölkələri ilə birləşdirən mühüm ticarət yolu üzərində yerləşir. Yaşayış yeri şərqdən və şimal-şərqdən alçaq qayalıqlarla, qərbdən əkinçilik və maldarlığın inkişafı üçün əlverişli olan düzənlik ərazilərlə əhatə olunmuşdur. Sahəsi 2 hektara yaxındır (81, s. 68). Yaşayış yerinin tutduğu sahənin çox hissəsi konqlomerat qayalıqlardan, tünd qırmızı rəngli torpaq və daş süxurlarından

ibarətdir. Qərb-şərq istiqaməti boyunca uzanan geniş Arazsahili düzənliklər burada qurtarır. Abidənin yerləşdiyi ərazidə Zəngəzur və Qaradağ silsilələri Araz silsiləsinədək uzanaraq dar boğaz əmələ gətirmişdir.

Yaşayış yeri 1926-cı ildə A.A.Miller tərəfindən aşkar olunaraq kəşfiyyat xarakterli tədqiqatlar əsasında öyrənilmişdir (161, s. 326). 1969-cu ildə V.H.Əliyev və O.H.Həbubullayev tərəfindən yaşayış yerində 100 $m^2$ sahədə aparılan arxeoloji qazıntı zamanı Orta Tunc dövrünə aid 2 m qalınlığında mədəni təbəqədən Son Tunc-Erkən Dəmir dövrünə aid olan maddi-mədəniyyət nümunələri tapılmışdır. Müəyyən olunmuşdur ki, yaşayış yerindəki Son Tunc-Erkən Dəmir dövrünə aid mədəni təbəqə güclü təbii aşınma nəticəsində dağılmışdır. Dağılmış mədəni təbəqədən əldə olunmuş Son Tunc-Erkən Dəmir dövrünə aid maddi-mədəniyyət nümunələri daş əmək alətlərindən və silahlardan, boz, çəhrayı və qara rəngli gil qabların qırıqlarından ibarət olmuşdur (96, s. 22, 50).

***Şahtaxtı yaşayış yeri.*** Kəngərli rayonunun eyniadlı kəndinin şimal-qərbində, Qıvraq yaylasının Araz çayına yenən uzantısında, Asnı çayının sol sahilində, hündür təpə üzərində yerləşir (şəkil 2). Onun sahəsi 3 hektardan artıqdır. Təbii aşınma və təsərrüfat işləri nəticəsində abidənin bir hissəsi dağılmışdır. Haliyyədə yaşayış yerinin 2 hektara yaxın sahəsi salamat qalmışdır. Yaşayış yerinin əlverişli strateji-coğrafi mövqeydə yerləşməsi bir sıra əraziləri, o cümlədən Araz vadisini, Şərur ovalığını nəzarətdə saxlamağa imkan verir.

Abidə ilk dəfə 1936-cı ıldə Ə.K.Ələkbərov tərəfindən aparılmış kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir (112, s. 46). 1979-1989-cu illərdə orada Q.H.Ağayevin rəhbərliyi ilə Naxçıvan arxeoloji ekspedisiyasının Şahtaxtı dəstəsi tədqiqat işləri aparmışdır (110, s. 44-45). Uzun fasilədən sonra 2006-cı ildə yaşayış yerində kəşfiyyat xarakterli, 2008-2011-ci illərdə isə geniş miqyaslı arxeoloji qazıntı işləri aparılmışdır.

1979-1987-ci illərdə abidədə aparılmış tədqiqatlar zamanı qalınlığı 3-4, 5 m qalınlığında olan üç mədəni təbəqə, qala divarının qalıqları (uzunluğu 12, 5 m, eni 1, 85 m, hündürlüyü 95 sm) tapılmışdır (111, s. 25). Yaşayış yerinin Son Tunc-Erkən Dəmir dövrünə aid mədəni təbəqəsindən (1, 65-2, 35 m qalınlığında) tikinti qalıqları, osteloji materiallar və müxtəlif maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur (74, s. 28; 111, s. 24-25). Əldə olunmuş arxeoloji materiallardan osteoloji qalıqlar bilavasitə əkinçi-maldar tayfalarla bağlıdır.

2008-2009-cu ildə yaşayış yerində aparılan tədqiqat zamanı (25 $m^2$ sahədə) 1, 20-1, 25 m qalınlığında olan Son Tunc-Erkən Dəmir dövrünə aid mədəni təbəqədən müxtəlif gil qablar, əmək atətləri və digər maddi-mədəniyyət nümunələri (dəmir bıçaq, xəncər qalıqları və b.) tapılmışdır. Əldə olunmuş metal məmulatlarının hamısı güclü korroziyaya uğramışdır (2, s. 45-49). Abidənin öyrənilməsi sahəsində aparılan elmi araşdırmalar sonrakı dövrlərdə də davam etdirilmişdir.Yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, abidə I Kültəpə, II Kültəpə, Oğlanqala və b. yaşayış yerləri kimi istər Azərbaycanda, istərsə də bütün Yaxın Şərq və Cənubi Qafqazda öz möhtəşəmliyi ilə seçilir.

Yaşayış yerindəki tikinti qalıqlarının tədqiqinə əsasən müəyyən olunmuşdur ki, oradakı Orta Tunc dövrünə aid müdafiə divarları güclü təbii aşınma nəticəsində dağıldığından həmin divrlar Tunc dövrünün sonu Dəmir dövrünün əvvəllərində yenidən bərpa olunmuşlar. Bu zaman divarların bünövrəsi 1, 7 x 0, 6 m, 1, 5 x 0, 6 m ölçülərində olan iri, uzunsov daş bloklarla hörülmüş, üzəri çiy kərpiclə tikilmişdir. Son Tunc-Erkən Dəmir dövrünə aid qala divralarının (eni 2, 2 - 2, 6 m, hündürlüyü 1, 2-2, 45 m) çoxu dağılmış, bəziləri isə nisbətən salamat qalmışdır (110, s. 44-45; 74, s. 28). Qala divarları tikinti texnikasına görə II Kültəpə, Vayxır qalası, Qazançı qalası və başqa abidələrin müdafiə divarları ilə oxşardır.

***Plovdağ yaşayış yeri.*** Ordubad rayonunda, Sabirkənddən şərqdə, Gilançayın sol sahilində yerləşir. 1975-1976, 1987-1988-ci illərdə və sonrakı dövrlərdə də öyrənilmişdir (132, s. 13-14; 6, s. 36).

Yaşayış yerində aparılmış arxeoloji araşdırma zamanı daş bünövrə üzərində çiy kərpicdən inşa olunmuş binaların divarları aşkar olunmuşdur. Oradakı yaşayış evləri orjinal planlı olub, özünəməxsus tikinti texnikası ilə fərqlənir. Planlı surətdə tikilmiş otaqlardan bir qrupu yaşayış üçün istifadə edilmiş, bəzilərində isə ərzaq saxlanılmışdır. Evlər əsasən düzbucaqlı və kvadrat planda tikilmişdir, kənar küncləri yarımdairəvi planda olmuşdur.

Abidədə aparılmış arxeoloji araşdırmalar zamanı müəyyən olunmuşdur ki, oradakı yaşayış kompleksi iki tikinti dövrü yaşamışdır. Evlər əvvəlcə qazma formasında tikilmişdir. Zəlzələ və sel dağıntıları nəticəsində yaşayış evləri tamamilə ayrı görkəm almışdır. Bərpa dövründən sonra evlər yarımqazma şəklində olmuşdur.

Yaşayış yerində aparılan sistemli arxeoloji araşdırma zamanı Son Tunc-Erkən Dəmir dövrünə aid keramika məmulatı, heyvan sümükləri, əmək alətləri, çaxmaqdaşı və obsidian parçaları aşkar olunmuşdur.

### *1.1.2. Mövsümü yaşayış yerləri*

Naxçıvan Muxtar Respublikasının ərazisində əkinçi-maldar tayfalarla bağlı qeydə alınmış mövsümü yaşayış məskənləri onların yarımköçəri həyat tərzi ilə bağlı yaranmışdır. Bu tip yaşayış yerlərində məskunlaşmış tayfaların təsərrüfat həyatında əkinçilik çox az yer tutmuş, maldarlıq üstünlük təşkil etmişdir. Onların əkinçilik məhsullarına olan tələbatlarının bir qismi ehtimal ki, qarşılıqlı iqtisadi-mədəni əlaqələrin nəticəsində ödənilmişdir. Bir qrup kənd təsərrüfatı məhsulları isə əkinçi-

maldar tayfaların öz fəaliyyəti ilə istehsal olunmuşdur. Bunu dağlıq və dağətəyi yerlərdəki arxeoloji abidələrdən dən daşlarının, həvəngdəstələrin və başqa maddi-mədəniyyət nümunələrin tapılması sübut edir.

Naxçıvan Muxtar Respublikasındakı mövsümü yaşayış məskənləri dağlıq və dağətəyi yerləri əhatə edir. Bu ərazilər orta və yüksək dağlıq qurşaq olaraq bir-birindən fərqlənir. Orta dağlıq qurşaq muxtar respublikanın şimal-qərb, mərkəz və cənub-şərq hissələrini tutur. Yüksək dağlıq qurşaq, orta dağlıq qurşağa nisbətən dar bir zolaq təşkil edərək Zəngəzur silsiləsi boyunca uzanır. Bu ərazidə maldarlığın inkişafı üçün zəngin alp və subalp çəmənlikləri var. Dağlıq qurşaqda relyef 1200-1300 metrdən 2000-2300 metrə qədər ucalır. Subalp çəmənlikləri 2300-2600 metr yüksəklikdə Kükü çay hövzəsindən başlayaraq Əlincəçay hövzəsinə qədər ensiz bir zolaq şəklində uzanır. Alp çəmənlikləri isə əsasən Salvartı, Ağdaban, Küküdağ, Ağdağ, Qapıcıq dağlarını əhatə edir (22, s. 44).

Naxçıvan Muxtar Respublikasının ərazisində qeydə alınmış mövsümü yaşayış məskənlərinə I Kükü, II Kükü, Kolanı, Haqqıxlıq, Dəmyələr, İlikliqaya, Sarıdərə, Qumluq və başqa abidələr daxildir.

***I Kükü yaşayış yeri.*** Şahbuz rayonunun Kükü kəndi ərazisində, Kükü çayın sağ sahilindəki təpənin üzərində yerləşir. Abidənin yerləşdiyi ərazi nalşəkilli formalı iki hündür təpədən və onların ətəyini birləşdirən düzənlikdən ibarətdir. Ərazi bir tərəfdən dağ silsiləsi, digər tərəflərdən dərin dərələrlə məhdudlaşmışdır.

Yaşayış yeri ilk dəfə 1986-cı ildə qeydə alınıb, kəşfiyyat xarakterli tədqiqatlar əsasında öyrənilmişdir. Tədqiqat zamanı yaşayış yerində iki yerdə kəşfiyyat şurfu qoyulmuşdur. Birinci şurf təpənin üzərində 1 x 1 sahədə1m dərinliyədək aparılmışdır. Bu zaman heç bir maddi-mədəniyyət nümunələri aşkar edilməmişdir. Ikinci şurf Kükü çayın sağ sahilində 2 x 2 m sahədə qoyulmuşdur. Tədqiqatlar zamanı 74 hektardan artıq

ərazini əhatə edən yaşayış yerində düzgün plana malik tikinti qalıqlarına təsadüf olunmamış, yerin relyefinə uyğun tikilmiş divar qalıqları, dördkünc formalı çalalar, Son Tunc-Erkən Dəmir dövrünə aid boz və çəhrayı rəngli gil qab qırıqları əldə edilmişdir. Aparılan arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, yaşayış yerindəki mədəni təbəqə güclü təbii aşınmaya məruz qaldığından pis saxlanılmışdır (73, s. 6-8).

***II Kükü yaşayış yeri.*** Şahbuz rayonunun ərazisində, Küküçayla Zırnelçayın birləşdiyi yerdə, Küküçayın sağ sahilində yerləşir. Abidə 6400 $m^2$ sahəni əhatə edir. Onun ətrafı hər tərəfdən zəngin bitki örtüyünə malik ərazilərlə əhatə olunmuşdur. Yaşayış yerini əhatə edən ərazidə sel sularının təsiri nəticəsində dərin dərələr əmələ gəlmişdir.

Abidə 1990-cı ildə tədqiqatçi V.B.Baxşəliyev tərəfindən qeydə alınaraq kəşfiyyat xarakterli tədqiqatlar əsasında öyrənilmişdir. Aparılmış arxeoloji araşdırmalar zamanı yaşayış yerində çox az miqdarda mədəni təbəqənin olduğu müəyyənləşmiş, boz və çəhrayı rəngli gil qab qırıqları toplanılmışdır. Tədqiqat zamanı müəyyən olunmuşdur ki, buradakı yaşayış binaları bir və ya iki cərgəli iri daşlardan dördbucaqlı formada tikilmişdir. Otaqlar bitişik, bəzən isə bir-birindən aralı salınmışdır (73, s. 8-10).

***Sarıdərə yaşayış yeri.*** Şahbuz rayonunun Güney Qışlaq kəndində, kənddən qərbdə, dağ silsiləsinin Küküçaya yenən dik yamacında yerləşir. Sahəsi 150 $m^2$ yaxındır. Yaşayış yeri oval planlıdır. Zəngin bitki örtüyünə malik dağlar və dərin dərələrlə əhatə olunub. Dağların yamacları seyrək meşəliklərdən ibarətdir. Burada maldarlığın inkişafı üçün əlverişli şərait var.

Yaşayış yeri kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Aparılan arxeoloji tədqiqat zamanı müəyyən olunmuşdur ki, yaşayış yerində məskunlaşmış insanlar mövsümü həyat tərzi keçirdiyindən burada çox az miqdarda mədəni təbəqə yığılmışdır. Yaşayış yerində geniş miqyaslı arxeoloji qazıntılar aparılmamışdır. Yalnız yerüstü maddi-

mədəniyyət nümunələri əsasında öyrənilmişdir (73 s. 5-6; 13, s. 21). Əldə olunmuş arxeoloji materialların (keramika nümunələri, obsidian ox ucluqları, dən daşları) tədqiqinə əsasən müəyyən olunmuşdur ki, yaşayış yerində həm Orta Tunc dövründə, həm də Son Tunc-Erkən Dəmir dövründə məskunlaşmış insanlar yarımköçəri həyat tərzi keçirmişlər.

*Qarnıyarıq yaşayış yeri.* Şahbuz rayonunun Kolanı kəndindən şərqdə, Naxçıvançayın sol sahilində, Kiçik Qafqaz dağ silsiləsinin çaya doğru uzanan hündür çıxıntısı üzərində, qədim ticarət yolunun yaxınlığında yerləşir. Hər tərəfdən dərin dərə ilə əhatə olunmuş yaşayış yeri şimal-şərqdən Kiçik Qafqaz dağ silsiləsi ilə, şimal-qərbdən isə Naxçıvançay vadisi ilə məhdudlaşmışdır. Onun ətrafındakı ərazilər zəngin bitki örtüyünə malik olub yaylaq maldarlığının inkişafı üçün əlverişlidir.

Bu arxeoloji abidə 1987-ci ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınaraq kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Tədqiqatlar zamanı müəyyyən olunmuşdur ki, 6200 $m^2$ sahəni əhatə edən yaşayış yerində mədəni təbəqə az yığılmışdır. Mədəni təbəqə təbii aşınma nəticəsində dağıldığından gil qablar (boz və çəhrayı rənglilər) qırılmış, daş əmək alətləri, obsidian ox ucluqları üzə çıxmışdır. Onlar e.ə. I minilliyin əvvəllərinə aid olmuşdur (73, s. 10-11, 13, s. 33-34).

*Şamlar yaşayış yeri.* Şahbuz rayonunun Qarababa kəndində şimal-şərqdə, Naxçıvançayın sol sahilində, qövsvari formalı təpənin üzərində yerləşir. Abidə şimal-şərqdən Naxçıvançay, şimal-qərbdən isə Quruçay vadisi və dağlarla əhatə olunmuşdur. Buradakı tikinti qalıqlarının çoxu dağıldığına görə onların yerində daş yığınları qalmışdır. Yaşayış yerinin yerləşdiyi ərazi zəngin bitki örtüyünə malik olduğundan burada maldarlığın inkişafı üçün əlverişli şərait var.

Abidə 1987-ci ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Onun rəhbərliyi ilə aparılmış kəşfiyyat xarakterli təlqiqatlar nəticəsində yaşayış yerinin sahəsi müəyyənləşmiş (1500 $m^2$), bir çox yerüstü arxeoloji materiallar toplanılmışdır.

Yaşayış yerində 2 x 3 sahədə qoyulmuş kəşfiyyat şurfu zamanı oradan 0, 5-1m dərinlikdə pis saxlanmılmış mədəni təbəqə aşkar olunmuşdur. Mədəni təbəqədən kül qalıqları, oçaq yeri, boz və çəhrayı rəngli keramika məmulatı toplanılmışdır. Yaşayış yerindən, dən daşları, həvəngdəstələr də aşkar edilmişdir (73, s. 11-14). Qazıntı zamanı abidədən tapılan gil qablar yerüstü keramika nümunəsi ilə oxşarlıq təşkil edir. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinə əsasən abidənin e.ə. IX-IV əsrlərə aid olduğu müəyyənləşmişdir.

Yaşayış yerində mədəni təbəqənin az toplanılması onu qeyd etməyə əsas verir ki, Naxçıvandakı dağlıq və dağətəyi yerlərdə olan bir çox başqa abidələr kimi bu yaşayış yeri də mövsümü xarakterlidir, yarımköçəri həyat tərzi ilə bağlılıq təşkil edir.

***Babatəpə yaşayış yeri.*** Şərur rayonunun Yurdçu kəndindən qərbdə konusvari formalı təpənin üzərində yerləşir. Abidənin sahəsi 0, 5 hektara yaxındır. Abidə cənub-qərbdə və cənub-şərqdə ümumi dağ silsiləsi ilə əhatə olunmuşdur. Yaşayış yeri maldarlıq təsərrüfatının inkişafı üçün əlverişli təbii-coğrafi mövqedə yerləşmişdir. Onu əhatə edən dağlar zəngin bitki örtüyü ilə əhatə olunduğuna görə, burada maldarlıq təsərrüfatının inkişafı üçün əlverişli şərait var.

Abidə 1983-cü ildə qeydə alınaraq kəşfiyyat xarakterli tədqiqatlar əsasında öyrənilmişdir (74, s. 50). Tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, yaşayış yerində həyat mövsümü xarakter daşıdığından burada çox az miqdarda (50 sm) mədəni təbəqə saxlanmışdır. Kül və çürüntü qalıqlarından ibarət olan mədəni təbəqənin təbii aşınmaya məruz qalması nəticəsində mədəni təbəqə dağılmış, xeyli miqdarda maddi-mədəniyyət nümunələri üzə çıxmışdır. Onlar keramika məmulatından, daş əmək alətlərindən (gürz, dən daşları, toxa) ibarət olmuşdur. Əldə olunmuş maddi-mədəniyyət nümunələri Dəmir dövrünün əvvəllərinə (e.ə. X-VIII əsrlərə) aid edilmişdir.

*Qazxan yaşayış yeri.* Şərur rayonunun Çərçiboğan kəndindən cənubda yerləşir. Yaşayış yeri su kanalı ilə iki hissəyə bölünmüşdür. Abidə 2008-ci ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Kəşfiyyat xarakterli tədqiqatlar zamanı öyrənilərkən müəyyən olunmuşdur ki, yaşayış yerinin yerləşdiyi ərazidə aparılmış təsərrüfat işləri nəticəsində oradakı mədəni təbəqə dağılmışdır. Mədəni təbəqənin dağılması nəticəsində abidədə Son Tunc-Erkən Dəmr dövrünə aid keramika məmulatları yer səthinə səpələnmişdir. Aparılan arxeoloji araşdırmalar zamanı abidənin yaxınlığında Son Tunc-Erkən Dəmir dövrünə aid nekropolun yerləşməsinə əsasən yaşayış yerində insanların bu dövrdən başlayaraq məskunlaşdığı müəyyənləşmişdir (20, s. 75-78; 21, s. 57).

*Yurdçu yaşayış yeri.* Şərur rayonunundakı eyni adlı kənddən cənub-şərqdə təpə uzərində yerləşir. Sahəsi 3 hektara yaxındır. Abidə 1983-cü ildə qeydə alınmışdır. Aparılan kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, yaşayış yerində çox az miqdarda mədəni təbəqə saxlanılmışdır. Kül qarışıq torpaq layından ibarət olan mədəni təbəqə təbii aşınma nəticəsində dağıldığından əksər abidələrdə olduğu kimi burada da ətrafa xeli miqdarda keramika qırıqları səpələnmişdir.

Yaşayış yerindən əldə edilmiş yerüstü maddi-mədəniyyət nümunələri Babatəpə yaşayış yerində olduğu Erkən Dəmir dövrünə (e.ə. X-VIII əsrlər) aid edilmişdir. Əldə olunmuş maddi-mədəniyyət nümunələri boz və çəhrayı rəngli gil qabların qırıqlarından, daş əmək alətlərdən ibarət olmuşdur (74, s. 44; 38, s. 87-90).

*Kərki yaşayış yeri.* Eyni adlı kəndin cənubunda, dağlıq ərazidə yerləşir. Abidə kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Tədqiqatlar zamanı yaşayış yerində mədəni təbəqələnin az yığıldığı müəyyən olumuşdur. Yaşayış yerindən Orta Tunc dövrü ilə yanaşı Son Tunc-Erkən Dəmir dövrü üçün xarakterik olan boz və çəhrayı rəngli keramika nümunələri də (küpə, kasa tipli qabların qırıqları) aşkar

olunmuşdur (74, s. 85-86). Aparılmış arxeoloji araşdırma nəticəsində müəyyən edilmişdir ki, yaşayış yerində Orta Tunc dövrü ilə yanaşı Son Tunc-Erkən Dəmir dövründə də, insanlar mövsümü həyat tərzi keçirmişlər.

***Məmməd yeri yaşayış yeri.*** Şərur rayonunun Axamət kəndinin şimalında, «Kəbirli», «Kəlbili» adlı yerdə yerləşir. 2008-ci ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Aparılan kəşfiyyat xarakterli tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, hər tərəfdən su kanalı ilə əhatə olunmuş yaşayış yerində aparılmış təsərrüfat işləri nəticəsində oradakı mədəni təbəqə dağılmışdır. Dağılmış mədəni təbəqədən üzə çıxmış maddi-mədəniyyət nümunələri e.ə. I minilliyə aid keramika qırıqlarından ibarət olmuşdur. Onların hamısı narın qum qarışığı olan gildən hazırlanmışdır. Boz və çəhrayı rəngli olmaqla bir-birindən fərqlənmişdir. Əldə olunmuş keramika məmulatlarının hamısı yaxşı bişirilmişdir. Onların bir qisminin xarici səthi hamarlanmış, bəziləri isə cilalanmışdır (21, s. 58).

***Dəmyələr yaşayış yeri.*** Ordubad rayonunun Tivi kəndi ərazisində, kənddən şərqdə yerləşir. O hər tərəfdən zəngin bitki örtüyünə malik otlaq sahələri ilə əhatə olunub. Sahəsi 4 hektardan artıqdır. Yaşayış yerinin bir hissəsini eyni adlı nekropoldan dərin dərə ayırır.

Abidə 2005-ci ildə V.B.Baxşəliyevin rəhbərliyi ilə tərəfimizdən aparılan arxeoloji tədqiqatlar zamanı qeydə alınaraq kəşfiyyat xarakterli araşdırmalar əsasında öyrənilmişdir (18, s. 84-93). Yaşayış yerində aparılmış arxeoloji araşdırmalar zamanı yerli əhalidən toplanılmış etnoqrafik materiallardan da istifadə edilmişdir. Əldə olunmuş etnoqrafik materallardan, yaşayış yernin ətrafındakı su kanalının izlərindən aydın olmuşdur ki, bu abidənin yerləşdiyi əraziyə vaxtı ilə Gəmiqayadan su arxı çəkilmişdir. Gəmiqayadakı Ağızlıq, Dəli çeşmə, Qaranquş çeşməsinin suyu xüsusi kanallar vasitəsi ilə Nazağa yaylağına aparılmışdır. Oradan isə Qanqallı gözədən keçərək Dəmyələrə gətirilmişdir.

Yaşayış yerində aparılmış kəşfiyyat xarakterli tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, buradakı tikinti qalıqlarının çoxu dağılmışdır. Mədəni təbəqə çox az miqdarda (0, 5 sm qalınlığında) saxlanmışdır. Dağılmış tikili qalıqlarının yerində daş yığınları və üzərini otlar örtən dördkünc formalı çalalar qalmışdır. Yaşayış yerindəki kül qarışıq torpaq layından ibarət olan mədəni təbəqə güclü təbii aşınmaya məruz qalmışdır. Mədəni təbəqənin təbii aşınma nəticəsində dağılması ilə bağlı olaraq abidənin üzərinə xeyli miqdarda keramika qırıqları çıxmışdır. Onlar Son Tunc-Erkən Dəmir dövrünə aid küpə, kasa, çölmək, dolça tipli qabların hissələrindən ibarət olmuşdur.

***Qumluq yaşayış yeri.*** Ordubad rayonunun Bist kəndi ərazisindən şimal-şərqdə, Nəsirvaz çayının sağ sahilində yerləşir. Sahəsi 3 hektardan artıqdar. Onu eyni adlı nekropoldan kənd sakinlərinin biçənək sahəsinə gedən avtomobil yol ayırır.

Abidə 2005-ci ildə V.B.Baxşəliyevin rəhbərliyi ilə tərəfimizdən aparılan arxeoloji araşdırmalar zamanı qeydə alınaraq kəşfiyyat xarakterli tədqiqitlar əsasında öyrənilmişdir (19, s. 81-85). Aparılan arxeooji araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, yaşayış yerində olan binaların çoxu dağılmış, onların yerində daş yığınları, üzərini otlar ortən dördkünc formalı çalalar qalmışdır. Yaşayış binalarının bir qismi düzənlik sahədə, bir qismi isə yamacda salınmışdır. Onlar daş və möhrə ilə dördbucaqlı planda tikilmişdir.

Yaşayış yerində məskunlaşan insanların mövsümü həyat tərzi keçirmələri orada təbəqələşmə prosesinin zəif getməsinə, mədəni təbəqənin az (0, 5 sm qalınlığında) toplanılmasına səbəb olmuşdur. Mədəni təbəqə təbii aşınma nəticəsində dağıldığından abidədə xeyli miqdarda maddi-mədəniyyət nümunələri üzə çıxmışdır. Yerüstü maddi-mədəniyyət nümunələri Son Tunc-Erkən Dəmir dövrünə aid olan boz və çəhrayı rəngli küpə, kasa, çölmək və b. tipli qabların hissələrindən, daş əmək alətlərindən ibarət olmuşdur

***İlikliqaya yaşayış yeri.*** Ordubad rayonunun Tivi kəndi ərazisində, kənddən şərqdə, Dəmyələr nekropolundan qərbdə, qumluq ərazidə yerləşir. Abidənin yerləşdiyi yer xalq arasında «Bənövşə qumluğu» adı ilə tanınır.

Yaşayış yeri ilk dəfə 2005-ci ildə V.B.Baxşəliyevin rəhbərliyi ilə tərəfimizdən aparılan arxeoloji araşdırma zamanı qeydə alınaraq, toplanılmış yerüstü keramika məmulatı əsasında öyrənilmişdir (21, s. 121; 48, s. 94-98). Bu sahədə aparılan arxeoloji tədqiqatlar sonrakı dövrdə də davam etdirilmişdir.

Tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, buradakı yaşayış evlərinin çoxu dağılmışdır. Onların yerində daş yığınları, torpaq qarışıq təpəciklər, üzərini otlar örtən dördkünc formalı çalalar qalmışdır. Abidədəki yaşayış binalarının bir qismi ovalvari formalı təpənin üzərindəki düzənlik ərazidə salınmış, bir qismi isə dərənin qırağında, bulağın yanında tikilmişdir. Yaşayış yerinin sahəsi 2 hektardan artıqdır. Orada mədəni təbəqə çox az miqdarda (0, 5-1m qalınlığında) saxlanmışdır. Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarətdir. Onun xeyli hissəsi təbii aşınma nəticəsində dağılmışdır.

Abidədə geniş miqyaslı arxeoloji qazıntı işləri aparılmasa da, toplanılmış maddi-mədəniyət nümunələrinin tədqiqinə əsasən yaşayış yerinin dövrü müəyyən olunmuş, orada məskunlaşan isanların həyat tərzi öyrənilmişdir. Dağılmış mədəni təbəqədən əldə olunmuş maddi-mədəniyyət nümunələri Son Tunc-Erkən Dəmir dövrünə aid boz və çəhrayı rəngli keramika məmulatlarından (küpə, kasa, çölmək və b. tipli gil qablar), daş əmək alətlərindən (dən daşı, sürtgəc, dəstə) ibarət olmuşdur.

***Gəmiqaya yaşayış yeri.*** Ordubad rayonunun Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, dəniz səviyəsindən 3906 m yuksəklikdə yerləşir. İlk dəfə 1967-ci ildə geoloqlar tərəfindən aşkar olunmuşdur. 1968-ci ildə abidə V.H.Əliyev tərəfindən qeydə alınaraq, onun haqqında ilk elmi məqalə yazılmışdır (181).

Abidənin sistemli tədqiqinə 70-ci illərdə, ümummilli lider Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyinin birinci dövründə başlanılmışdır. 1971-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının Rəyasət Heyəti Gəmiqayada tədqiqat işlərinin aparılmasını, elmi albomun nəşr edilməsini, elmi-kütləvi filmin çəkilməsini qərara almışdır.

1970-1987-ci illərdə Gəmiqayada aparılan tədqiqatar nəticəsində bir sıra elmi nəticələr əldə olunmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin xüsusi qayğısı ilə, Nax MR Ali Məclisinin təşəbbüsü nəticəsində 2001-ci ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, AMEA A.M.Abdullayev adına Naxçıvan Regional Elm Mərkəzi, Naxçıvan Dövlət Universiteti əməkdaşlarının iştirakı ilə Gəmiqaya abidəsinə arxeoloji ekspedisiya təşkil esdilmişdir. Ekspedisiya zamanı oradan yüzlərlə yeni qayaystü təsvirlər aşkar olunmuşdur. Gəmiqayada aparılan tədqiqatar 2002-2003-cü illərdə və sonrakı dövrlərdə də davam etdirilmişdir.

Abidənin öyrənilməsi sahəsində V.H.Əliyev (39), V.B.Baxşəliyev (14; 15), N.Ə.Müseyibli (68), A.Q.Seyidov (82) tərəfindən müxtəlif dövrlərdə aparılmış arxeoloji tədqiqatlar zamanı xeyli miqdarda qayaüstü təsvirlər aşkar olunaraq öyrənilmişdir.

Gəmiqayada yerləşən Qaranquş yaylağındakı qədim yurd yerlərinin qalıqları V.H.Əliyev (39, s. 17), N.Ə.Müseyibli (68, s. 33-36) tərəfindən öyrənilərək onların planı çıxarılmış, müxtəif keramika nümunələri toplanılmşdır. Abidədə aparılmış arxeoloji tədqiqatlar zamanı Nəbi yurdunun şimal hissəsində "Dava daşı" adlı yerdə əkinçi-maldar tayfaların sosial-ictimai, syasi, həyat tərzi ilə bağlı olan siklopik tipli müdafiə istehkamları aşkar olunmuşdur (40, s. 16-18). Aparılan arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Cəmiqayadakı yurd yerlərinin qalıqları e.ə. II miniliyin ikinci yarısı-Iminilliyin əvvəlinə (68, s. 36) aid olmuşdur. Gəmiqayada olan çoxlu sayda qayaüstü təsvirlər e.ə. IV-I

minilliyə aid bir dövrü əhatə edir. Son illərin araşdırılması bu təsvirlərin daha qədim tarixə malik olduğunu göstərir.

Naxçıvanın aran və dağlıq zonalarında mövsümü yaşayış məskənlərinin qeydə alınması əhalinin yaylaq və qışlaq maldarlığı ilə məşğul olduğunu göstərir. Dağlıq ərazidəki bir qrup yaşayış yerləri isə yarımköçəri maldarlıqla bağlıdır.

### *1.1.3. Qala tipli yaşayış yerləri*

Naxçıvan Muxtar Respublikasında qeydə alınmış əkinçi-maldar tayfalarla bağlı arxeoloji abidələrdən bir qrupunu ətrafı müdafi divarları ilə əhatə olunmuş qala tipli yaşayış məskənləri- siklopik tikintilər təşkil edir. Cənubi Qafqazdakı siklopik tikintilər sırasına daxil olan bu tip yaşayış məskənləri özünəməxsus xüsusiyyət daşıyır. Onlar tikinti texnikasına görə oturaq və mövsümü yaşayış məskənlərindən fərqlənirlər. Bu tip yaşayış məskənləri iri daşlarla, quru, bərkidici məhlul olmadan, yerin relyefinə uyğun olaraq tikilmişdir. Onların xarici görnüşünə, tikinti texnikasına görə oxşar və fərqli xüsusiyyətləri var. Buna görə də, bu tip yaşaşış yerlərinin hansı məqsədlə salınması haqqında konkret elmi fikir demək bir qədər çətinlik törədir. Bununla bağlı bir çox fikirlər irəli sürülmüşdür.

Tədqiqatçılardan İ.M.Cəfərzadə (127, s. 15), C.Ə.Xəlilov (44, s. 67) onların yaranma tarixini e.ə. II minilliyə, V.H.Əliyev, A.Q.Seyidov e. ə. II minilliyin sonu-I minilliyin əvvəlinə (35, s. 22; 83, s. 196), İ.İ.Meşşaninov isə e.ə. I minilliyə aid etmişlər (152, s. 65). Qala tipli yaşayış yerlərini tikinti texnikasına görə iki (139, s. 120), üç (151, s. 145; 98, s. 55-57), dörd (127, s. 37-40), altı (97, s. 12) qrupa bölərək tədqiq etmiş, hansı məqsədlərlə istifadə olunduğunu öyrənmişlər.

İ.İ.Meşaninov bu tip yaşayış məskənlərinin çoxunun əsasən ticarət yollarının üzərində salınanması faktına

əsaslanaraq qeyd etmişdir ki, qala tipli yaşayış məskənləri-siklopik tikintilər ticarət yollarının müdafiə edilməsi məqsədiylə tikilmişdir (151, s. 55).

V.İ.Kərimov beləbir fikir irəli sürmüşdür ki, qədim müdafiə istehkamlarından olan qala tipli yaşayış məskənləri-siklopik tikintilər əsasən yaşayış yeri kimi istifadə olunmuşdur. Onların bir qismi iki, bəziləri isə bir cərgə iri daşlarla hörülmüşdür. Tayfalararası hərbi qarşıdurmalar zamanı həmin siklopik tikintilərdən həmçinin müdafiə məqsədilə sığınacaq yeri kimi istifadə olunmuşdur (138, s. 175).

T.R.Əliyev siklopik tikintiləri öyrənərkən onlardan həm sığınacaq yeri, həm də yaşayış məskəni və heyvan saxlamaq üçün yer kimi istifadə olunduğunu əsas götürmüşdür (98, s. 55-57).

R.B.Bağırov bu tip yaşayış məskənlərinin bir qismini Naxçıvnadakı qala-şəhərlər sırasına daxil edərək onların Azərbaycanda ilk sinifli cəmiyyətin, tayfa ittifaqlarının və dövlət qurumlarının meydana gəlməsi, təkamülü prosesini öyrənmək baxımından elmi əhəmiyyətini yüksək qiymətləndirmişdir (23, s. 5).

Qala tipli yaşayış məskənlərinin-siklopik tikintilərin hansı məqsədlərlə salınması, memarlıq və tikinti xüsusiyyəti haqqında tədqiqalçıların fikirləri müxtəlf olsa da, onların əldə etdiyi nəticələrdə bir neçə faktlar bir-biri ilə üst-üstə düşür. Həmin elmi nəticələr Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da siklopik tipli yaşayış məskənlərinin əsasən dağlıq və dağətəyi yerlərdə salınmasından, yerin relyefinə uyğun tikilməsindən (düzbucaqlı, trapesiya, oval və başqa formada), çox az mədəni təbəqəyə malik olmasından ibarətdir. Tədqiqatçıların fikirlərindən, aparılan müqayisəli araşdırmadan belə bir yekun nəticə gəlmək olar ki, Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da qala tipli yaşayış məskənlərinin-siklopik tikintilərin hansı məqsədlə tikilməsindən asılı olmayaraq onların insanların həyat tərzi ilə bağlılığı var. İstər oturaq, istərsə yarımköçəri həyat tərzi

keçirən əkinçi-maldar tayfalar qala tipli yaşayış yerlərindən istifadə etmişlər.

Naxçıan Muxtar Respublikasında qeydə alınmış qala tipli yaşayış yerlərinə Vayxır, Qazançı, Qarabağlar, Qız qalası və digər abidələri nümunə göstərmək olar.

***Vayxır qalası.*** II Kültəpədən şimalda, Vayxır kəndi yaxınlığında, Naxçıvançayın sol sahilində, Qızılboğaz keçidi üzərində yerləşir. Sahəsi 2 hektardan artıqdır. Onu əhatə edən ərazi zəngin bitki örtüyünə malik olduğundan ora maldarlığın inkişafı üçün əlverişlidir. Bu abidə ümumi planda altıbucaqlıdır (şəkil 3). O hər tərəfdən dərin yarğan və sıldırım qayalarla əhatə edilərək təbii mühafizəyə malik olsa da əlavə müdafiə istehkamları ilə də möhkəmləndirilmişdir. Yaşayış yerinin qərb tərəfi digər yerlərlə müqayisədə daha çox sıldırım qayalıq olduğundan həmin istiqamətdə müdafiə divarları çəkilməmişdir. Yaşayış yerindəki müdafiə istehkamlarının (qala divarlarının) çoxu dağılsa da bəzi yerlərdə nisbətən salamat qalmışdır (eni 5 m, hündürlüyü 2-2, 5 m). Müdafiə divarları (cənub divarının uzunluğu 150 m, şimal divarının uzunluğu 140 m) yerin relyefinə uyğun olaraq iri qaya parçalarından, yonulmamış daşlardan ziqzaq şəklində hörülərək, dördkünc bürclər və bucaqşəkilli çıxıntılarla tamamlanmışdır.

Qalaya giriş şərq tərəfdən olmuşdur. Ora hər iki tərəfdən müdafiə əhəmiyyətli bürclərlə möhkəmləndirilmişdir. Onun şimal divarı yaxınlığında üç yerdə qala bürcləri tikilmişdir. Bürclərdən ikisi eyni formalıdır, üçüncü bürc isə bir qədər fərqli tikilmişdir. Yaşayış yerindəki evlər (9 x 5) düzbucaqlı planda olmuşdur (104, s. 54-56). Abidədə geniş miqyaslı arxeoloji qazıntı işləri aparılmamışdır. Kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir.

Memar V.İ.Kərimov yaşayış yerini tikinti texnikasına görə öyrənərkən müəyyən etmişdir ki, buradakı divarlar (eni 4-5 m) yonulmamış iri qaya parçalarından, heç bir bərkidiçi məhlul olmadan tikilmişdir (138, s. 175).

D.A.Axundov (115, s. 192), V.H.Əliyev (104, s. 55) abidənin tikinti texnikasını tədqiq etmiş, qalanın tikilmə tarixinin e.ə. IIminilliyin sonu-I minilliyin əvvəllərinə aid olduğunu qeyd etmişlər. Abidədə aparılmış arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, yaşayış yeri tikinti texnikasına görə Çalxanqala, Oğlanqala ilə oxşarlıq təşkil etmiş, Midiya qalaları kimi (130, s. 185) əlverişli strateji mövqedə yerləşmişdir.

Yaşayış yerində geniş miqyaslı arxeoloji qazıntılar aparılmamış, yalnız yerüstü madd-mədəniyyət nümunələri əsasında öyrənilmişdir. Buradan əldə olunmuş yerüstü maddi-mədəniyyət nümunələri Son Tunc-Erkən Dəmir dövrünə aid boz və qara rəngli gil qab qırıqlarından və tunc asmadan ibarət olmuşdur.

***Qarabağlar Govurqalası.*** Kəngərli rayonunun Qarabağlar kəndindən 3 km şimal-şərqdə, Kiçik Qafqaz dağlarının ətəyində, Damlama yaşayış yerinin yaxınlğında yerləşir. Sahəsi 2 hektara yaxındır. Abidə şimaldan, cənubdan və qərbdən sıldırım qayalarla əhatə olunmuşdur. Yaşayış yerindəki müdafiə divarları yonulmamış iri daşlarla heç bir bərkidiçi məhlul olmadan tikilmişdir. Uzunluğu 200 m, eni 3-3, 5 m-ə yaxın olan qala divarlarının giriş qapısı (eni 3, 2 m) cənub tərəfdən olmuşdur (99, s. 8-9; 173, s. 32-33).

Yaşayış yerində geniş miqyaslı arxeoloji qazıntılar aparılmamışdır. Kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Tədqiqatlar zamanı oradan e.ə. II minilliyin sonu-I minlliyin əvvəlinə aid boz və qara rəngli keramika qırıqları toplanılmışdır.

***I Bəzəkli qalası.*** Kəngərli rayonunun Bəzəkli kəhrizinin şimalında, kənd yerinə gedən yolun üzərində, strateji cəhətdən əlverişli mövqedə, hündür, uzunsov təpənin üzərində salınmışdır. Sahəsi 1125 $km^2$-dir. Abidə V.B.Baxşəliyev tərəfindən qeydə alınmış, kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir (21, s. 230).

Yaşayış yerinin mərkəzində Narınqala yerləşir. Qala üçbucaq formalı qurluşa malikdir. Abidə hər tərəfdən iri qaya parçalarından hörülmüş divarla əhatə olunmuşdur. Divar qalıqları bəzi yerlərdə 1 m hündürlükdə saxlanmışdır. Divarlar yanlarda iri daşlardan tikilmiş, onların arası isə kiçik həcmli qaya parçaları ilə doldurulmuşdur. Qala cənub tərəfdən ikiqat divarla əhatə olunmuşdur. Abidənin quruluşu və tikinti texnikası Erkən Dəmir dövrü abidələri üçün xarakterikdir.

***Qız qalası yaşayış yeri.*** Şərur rayonunun Aşağı Yaycı kəndindən cənub-şərqdə, Uzunqaya dağ silsiləsinin Arpaçaya yendiyi yerdə yerləşir. Yaşayış yeri şərqdən Arpaçay vadisi, cənubdan düzənlik ərazi, şimaldan və qərbdən isə zəngin bitki örtüyünə malik dağlarla əhatə olunmuşdur. Buna görə də yaşayış yerinin yerləşdiyi ərazidə heyvandarlığın inkişafı üçün çox əlverişli şərait var. Yaşayış yerindəki tikinti qalıqlarının çoxu dağılmışdır. Nisbətən salamat qalmış divar qalıqları yaşayış yerinin cənub-qərb tərəfində saxlanılmışdır. Dağılmış yaşayış evlərinin qalıqlarının yerində üzərini otlar örtən dördkünc formalı çalalar qalmışdır. Yaşayış yerindəki müdafiə divarları tikinti texnikasına görə Oğlanqala, Vayxır və başqa abidələrlə oxşarlıq təşkil edir. Digər qalalar kimi onlar da yonulmamış daşlardan, iri qaya parçalarından yerin relyefinə uyğun tikilmişdir.

Yaşayış yerində geniş miqyaslı arxeoloji qazıntı aparılmamış, kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Tədqiqatlar zamanı abidədə mədəni təbəqənin az saxlanıldığı müəyyənləşmiş, keramika nümunələri, daş əmək alətləri və digər yerüstü arxeoloji materiallar toplanılmışdır (74, s. 94-95).

***Qarasu qalası.*** Gümüşlü qəsəbəsinin şimalında hündür təpə üzərində yerləşir. Onun yerləşdiyi ərazi bir neçə terrasdan ibarət olub kobud yonulmuş iri daşlardan hörülmuş divarlarla əhatə edilmişdir. Üst terrasda salınmış qala divarları iki hissəyə bölünmüşdür. Narınqala yaşayış yerinin mərkəzində yerləşir.

Yaşayış yerində geniş miqyaslı arxeoloji tədqiqatlar aparılmamışdır. Toplanılmış yerüstü arxeoloji materiallar əsasında öyrənilmişdir. Müəyyən olunmuşdur ki, buradan əldə olunmuş keramika qırıqlarından bir qismi Erkən Dəmir dövrünə aiddir (74, s. 86).

***Çalxanqala yaşayış yeri.*** Payız kəndindən şimalda, Cəhriçayın qərbində, Naxçıvan şəhərindən 22 km şimal-şərqdə yerləşir. Onun strateji coğrafi mövqeyi Naxçıvançay və Cəhriçay vadilərini nəzarətdə saxlamaq üçün əlverişlidir. Yaşayış yeri hər tərəfdən qayalıqlarla, zəngin bitki örtüyünə malik yerlərlə əhatə olunmuşdur. Burada maldarlığın inkişaf üçün əlverişli şərait var. Qalanın içərisində Əlincə qalasında olduğu kimi yağış suyunun yığılması üçün daş hovuzlar düzəldilmişdir. Tədqiqatçıların verdiyi məlumata görə orada yeraltı keçid rolunu oynamış zağa var (35, s. 16). Bu zağa həm yeraltı sığınacaq, həm də qalaya gedən gizli yol olmuşdur. Tayfalararası hərbi qarşıdurmalar zamanı Çalxanqalada yaşayan insanlar oradan qalaya su və ərzaq gətirmişlər. Xalq arasında «Vəlibaba» adı ilə tanınan bu zağanın yaşayış yerinin hansı hissəsində olması haqqında hələlik dəqiq məlumat olmasa da, bununla bağlı xeyli etnoqrafik materiallar toplanılmışdır (62, s. 20-21).

Yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, buradakı divarlar yerin relyefinə uyğun olaraq ziqzaq şəkilində tikilmişdir. Divarlar hər 10-15 m-dən bir xaricə doğru bucaqşəkilli çıxıntı əmələ gətirmişdir. Onun bir hissəsi sıldırım qayalıqla əhatə olunaraq təbii müdafiəyə malik olduğundan həmin tərəfə qala divarları çəkilməmişdir. Digər tərəfələrdə isə möhkəm qala divarları tikilmişdir (şəkil 5). Yaşayış yerindən aşkar edilmiş müdafiə divarlarının qalıqları tikinti texnikasına görə Oğlanqala, Vayxır, Qazançı qalası ilə dah çox oxşarlıq təşkil edir.

Qalanın əsas giriş yolu cənub-şərq tərəfdən, Cəhriçayının sağ sahilindən olmuşdur. Şərq-qərb istiqamətində

çəkilən qala divarlarının salamat qalan hissəsində onların uzunluğu 450 m, hündürlüyü 2, 5 m, eni 2, 7 m-ə yaxındır (81, s. 76). Cənub-şərqdəki və cənub-qərbdəki qala qapılarının eni 2, 7-3 m, qalınlığı isə 1-1, 2 metirdir. Buradakı divarların tikintisində uzunluğu 1, 6-2, 55 m, qalınlığı 0, 45-80 sm olan bir neçə nəfərin çətinliklə götürə biləcəyi iri qaya parçalarından istifadə olunmuşdur (101, s. 74; 115, s. 110). Qalanın içərisində olan yaşayış evlərinin qalıqları müxətlif ölçüdə olsa da, onların hamısı dördkünc planda tikilmişdir.

Abidə ilk dəfə 1969-cu ildə O.H.Həbubullayev və V.H.Əliyev tərəfindən qeydə alınaraq kəşfiyyət xarakterli tədqiqatlar əsasında öyrənilmişdir (101, s. 74-75). V.H.Əliyev qalanı Azərbaycandakı siklopik tikintilər sırasına daxil etmiş, toplanılan boz rəngli keramikalara əsasən buranın tikilmə tarixini müəyyənləşdirmişdir. Tədqiqatçı yaşayış yerinin tikilmə tarixini e.ə. II minilliyin birinci yarısına, təqribən e.ə. XVII əsrə aid etmişdir (104, s. 52-54).

O.Belli, V.Sevin abidənin öyrənilməsi sahəsində apardığı arxeoloji tədqiqatlar nəticəsində qalanın tikilmə tarixinin e.ə. II mininlliyin ortalarına aid olduğunu qeyd etmişdir (92, s. 24). Aparılan arxeoloji tədqiqatlar zamanı yaşayış yerindən müxtəlif keramika nümunələri, daş əmək alətləri toplanılmış, çox az miqdarda mədəni təbəqənin saxlandığı müəyyənləşmişdir.

Yaşayış yerində Son Tunc-Erkən Dəmir dövrüna aid memarlıq qalıqları V.H.Əliyevlə yanaşı olaraq V.I.Kərimov tərəfindən də müəyyən olunmuşdur (139, s. 55). V.I.Kərimov yaşayış yerindəki Narınqalanın dördkünc planda olduğunu, rizalitlərlə möhkəmləndirildiyini göstərmişdir.

2001-ci ildə V.B.Baxşəliyev tərəfindən abidədə aparılmış arxeoloji araşdırmalar nəticəsində oradakı müdafiə divarlarının dəqiq ölçüləri götürülməklə yanaşı, Erkən Dəmir dövrünə aid keramika məmulatları da toplanılmışdır (16, s. 136).

Abidədə geniş miqyaslı tədqiqatlar aparılmasa da, ətrafdakı sahələrin zəngin bitki örtüyünə malik olması, orada mədəni təbəqələşmənin zəif getməsi göstərir ki, yaşayış yerində məskunlaşmış insanlar maldarlıq təsərrüfatı ilə məşğul olmuş, yarımköçəri həyat tərzi keçirmişdir.

***Cənnət qayası yaşayış yeri.*** Şərur rayonun Tənənəm kəndinin şərqindəki «Ağ zirət» adlı yerin yaxınlığında təpə üzərində yerləşir. Sahəsi 6 hektara yaxındır. O hər tərəfdən dağlarla əhatə olunub. Dağlar zəngin bitki örtüyünə malik olduğundan burada heyvandarlığın inkişafı üçün əlverişli şərait var. Yaşayış yerindəki tikinti qalıqları əsasən dağılmışdır. Onların yerində daş yığınları və üzərini otlar örtən çalalar qalmışdır. Saxlanılmış tikili qalıqlarına əsasən yaşayış yerindəki evlərin dördkünc planda tikildiyi aydın bilinir.

Abidə kəşfiyyat xarakterli tədqiqatlar əsasında öyrənilmişdir. Tədqiqatlar zamanı burada mədəni təbəqənin çox az saxlanıldığı (50 sm) müəyyən olunmuş, boz və çəhrayı rəngli gil qab qırıqları, dən daşları və başqa yerüstü materiallar toplanılmışdır (74, s. 161).

***Qazançı qalası.*** Culfa rayonunun Qazançı kəndi ərazisində, Əlincəçayın sağ sahilində yerləşir. Abidə hər tərəfdən sıldırım dərələrlə əhatə olunmuşdur. Sahəsi 5-6 hektara yaxındır. Yaşayış yeri əlverişli strategi coğrafi mövqeydə yerləşmişdir. Onun ətrafında əkinçiliyin və maldarlığın inkişafı üçün geniş torpaq sahələr var. Yaşayış yeri iki hissədən ibarət olmuşdur. Bunlardan biri dağın zirvəsində salınan Narınqala, digəri isə Əlincəçayın sahilindəki müdafiə sədlərindən ibarətdir. Müdafiə divarlarının çox hissəsi dağılsa da bəzi yerlərdə 1-2 m hündürlükdə saxlanılmışdır. Şimaldan və şimal-qərbdən yaşayış yeri təbii cəhətdən zəif müdafiə olunduğu üçün orada divarların qalınlığı (2, 5-3 m) nisbətən böyük olmuşdur (75, s. 37).

Qalanın birinci hissəsi ikincidən dərə boyunca çəkilmiş ikiqat divarlarla ayrılmışdır. Müdafiə divarlarından fərqli olaraq

Narınqalanın hörgüsündə bərkidici məhlul kimi gildən də istifadə olunmuşdur. Müdafiə divarları isə heç bir bərkidici məhlul olmadan iri qaya parçalarından tikilmişdir (şəkil 3). Yaşayış yerinin Narınqalası tikinti texnikasına görə Vayxır qalası ilə daha çox oxşarlıq təşkil edir. Abidənin cənub və qərb hissəsində salınan müdafiə tikintiləri yarımdairəvi planda olmuşdur. Onların arasında bir-birinə keçid qoyulmuşdur. Müdafiə divarlarının yan və alt cərgəsi nisbətən iri, onların arası isə orta və kiçik həcmli daşlarla hörülmüşdür. Daşlar bir-birinə çox ustalıqla bağlanılmışdır. Bu isə həmin divarların uzun müddətli olmasına səbəb olmuşdur.

Abidədə müxtəlif dövrlərdə tədqiqatçılardan V.H.Əliyev (104, s. 55-56), V.B.Baxşəliyev, Ə.İ.Novruzlu, O.Belli, V.Sevin (75, s. 35-40; 92, s. 30; 89, s. 65) tərəfindən arxeoloji tədqiqatlar aparılmışdır.

V.H.Əliyev tərəfindən aparılan kəşfiyyat xarakterli tədqiqat zamanı abidənin sağ sahil hissəsi öyrənilmiş, onun planı çıxarılmışdır (104, s. 56).

V.B.Baxşəliyev, Ə.İ.Novruzlu tərəfindən 1991-ci ildə onun hər iki hissəsinin planı çıxarılmış, Orta Tunc dövrü ilə yanaşı Son Tunc-Erkən Dəmir dövrünə aid keramika məmulatları toplanılmışdır (75, s. 35).

1998-1999-cu illərdə O.Belli və V.Baxşəliyev tərəfindən yaşayış yerində Əlincə çayının sol sahilində yerləşən Narınqalanın və müdafiə divarının qalıqları üzə çıxarılmışdır. Müəyyən olunmuşdur ki, buradakı e.ə. I minilliyin əvvəllərinə aid divar qalıqları tikinti texnikasına görə Orta Tunc dövrünə aid tikililərdən tamamilə fərqlənir. Bu divarlar üzunsov formalı daş bloklardan xarici tərəfə diş biçimli çıxıntılar şəklində hörülərək (93, s. 30) tikinti texnikasına görə Oğlanqala, Çalxanqala divarları ilə oxşarlıq təşkil etmişdir. Tədqiqatçılar tərəfindən müxtəlif dövrlərdə abidədə aparılmış arxeoloji araşdırmalar zamanı orada çox az miqdarda (0, 5 m-1, 5 m) mədəni təbəqənin saxlandığı müəyyənləşmiş, Orta Tunc dövrü

ilə yanaşı Son Tunc-Erkən Dəmir dövrünə aid müxtəlif maddi-mədəniyyət nümunələri tapılmışdır (75, s. 37).

***Gülüm-Gülüm yaşayış yeri.*** Ordubad rayonunun Nəsirvaz kəndindən cənub-qərbdə dağın ətəyində yerləşir. Abidə 2008-ci ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınaraq kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Aparılan arxeoloji araşdırmalar zamanı abidədən e.ə. I minilliyə aid olan müdafiə divarlarının (uzunluğu 35 m, qalınlığı 1, 2-1, 5 m) və yaşayış binasının qalıqları aşkar edilmişdir. Müəyyən olunmuşdur ki, yaşayış yerindəki müdafiə divarları iri qaya parçaları ilə hörülərək, araları kiçik həcmli daşlarla doldurulmuşdur (20, s. 142).

***Qalacıq yaşayış yeri.*** Kəngərli rayonunun Qarabağlar kəndinin şimal-şərqində, bir neçə terrasdan ibarət olan təpənin üzərində yerləşir. Abidə 30 hektara yaxın ərazini əhatə edir (74, s. 63). Asnı çayı ilə iki hissəyə ayrılmış yaşayış yerinin mərkəzində Narınqala, ətrafında isə yaşayış binalarının, müdafiə divarlarının qalıqları yerləşir. Istər Narınqalada, istərsə də onun ətrafında tikilmiş bina qalıqları dördkünc və dairəvi formalıdır. Onlar heç bir bərkidici məhlul olmadan tikilmişdir.

Yaşayış yerinin əsas giriş qapısı cənub tərəfdən olmuşdur. Onun ətrafında salınmış qala divarları Tunc dövründə baş vermiş hərbi qarşıdurmalar, tayfalararası müharibələr zamanı müdafiə məqsədi daşımışdır. Burada məskunlaşmış insanlar qala divarlarından sığınacaq yeri kimi istifadə edərək düşmənə müqavimət göstərmişlər. Qala divarlarının bir-birinə birləşən küncləri ovalvari formalı tikilmişdir. Tikinti materialı kimi yonulmamış iri qaya parçalarından və daşdan istifadə olunmuşdur. Qala divarlarının memarlıq xüsusiyyəti Oğlanqala, Çalxanqala və digər abidələrlə oxşardır.

Abidə 70-ci illərdə V.H.Əliyev və M.M.Seyidov tərəfindən qeydə alınmışdır. 1970-1980-ci illərdə aparılan tədqiqatlar nəticəsində yaşayış yerində 3 m qalınlığında mədəni

təbəqə öyrənilmiş, qala divarlarının ölçüləri götürülmüşdür (104, s. 46-82; 170, s. 3-25; 171, s. 320-321; 35, s. 62). Aparılan tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, yaşayış yerindəki divarların hörgüsündə uzunluğu 1, 5-3 m, qalınlığı 1-2 m olan daşlardan istifadə edilmişdir. Salamat qalmış divarların hündürlüyü 1, 5-2 m olmuşdur. Yaşayış yerindəki mədəni təbəqə Orta Tunc dövründən Erkən Dəmir dövrünə qədər olan dövrü əhatə edir.

Abidədə Son Tunc-Erkən Dəmir dövrünə aid olan mədəni təbəqənin qalınlığı yerin relyefindən aslı olaraq 1, 5-3 m olmuşdur (74, s. 63). Aparılan tədqiqatlar zamanı yaşayış yerinin bu dövrə aid mədəni təbəqəsindən müxtəlif formalı daş əmək alətləri (dən daşı və sürtgəclər, iskənə, kürz) keramika məmulatları, osteoloji qalıqlar və müxtəlif maddi-mədəniyyət nümunələri tapılmışdır (96, s. 145-186; 104, s. 47-48). Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin əksəriyyətini keramika məmulatları təşkil etmişdir.

***Sumbatan yaşayış yeri.*** Ordubad rayonunda, Sabirkəndin cənub-qərbində, Cilançayın sağ sahilində yerləşir. Üç tərəfdən hündür dağlarla, Gilançay tərəfdən isə ikiqat müdafiə divarı ilə əhatə olunmuşdur. Onun şərq tərəfindən Gilançay, qərb tərəfindən isə Yaycı arxı keçir. Yaşayış yerinin əsas hissəsi dağın üzərində yerləşir. Sahəsi 5 hektara yaxındır.

Abidə 1976-cı ildə Naxçıvan arxeoloji ekspedisiyasının Xaraba Gilan dəstəsi tərəfindən qeydə alınmışdır. XX əsrin 80-ci illərinin ortalarında abidədə aparılan arxeoloji qazıntı zamanı e.ə. I minilliyin əvvəllərinə aid olan bünövrəsi dördkünc formalı yonulmamış qaya parçalarından inşa olunmuş yaşayış evinin qalıqları aşkar edilmişdir. Yaşayış yerindən dən daşları, həvəngdəstə, daş çəkiclər, obsidian lövhələr və digər maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.

Abidənin öyrənilməsi sahəsində aparılan arxeoloji araşdırma 2008-2009-cu ildə və sonrakı dövrlərdə də davam etdirilmişdir (54, s. 113-114). Sumbatan dağının şimal-şərq

tərəfində aparılmış arxeoloji qazıntı zamanı uzunluğu 23, 5 m, eni 3-3, 5 m olan, iri həcmli dağ daşlarından inşa edilmiş siklopik divar qalıqları aşkar edilmişdir. Divarın şərq hissəsi dağın yamacına tərəf olduğundan dağıntıya daha çox məruz qalmışdır.

Yaşayış yerində aparılmış arxeoloji tədqiqat zamanı 40-50 sm qalınlığında kül qatına təsadüf olunub. Kül qatının içərisindən çay daşları, keramıka məmulatı və osteoloji qalıqlar tapılıb. Osteoloji tapıntıların içərisində iribuynuzlu heyvanlara məxsus sümüklər çoxluq təşkil edib.

Qala tipli yaşayış yerləri həm dağlıq, həm də Arazboyu ovalıqda qeydə alınmışdır. Naxçıvanda Son Tunc-Erkən Dəmir dövründə qala tipli yaşayış yerlərinin artması bu dövrdə xarici işğal təhlükəsinə qarşı mübarizənin genişlənməsi ilə bağlıdır. Bu qalalar əkinçi-maldar tayfaların müdafiəsi məqsədilə strateji cəhətdən müdafiə olunan yerlərdə inşa olunmuşdur.

### *1.1.4. Qəbir abidələri*

Naxçıvan Muxtar Respublikasının ərazisində qeydə alınmış Son Tunc-Erkən Dəmir dövrünə aid qəbir abidələri torpaq örtüklü kurqanlardan, daş qutulardan, torpaq qəbirlərdən ibarət olmaqla bir-birindən fərqlənir. Bu abidələrin bir qismi Naxçıvançay, Arpaçay, Əlincəçay və Cilançayın aşağı axarlarında, Araz vadisindəki düzənlik ərazilərdə yerləşmişdir (şəkil 1, 1). Bir qrupu isə dağlıq və dağətəyi yerlərdə qeydə alınmışdır. Dağlıq və dağətəyi yerlərdəki qəbir abidələrinin əksəriyyətinin yaşayış yerləri aşkar olunsa da Zeyvə, Aşağı Daşarx (74, s. 163, 177), Haqqıxlıq, Batabat (73, s. 57, 67)) nekropollarının yaşayış yerləri qeydə alınmamışdır.

Araz vadisindəki qəbir abidələrinə Culfa, Naxçıvan, Qızılburun, Şahtaxtı və b. nekropolları daxil olmuşdur.

Dağlıq və dağətəyi zonadakı qəbir abidələri Boyəhməd, Sarıdərə, Kolanı, Dəmyələr, İlikliqaya və başqa abidələrlə təmsil olunmuşlar.

***Culfa nekropolu.*** Eyni adlı şəhərin yaxınlığında yerləşir. Abidə 1939-1940-cı illərdə dəmir yol çəkilişi zamanı dağıldığından heç bir yerüstü əlaməti olmamışdır. Yerli əhalinin verdiyi məlumata görə nekropoldakı qəbirlər dağılarkən onların bir qisminin materialları mühəndis K.K.Vasiliyev tərəfindən toplanılmışdır. Həmin materiallar uzun müddət E.S.Tormasovun evində saxlanıldıqdan sonra, 1951-ci ildə Gurcüstana aparılaraq oradakı Dövlət Tarix Muzeyinə təhvil verilmişdir. Nekropoldan toplanılmış arxeoloji materiallar uzun müddət çap olunmamışdır, sonralar V.H.Əliyev onların bir qismini çap etdirmişdir. Onlar Erkən Dəmir dövrünə aid boz və çəhrayı rəngli küpə, kasa, qədəh, vaza tipli gil qab qırıqlarından, bəzək əşyalarından, tunc xəncərdən ibarət olmuşdur (33, s. 72-86: 75, s. 98-100).

***Qədim Naxçıvan nekropolu.*** Naxçıvan şəhərindən şimalda, Naxçıvan-Şahbuz avtomobil yolunun sağ tərəfində yerləşir. Abidənin ərazisi hazırda hərbi şəhərciyin müasir tikililəri altında qaldığından heç bir yerüstü əlaməti qalmamışdır. Nekropol 1968-ci ildə tikinti işləri zamanı təsadüf nəticəsində aşkar olunmuşdur. Bu zaman dağılmış altı qəbirin materiallarından bir qrupu (küpə, vaza, kasa, nehrə, badya, sərinc və çaynik tipli qablar) toplanılaraq Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmişdir. Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən bir qismi V.H.Əliyev tərəfindən nəşr etdirilmişdir (35, s. 8-9; 36, s. 40). Tədqiqatçı nekropoldan tapılmış arxeoloji materialları I Kültəpə, II Kültəpə, Qızılburun, Şortəpə abidələri ilə müqayisəli şəkildə öyrənərək dağılmış qəbirlərin e.ə. XVII-XV əsrlərə aid olduğunu qeyd etmişdir (104, s. 57).

Nekropolda aparılan arxeoloji araşdırmalar zamanı həmçinin müəyyən olunmuşdur ki, abidə torpaq qəbirlərdən

ibarət olmuşdur. Onlar torpaqda qazılmış dördkünc formalı çalalar şəklində (uzunluğu 1, 3-1, 5 m, eni 0, 8-1 m, dərinliyi 60 sm-1m) düzəldilərək üzəri 3-4 iri sal daşla örtülmüşdür. Daşların uzunluğu 1 m, eni 50, qalınlığı isə 20-30 sm-dir. Buradakı qəbirlər şimal-cənub istiqamətində salınmışdır. Qəbirə skeletlər sıx bükülü vəziyyətdə müxtəlif istiqamətlərdə qoyulmuşdur. Skeletlər uşaq və yaşlı adama məxsus olmuşdur. Onların əksəriyyəti pis saxlanılsa da, bəzisi nisbətən salamat qalmışdır. Nekropldakı qəbirin birində kollektiv dəfnetmə adəti ilə bağlı yeddi kəllə aşkar edilmişdir. Kəllələrin hamısının ağzı Qızılburun nekropolunda olduğu kimi üzü üstə qoyulmuşdur (36, s. 40).

Qədim Naxçıvan nekropolunun öyrənilməsi sahəsində 1986-1987-ci illərdə Ə.İ.Novruzlu tərəfindən aparılan tədqiqatlar zamanı orada olan bir neçə yeni qəbir öyrənilərək onlardan sadə və boyalı qablar, bəzək əşyaları toplanılmışdır (81, s. 7). Aparılan arxeoloji tədqiqatların gedişində nekropolun Orta Tunc, Son Tunc-Erkən Dəmir dövrünə aid olduğu müəyyən edilmişdir.

***Qızılburun nekropolu.*** Eyni adlı yaşayış yerindən şimal-şərqdə yerləşir. O şərqdən dağ silsiləsi, şimaldan dərin xəndək, qərbdən eyni adlı yaşayış yeri və Araz çayı ilə sərhədlənib. Nekropolun bir hissəsi Naxçıvan-Culfa dəmir yolunun çəkilişi zamanı dağıdıldığından xeyli miqdarda gil qab qırıqları üzə çıxmışdır.

Abidə ilk dəfə 1895-ci ildə N.V.Fyodorov tərəfindən qeydə alınmışdır. Həmin dövrdə Naxçıvandakı sərhəd qoşunlarına rəhbərlik edən N.V.Fyodorov nekropoldakı dağılmış qəbirlərin bir qisminin materialarını yerli əhalidən toplayaraq qəbirlərin qarət edilməsinin qarşısını almışdır. O, topladığı materialların bir qrupunu Moskvaya İmperator Arxeoloji Komisiyasına göndərmişdir. Bundan sonra 1896-cı ildə İmperator Arxeoloji Komisiyasının göstərişi ilə nekropolda kəşfiyyat xarakterli arxeoloji qazıntılar aparılmışdır. Qazıntıdan

əldə olunmuş maddi-mədəniyyət nümunələri Moskvadakı Dövlət Tarix Muzeyinə verilmişdir. 1909-cu ildə həmin materialların bir qismi A.A.Spisin tərəfindən tədqiq edilərək nəşr etdirilmişdır.

Nekropolda 1926-cı ildə aparılan arxeoloji tədqiqatlar zamanı İ.İ.Meşşaninov tərəfindən bir (150, s. 217), A.A. Miller tərəfindən iki (161, s. 326) Son Tunc-Erkən Dəmir dövrünə aid qəbir abidəsi öyrənilmişdir. Aparılan arxeoloji tədqiqatlar zamanı qəbirlərdən gil qablar, tunc bəzək əşyaları, xəncər və başqa maddi-mədəniyyət nümunələri toplanılmışdır.

***I Şahtaxtı nekropolu.*** Şahtaxtı kəndində, eyni adlı qədim yaşayış yerindən şimal-şərqdə yerləşir. Sahəsi 5 hektardan artıqdır. O şimalda alçaq təpəliklərlə, qərbdə Asnı çayının qurumuş vadisi ilə sərhədlənib. Buradakı qəbirlər şimal-şərq və şərq-qərb istiqamətindədir. Onların yanları təbii daşlarla hörülmüş, üzəri isə yastı sal daş piltələrlə örtülmüşdür. Qəbirlərdən bir qismi təbii aşınmaya məruz qaldığından onların torpaq örtüyü yuyulmuş, üzərinə qoyulmuş sal daşlar düşmüşdür. Nekropolun öyrənilməsi üçün Ə.K.Ələkbərov, O.H.Həbubullayev, Q.M.Aslanov, Q.H.Ağayev tərəfindən arxeoloji qazıntılar aparılmışdr. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin bir qismi O.H.Həbubullayev tərəfindən nəşr etdirilmişdir. Onlar keramika məmulatlarından, müxtəlif formalı bəzək əşyalarından ibarət olmuşdur (95, s. 27-36).

1936-cı ildə Ə.K.Ələkbərov tərəfindən buradakı ətrafı kromlexlə əhatə olunmuş daş qutu tipli qəbirlərdən birindən bütöv at skeleti yüyəni ilə birlikdə aşkar olunmuşdur. Tədqiqat zamanı qəbirdən həmçinin sadə və boyalı qablar da aşkar edilmişdir (112, s. 56-57).

1980-cı ildə Q.H.Ağayev tərəfindən nekropolda aparılmış tədqiqat zamanı oradakı ətrafı kromlexlə əhatə olunmuş daş qutu qəbirlərdən birindən monoxrom naxışlı boyalı qablar tapılmışdır (110, s. 84; 1, s. 98).

1985-ci ildə nekropolda aparılan təsərrüfat işləri nəticəsində onun ərazisi dağıdılmışdır. Dağılmış qəbirlərdən sadə və boyalı gil qablar, bəzək əşyaları üzə çxmışdır (21, s. 206).

Nekropolun öyrənilməsi sahəsində V.B.Baxşliyev tərəfindən aparılmış tədqiqatlar zamanı oradan əlavə materiallar əldə olunaraq öyrənilmişdir. Onlar kupə, kasa, çölmək, nehrə, vaza, ayaqlı çaynik tipli qablardan ibarət olmuşdur. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinə əsasən nekropoldakı boyalı qablar dövrləşdirilmişdir (74, s. 31-38). Aparılan arxeoloji araşdırmalar zamanı müəyyən olunmuşdur ki, nekropoldan aşkar olunmuş keramika məmulatlarından bir qrupu Son Tunc-Erkən Dəmir dövrünə aid olmuşdur.

***II Şahtaxtı nekropolu.*** Şahtaxtı kəndində eyni adlı qədim yaşayış yerindən cənub-qərbdə, Asnı çayının vadisində yerləşir. Sahəsi 3 hektara yaxındır. O şimaldan əkin sahələri ilə, şərqdən və cənubdan isə təbii təpələrlə əhatə olunmuşdur.

Nekropol 1971-ci ildə təsadüf nəticəsində aşkar edilmişdir. Bu zaman nekropolun cənub-şərqindəki bir neçə daş qutu qəbir aparılan tikinti işləri zamanı dağıldığından onlara məxsus maddi-mədəniyyət nümunələri üzə çıxmışdır. Əldə edilən materialların bir qismi V.H.Əliyev tərəfindən nəşr olunmuşdur. Onlar sadə və boyalı gil qablardan, bəzək əşyalarından və silindirik möhürdən ibarət olmuşdur (34, s. 70-80; 35, s. 74-75).

Nekropolun öyrənilməsi sahəsində aparılan arxeoloji araşdırmalar 1979-1980-cı illərdə də davam etdirilmişdir. Bu zaman tikinti işləri nəticəsində dağılmış bir neçə daş qutu qəbirin materialları toplanılaraq kompleks şəkildə öyrənilmişdir. Onlar gil qablardan, daş alətlərdən və silahlardan ibarət olmuşdur (10, s. 63-70; 1, s. 100). Toplanılan maddi-mədəniyyət nümunələrinin tədqiqinə əsasən nekropolun e.ə. II minilliyin sonu-I minilliyin əvvəllərinə aid olduğu müəyyənləşmişdir (74, s. 40; 118, s. 50).

***Mərdangöl nekropolu.*** Ordubad rayonunun ərazisində, Gilançayın sağ sahilində, Sabirkənd və Kələntərkənd kəndlərinin yaxınlığında, Xaraba Gilan şəhər yerinin qərb yamacında yerləşir. Abidə 1982-1985-ci illərdə və sonrakı dövrlərdə öyrənilmişdir. Q.M.Aslanov, B.İ.İbrahimov və S.M.Qaşqay tərəfindən aparılmış arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, buradakı qəbirlər sərdabə tiplidir. Onlar düzbucaqlı və trapesya şəklində tikilmişlər. Onların hamısı Naxçıvan Muxtar Respublikasındakı digər Son Tunc-Erkən Dəmir dövrü qəbir abidələrindən fərqli olaraq qurbangahlı düzəldilmişdir (uzunluğu 2 m, eni 1, 5 m, dərinliyi 0, 8 m). Sərdabələr bir neçə mərhələdə dəfn üçün nəzərdə tutulmuşdur. Qəbirlər hər dəfə açılıb, bağlandıqca qarət olunduğundan oradakı skeletlərlər dağılmışdır (4, s. 69-72; 109, s. 10-14). V.B.Baxşəliyevin fikrinə görə təkrar dəfnlər zamanı köhnə skeletlər qəbirin bir tərəfinə sıxışdırılmış və qarışmışdır (13, s. 37).

Nekropolda aparılan arxeoloji tədqiqatlar zamanı qəbirdən və qurbangahdan e.ə. IX-VIII əsrlərə aid gil qablar (kupə, kasa, çolmək, çayniklər), bəzək əşyaları (üzük, sırğa, boyunbağı, asmalar), silindirik möhürlər, silahlar (obsidian və tunc ox ucları, düz çiyinli, yastı dəstəkli xəncər, boru dəstəkli nizə ucluğu) və b. maddi-mədəniyyət nümunələri əldə olunmuşdur.

***II Plovdağ nekropolu.*** Ordubad rayonunun Sabirkənd və Kələntərkənd kəndlərindən şərqdə, Gilançayın sol sahilində, Xaraba Gilan şəhər yerindən qərbdə, eyni adlı dağın şimal yamacında yerləşir. Sahəsi 2 hektara yaxındır. Abidə 2004-cü ildə B.İ.İbrahimovun rəhbərliyi ilə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Xaraba Gilan arxeoloji ekspedisiyası zamanı öyrənilmişdir. Abidənin öyrənilməsində AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdəşı S.Səfərov, Peterburq Şərqşunaslıq İnstitunun əməkdaşı İ.Medvedskaya, S.Yusifov da iştiraketmişlər. Aparılmış arxeoloji tədqiqatlar

zamanı nekropolda bir neçə qəbir tədqiq olunmuşdur (51, s. 31-32). Abidənin öyrənilməsi sahəsində aparılan arxeoloji araşdırmalar sonrakı dövrdə də davam etdirilmişdir. B.İ.İbrahimovun rəhbərliyi ilə abidədə sistemli arxeoloji tədqiqatlar aparılmışdır (49, s. 155-157; 60, s. 75-81; 52, s. 92; 53, s. 55). Aparılan arxeoloji araşdırmalar nəticəsində nekropolda olan dəfn adətinin bəzi incəlikləri aydınlaşdırılmışdır. Müəyən olunmuşdur ki, nekropoldakı Son Tunc dövrünə aid qəbirlər Orta Tunc dövrü qəbirlərindən kəskin sürətdə fərqlənir. Oradakı Son Tunc dövrünə aid qəbirlər Ota Tunc dövrü qəbrlərindən fərqli olaraq kurqan tipli düzəldilmişdir. Qəbirlər kromlex daşlarının düzülüşünə, ölçülərinə və avadanlığına görə bir-birlərindən fərqlənmişlər. Kurqanların bir qrsminin diametri 10 m-ə çatmışdır. Qəbirlərin kameraları sərdabə tipi deyil, daş qutu formasında düzəldilmişdir. Onların divarları müxtəlif ölçülü daşlarla işlənmiş, üstü iri həcmli sal daşlarla örtülmüşdür. Ətrafına dördbucaqlı planda sal daşlar düzülmüşdür. Qurbangahların qəbirə şərq tərəfdən işlənməsi qaydası gözlənilməmişdir. Qurbangahlar qəbirin həm cənub, həm də qərb tərəfində olmuşdur.

Qəbirlərdən aşkar olunmuş Son Tunc-Erkən Dəmir dövrünə aid maddi-mədəniyyət nümunələri gil qablardan, tunc bəzək əşyalarından, ox uclarından və heyvan sümüklərindən (xırdabuynuzlu və quş sümükləri) ibarət olmuşdur. Gil qabların bir çoxu sadə, bəziləri isə boyalıdır.

***Xalı-Keşan nekroplu.*** Ordubad rayonunun Sabirkənd və Kələntərkənd kəndlərinin yaxınlığında yerləşir (şəkil 9, 1). Buradakı qəbirlərin çoxu təbii aşınma nəticəsində dağıntıya məruz qalmışdır. Ona görə də, nekropoldakı qəbirlərin bir çoxunun örtük daşları saxlanılmamışdır. 1982-1985-ci illərdə və sonrakı dövrlərdə orada aparılmış arxeoloji tədqiqatlar zamanı şərq-qərb istiqamətində nisbətən salamat qalmış bir sıra qəbirlər aşkar edilmişdir. Onlar quruluşuna və planına görə Muncuqlutəpə qəbirləri ilə oxşarlıq təşkil etsə də bəzi

xüsusiyyətlərinə görə də onlardan fərqlənmişlər. Oradakı bəzi qəbirlərin giriş yolu olmamışdır. Qəbirlərin və qurbangahların divarları yan üstə qoyulmuş sal daşlarla tikilmişdir. Üzəri iri sal daşlarla örtülərək ətrafına müxtəlif ölçülü daşlar düzülmüşdür. (şəkil 9, 1).

Nekropolda aparılmış arxeoloji tədqiqatlar zamanı e.ə. II minilliyin sonu-I minilliyin əvvəllərinə aid boz, çəhrayı və qara rəngli keramka məmulatları (küpə, kasa, çölmək, dolça və b.), tunc bəzək əşyaları (qolbaq, sırğa, sancaq və b.), xəncərlər aşkar edilmişdir (109, s. 41-42; 108, s. 70-72).

***Dəlmə nekropolu.*** Ordubad rayonundakı Sabirkənd kəndinin yaxınlığında, Yaycı arxının sağ sahilində, hündürlüyü 8-10 metrə çatan təpə üzərində yerləşir. Sahəsi 616 $m^2$ -ə yaxındır. Nekropolun yerləşdiyi ərazi inzibati cəhətdən Culfa rayonunun Yaycı kəndinə daxildir. Buradakı qəbirlər daş qutu tiplidir. Onlar dördbucaqlı planda tikilmşdir. Qəbirlər müxtəlif ölçülü kameralardan ibarət olmuşdur (0, 7-0, 9 x 1, 3-1, 5 m).

Abidə 1981-ci ildə Q.M.Aslanovun rəhbərliyi ilə Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən öyrənilmşdir. Onun öyrənilməsi üçün sonrakı dövrlərdə də arxeoloji tədqiqatlar aparılmışdır. Tədqiqatlar zamanı nekropoldakı qəbirlərdən tək və ya cüt skelet qalıqları, Son Tunc-Erkən Dəmir dövrünə aid keramika məmulatları, müxtəlif tunc əşyalar aşkar olunmuşdur (50, s. 32-33). Əldə olunmuş madd-mədəniyyət nümunələri Xalı-Keşan, Mərdangöl, Muncuqlutəpə nekropolunun materialları ilə oxşarlıq təşkil edir.

***Muncuqlutəpə nekropolu.*** Ordubad rayonunun Sabirkənd və Kələntərkənd kəndlərinin yaxınlığında, Xalı-Keşan çayından şərqdə ovalvari formalı təpənin üzərində (60 x 40) yerləşir (şəkil 9, 2). Nekropol Q.M.Aslanov, B.İ.İbrahimov və S.M.Qaşqay tərəfindən tədqiq edilmişdir (105, s. 221-233). 1979-1982-ci illərdə orada aparılmış arxeoloji tədqiqatlar nəticəsində 1600-1700 $m^2$ sahədə 33 qəbir öyrənilmişdir. Tədqiqat zamanı müxtəlif dərinliklərdən ölçüləri 2 x 1, 2 m

olan, üstü 1, 5-2 m uzunluğunda olan daş piltələrlə örtülmüş qəbirlər aşkar edilmişdir. Tədqiq olunmuş qəbirlərdən e.ə. VIII-VI əsrlərə aid xeyli maddi-mədəniyyət nümunələri (gil qablar, bəzək əşyaları, silahlar və b.) toplanılmışdır (109, s. 14-41; 107, s. 419).

Nekropolda aparılan arxeoloji araşdırma nəticəsində müəyyən olunmuşdur ki, oradakı qəbirlərin hamısı sərdabə tiplidir. Onlar Mərdangöl, Xalı-Keşan, Dəlmə nekropollarındakı qəbirlər kimi qurbangahlı düzəldilmişdir. Qəbirlərin divarları daşdan tikilmiş, üstü böyük daş lövhələrlə örtülmüşdür. Onların ətrafına müxtəlif ölçülü daşlar düzülmüşdür. Sərdabəyə giriş yolu onun qərb və şərq tərəfindən qoyulmuşdur. Onların üzəri daş lövhələrlə örtülmüşdür. Hər sərdabə bir neçə dəfn üçün nəzərdə tutulmuşdur. Skeletlər qəbirə bükülü vəziyyətdə sağ böyrü üstə qoyulsa da təkrar dəfnlər zamanı skeletlərin vəziyyəti hər dəfə dəyişdirilmişdir. Sərdabələrin hamısı qarət olunduğundan qəbirlərin əksəriyyətinin maddi-mədəniyyət nümunələri bir-birinə qarışmışdır.

***I Boyəhməd nekropolu.*** Culfa rayonunun Boyəhməd kəndinin cənub-qərbində, Dərəçayın sağ sahilində yerləşir. Sahəsi 1500 $m^2$-ə yaxındır. O hər tərəfdən zəngin bitki örtüyünə malik olan dağlarla əhatə olunmuşdur. Nekropol ilk dəfə 1989-cu ildə tikinti işləri zamanı təsadüf nəticəsində aşkar edilmişdir. Bu zaman nekropoldakı dağılmış qəbirlərdən çoxunun materialları üzə çıxmışdır. Həmin il Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin əməkdaşları dağıntı yerində olaraq oradakı dağılmış qəbirlərin bir qisminin materiallarını toplamış, kəşfiyyat xarakterli tədqiqatlar aparmışlar. 1991-ci ildə Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası zamanı V.B.Baxşəliyev tərəfindən burada dörd daş qutu qəbir öyrənilmişdir (75, s. 16-33). Qəbirlərdən ikisi qarət edilmiş, ikisi isə salamat qalmışdır. Aparılmış arxeoloji tədqiqatlar zamanı nekropoldakı 2 №-li qəbirdə tək, 1 №-li qəbirdə isə kollektiv dəfnetmə adəti olduğu müəyyən edilmişdir.

Nekropolda aparılmış arxeoloji tədqiqatlar zamanı uzunluğu 2 m, eni 1, 2 m olan 1 №-li qəbir digər qəbirlərlə müqayisədə daha çox maraq obyektinə səbəb olmuşdur. Kollektiv dəfnetmə adətinin aydın şəkildə müşahidə olunduğu bu qəbirdən insan skeletinə aid olan kəllələrdən ikisi qərb-şərq istiqamətində, biri dikinə qoyulmuş vəziyyətdə, digəri isə qəbirin cənub divarı yaxınlığında sıxışdırılmış şəkildə tapılmışdır. Kəllələrin ətrafından onlara məxsus qol, qıç və alt çənə sümükləri aşkar edilmişdir.

I Boyəhməd nekropolunda aparılan arxeoloji tədqiqatlar zamanı oradakı qəbirlərdən insan skeleti ilə yanaşı, bəzək əşyaları (boyunbağılar, tunc toqqa, ilanvari formalı asma, sırğalar və üzüklər), əmək alətləri və silahlar, gil qablar, xırdabuynuzlu heyvan sümükləri də tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələri Erkən Dəmir dövünə aid olmuşdur.

***II Boyəhməd nekropolu.*** Culfa rayonunun Boyəhməd kəndinin cənub-qərbində, I Boyəhməd nekropolunun yaxınlığında yamacda yerləşir. Abidə şərqdən və cənub-şərqdən dərin dərə ilə sərhədlənmişdir. Buradakı qəbirlər heç bir yerüstü əlamətə malik olmasa da, kənd sakinlərinin verdiyi məlumatdan məlum olmuşdur ki, nekropoldakı qəbirlər daş qutu tipli olmuşdur. Onlardan bir qismi tikinti işləri zamanı dağıldığından qəbirlərə məxsus maddi-mədəniyyət nümunələri üzə çıxaraq kənd sakinləri tərəfindən götürülmüşdür.

Nekropolun öyrənilməsi sahəsində ilk elmi araşdırmlar 1991-ci ildə Ə.I. Novruzlu və V.B.Baxşəliyyev tərəfindən aparılmışdır. Bu zaman oradan Erkən Dəmir dövrünə aid iki tunc bilərzik və bir tunc bıçaq aşkar edilmişdir (75, s. 33-35).

***Haqqıxlıq nekropolu.*** Şahbuz rayonunun Külüs kəndinin şərqində, eyni adlı çayın sol sahilində, Külüs nekropolundan aşağıda, təpə üzərində yerləşir. O şimal-qərbdə Külüsçaya yenən sahə ilə, şimal-şərq və cənub-şərqdə hündür dağlarla əhatə olunmuşdur. Buradakı daş qutu tipli qəbirlərin

çoxu təbii aşınmaya məruz qalmış, bəziləri isə kənd sakinləri tərəfindən dağıdılmışdır.

Nekropolun öyrənilməsi üçün ilk tədqiqat işləri 1990-cı ildə V.B.Baxşəliyev tərəfindən aparılmışdır (73, s. 57-58). Aparılmış arxeoloji araşdırmalar zamanı orada iki qəbir öyrənilmişdir. Müəyyən olunmuşdur ki, nekropoldakı qəbirlərdən biri şimal-şərqdən cənub-qərbə doğru istiqamətlənmişdir. İkinci qəbir isə şimal-qərb, cənub-şərq istiqamətində olmuşdur. Onların hamısı daş qutu tipli qəbirlər olub, formasına və quruluşuna görə bir-biri ilə oxşarlıq təşkil etmişlər. Qəbirlərin hər iksinin divarları daşlarla hörülmüş, üzərinə iri sal daşlar qoyulmuşdur. Onların biri nisbətən dağılsa da, digəri qismən salamat qalmışdır (şəkil 6). Dağılmış vəziyyətdə olan qəbirlərdən birində pis saxlanılmş inisan skeletinin qalıqları, bir ədəd gil qab qırığı və tunc xəncər aşkar edilmişdir. Digər qəbirdən nisbətən yaxşı saxlanılmış insan skeletinin qalıqları tapılmışdır. Skeletlərdən ikisinə qəbir kamerasının cənub-şərq divarı yaxınlığında təsadüf olunmuşdur. Onların kəllələri pis saxlanılmış, ətraf sümükləri bir-birinə qarışmışdır. Bu qəbir dəfnetmə adətinə görə Külüs, Kolanı, Sarıdərə, Boyəhməd qəbirləri ilə oxşarlıq təşkil etmişdir.

Nekropoldakı öyrənilmiş qəbirlərdəki insan skeletlərinini ətrafndan çoxlu miqdarda boz və çəhrayı rəngli gil qab qırıqları (küpə, kasa, qədəh, çölmək, çaynik və b.) heyvan və quş fiqurları, bəzək əşyaları, osteoloji materiallar aşkar olunmuşdur. Əldə olunmuş maddi-mədəniyyət nümunələrnin tədqiqinə asasən nekropolun e.ə. II minilliyin sonu-I minilliyin əvvəlinə aid olduğu müəyyən olunmuşdur.

***Külüs nekropolu.*** Şahbuz rayonun Külüs kəndindən şimalda, Haqqıxlıq nekropolundan yuxarıda təpə üzərində yerləşir. Onun yerləşdiyi ərazinin bir hissəsi yol çəkilişi zamanı təsadüfən dağıdıldığından, nekropolun yerləşdiyi ərazidə

müxtəlif maddi-mədəiyyət nümunələri üzə çıxmış, gil qablar qırılmışdır.

Abidə 1990-cı ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Tədqiqatçı tərəfindən aparılmış kəşfiyyat xarakteli arxeoloji araşdırmalar zamanı bir daş qutu qəbir öyrənilmişdir. Uzunluğu 0, 6 m, eni 0, 2 m olmuş qəbirdən pis saxlanılmış insan skeletinin qalıqları ilə yanaşı olaraq Son Tunc-Erkən Dəmir dövrünə aid boz və çəhrayı rəngli müxtəlif formalı keramika məmulatları əldə olunmuşdur (73, s. 63-64).

***Kolanı nekropolu.*** Şahbuz rayonunun Kolanı kəndində, Naxçıvançayın sol sahilində yerləşir (şəkil 7). Abidə hər tərəfdən dərin dərələrlə əhatə olunmuşdur. İlk dəfə 1986-cı ildə kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir (73, s. 65). Tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, nekropolun yerləşdiyi ərazi təbii aşınmaya məruz qaldığından oradakı qəbirlərin bir qrupu üzə sıxmışdır. Bu qəbirlərin əksəriyyəti yerli əhali tərəfində dağıdılmışdır.

Nekropolun tədqiqi sahəsində aparılmış arxeoloji araşdırmalar sonrakı dövrlərdə də davam etdirilmişldir. 1986-1989-ci illərdə nekropolda 16 daş qutu tipli qəbir öyrənilmşdir (117, s. 217-227). Qəbirlərdən küpə, kasa, çölmək, nimçə, badya və b. tipli gil qablar, silahlar (ox ucu və xəncər), bəzək əşyaları (sırğa, üzük, boyunbağı və b.) toplanılmışdır (21, s. 266-267; 73, s. 65-66; 91, s. 10). Müəyyən olunmuşdur ki, nekropoldakı qəbirlərin hamısı tikinti texnikasına görə bir-biri ilə oxşarlıq təşkil etsə də formaca müxtəlifdirlər. Onların bir qismi düzbucaqlı, bir qismi isə ovalvari və ya çoxbucaqlı formada tikilmişdir. Üzəri iri sal daşlarla örtülmüşdür. Qəbirlərdən bəzisində (1 №-li və 2 №-li qəbirlər) insan skeletinin qalıqları olmamışdır. Bir çox qəbirlərdən kollektiv dəfnetmə adəti ilə bağlı insan skeletinin qalıqları aşkar eldilmişdir. Ən çox skelet 10 №-li qəbirdən tapılmışdır. Bir qəbirin üzərindən Qobustan, Gəmiqaya, Xatunçay, Cənubi

Qafqaz qayaüstü təsvirləri ilə oxşar semantik məna daşıyan təsvirlər tapılmışdır (13, s. 36-37).

***Batabat nekropolu.*** Şahbuz rayonunun Batabat yaylağında yerləşir. Abidənin yerləşdiyi sahə zəngin bitki örtüyünə malik olduğundan buradakı qəbirlərin üzəri ot və kollarla örtülmüşdür. Bəzi qəbirlər təbii aşınmaya məruz qalaraq dağılmışdır. Dağılmış qəbirlərdən bozumtul rəngli küpə qırıqları üzə çıxmışdır.

Nekropolda geniş miqyaslı arxeoloji qazıntılar aparılmamış, yalnız kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Qəbirlər daş qutu tipli olmuşdur. Aparılmış araxeoloji araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, buradakı Fərhad evi adlı yer Naxçıvanda qeydə alınmış yeganə qaya məzarı olmuşdur (89, s. 38). Araşdırmalara əsasən bu qəbirləri e.ə. II-I minilliklərə aid etmişlər.

***II Sarıdərə nekropolu.*** Küküçayın sağ sahilində, dağ silsiləsinin çaya doğru uzanan yamacında, Qızıl Qışlaq kəndinin ərazisində yerləşir. Nekropoldakı qəbirlər kurqan tiplidir. Orada geniş miqyaslı arxeoloji tədqiqat işləri aparılmamışdır. Kəşfiyyat xarakterli tədqiqatar əsasında öyrənilmişdir. 1987-ci ildə tədqiqatçı arxeoloq V.B.Baxşəliyev tərəfindən nekropoldakı kurqanlardan biri (diametri 1, 5 m, hündürlüyü 1-1, 5 m) öyrənilmişdir. Aparılmış arxeoloji araşdırmalar nəticəsində qəbirdən skelet qalıqları, dən daşı və müxtəlif formalı gil qablar aşkar edilmişdir (73, s. 43; 13, s. 21).

***III Sarıdərə nekropolu.*** Küküçayın sağ sahilində, Şahbuz rayonunun Qızıl Qışlaq kəndinin ərazisində yerləşir (şəkil 8). Abidə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Nekropolda aparılmış arxeoloji tədqiqatlar zamanı yeddi qəbir öyrənilmişdir (73, s. 44-53; 13, s. 22-23). Onlar dəfnetmə adətinə və qurluşuna görə Gədəbəy (44, s. 60; 180, s. 45), Xaçbulaq, Quşçu (125, s. 128-134), Kolanı, Haqqıxlıq (73, s.

65, 57), Boyəhməd (74, s. 16-35), və b. nekropollarındakı qəbirlərlə oxşarlıq təşkil etmişdir.

Nekropoldakı tədqiq olunmuş qəbirlərdən kollektiv dəfnetmə adəti qeydə alınmış, xırdabuynuzlu heyvan sümükləri, dələ kəlləsi və müxtəlif arxeoloji materiallar (keramika nümunələri, bəzək əşyaları. silahlar aşkarı və b.) aşkar olunmuşdur. Müəyyən edilmişdir ki, qəbirlərdəki skelet qalıqlarının əksəriyyəti təkrar dəfnlər sırasında yaranmışdır. Qəbirlərin təkrar dəfnetmə adəti ilə bağlı olaraq bir neçə dəfə açılması nəticəsində oradakı skelet qalıqlarının sümükləri Mərdangöl, Muncuqlutəpə qəbirlərində olduğu kimi, bir-birinə qarışaraq yaxşı saxlanmamışdır (21, s. 263; 11, s. 45).

Nekropoldakı tədqiq olunmuş qəbirlərdən xırdabuynuzlu heyvan sümüklərinin tapılması, bəzi qəbirlərə it sümüyünün, dələ kəlləsinin qoyulması maldarlıqla bağlı olmuş, qədim əkinçi-maldar tayfaların həyat tərzini, dini-ideoloji görüşlərini öyrənməyə köməklik etmişdir. Nekropolda təsadüf olunmuş itlə bağlı dəfnetmənə adətinə Cənubi Qafqaz, Anadolu, Altay və b. abidələrində təsadüf olunmuşdur (61, s. 223).

***I Qarabağlar nekropolu.*** Kəngərli rayonunun Qarabağlar kəndində, Qalacıq yaşayış yerindən şimalda yerləşir. Nekropol üçün kurqan tipli daş qutu qəbirlər xarakterikdir. Oradakı qəbirlərin üzəri iri sal daşlarla örtülmüş, yanları eyni formalı daşlarla dördkünc formada hörülmüş, ətrafı kromlexlə əhatə olunmuşdur. Abidə kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir (171, s. 320-321; 172, s. 8). Aparılmış arxeoloji araşdırmalar zamanı nekropoldakı qəbirlərdən insan skeleti aşkar edilməmişdir. Oradan əldə olunmuş maddi-mədəniyyət nümunələrindən bir qismi Orta, bir qrupu isə Son Tunc dövrü üçün xarakterik xüsusiyyətlər daşımışdır. Nekropoldakı qəbirlərdən əldə olunmuş Son Tunc dövrünə aid maddi-mədəniyyət nümunələri küpə, kasa, çaynik tipli qabların qırıqlarından və metal əşyalardan (tunc silah,

bəzək əşyaları) ibarətdir. Keramika məmulatları boz və çəhrayı rəngli olmaqla iki qrupa bölünmüşdür.

*II Qarabağlar nekropolu.* Kəngərli rayonunun Qarabağlar kəndində yerləşir. Buradakı qəbirlərdən bir qrupu daş qutu tipli, bəziləri isə torpaq qəbirlərdən ibarətdir. Nekropol kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Aparılmış arxeoloji araşdırmalar zamanı qəbirlərdən insan skeletinin qalıqları aşkar edilmişdir. Skeletlər bükülü vəziyyətdə şimal-qərq istiqamətində dəfn olunmuş, ətrafna gil qablar, tunc əşyalar qoyulmuşdur. Onlar Son Tunc-Erkən Dəmir dövrünə aid küpə, kasa, çaynik tipli qablardan, bilərzik, üzük, sancaq və boyunbağılardan ibarət olmuşdur (171, s. 320-321; 172, s. 8).

*Qarabulaq nekropolu.* Şərur rayonunun Maxta kəndindən şimal-şərqdə, Naxçıvan-Sədərək avtomobil yolunun sağ tərəfində yerləşir. Sahəsi 5 hektardan artıqdır. Ilk dəfə 1988-ci ildə təsadüf nəticəsində aşkar edilmişdir. Təsərrüfat işləri nəticəsində nekropolda bir neçə qəbir dağılmışdır. Dağılmış qəbirlərdən bir qisminin materialları toplanılaraq Şərur rayon Tarix-Diyarşunaslıq Muzeyinə təhvil verilmişdir.

Nekropolda 1988-1989-cu illərdə aparılmış kəşfiyyat xarakterli tədqiqatlar zamanı oradakı qəbirlərin tipi müəyyənləşdirilmiş, Son Tunc-Erkən Dəmir dövrünə aid tunc nizə ucu, müxtəlif keramika məmulatıları toplanmışdır. Aparılan arxeoloji tədqiqatlar zamanı müəyyən edilmişdir ki, abidədəki qəbirlər I Qarabağlar nekropolu kimi kurqan tipli daş qutulardan ibarət olmuşdur. Diametri 3-5 m-ə yaxın olmuş kurqanlar yer səthindən 1-1, 5 m yüksəklikdə yerləşmişdir. Kurqandakı qəbirlərin yanları iri daşlarla hörülmüş, üzəri isə eyni formalı sal daşlarla örtülmüşdür (74, s. 78-79).

*Aşağı Daşarx nekropolu.* Şərur rayonunun ərazisində, eyni adlı kənddən şimal-qərbdə yerləşir. Nekropol cənubdan təbii təpələrlə, digər tərəflərdən isə əkin sahələri ilə əhatə olunub. Abidənin yerləşdiyi ərazi hazırda əkin sahələri altında

qaldığından yerüstü əlamətini itirmişdir. Abidə 1983-cü ildə təsadüf nəticəsində aşkar edilmişdir. Bu zaman oradakı qəbirlərin əksəriyyəti dağılmışdır. Dağılmş qəbirlərdən Son Tunc-Erkən Dəmir dövrünə aid müxtəlif maddi-mədəniyyət nümunələri toplanılaraq Şərur rayon Tarix-Diyarşunaslıq Muzeyinə təhvil verilmişdir. Onlar küpə, kasa, piyalə tipli qabların qırıqlarından ibarət olmuşdur (74, s. 77).

***Şortəpə nekropolu.*** Şərur rayonunun İbadulla kəndinin ərazisinidə, kənddən şərqdə, eyni adlı qədim yaşayış yerinin yaxınlığında yerləşir. Nekropol hazırda əkin sahəsi altinda qaldığından heç bir yerüstü əlamətini saxlamamışdır.

Abidə 1934-cü ildə kanal qazılarkən təsadüf nəticəsində aşkar olunmuşdur. Bu zaman nekropoldakı dağılmış qəbirlərdən üzə çıxan monoxrom və polixrom rəngli qabların bir qismi toplanılaraq Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmişdir (74, s. 79). Onlar küpə, çölmək, kasa və çaynik tipli qabların qırıqlarından ibarət olmuşdur. Abidədən toplanılmış maddi-mədəniyyət nümunələri arasından Orta Tunc dövrü ilə yanaşı Son Tunc-Erkən Dəmir dövrünə aid keramika məmulatları da tapılmışdır. Onları küpə, kasa, çölmək tipli qablar təşkil etmişdir.

***Zeyvə nekropolu.*** Şərur rayonunun Zeyvə kəndi ərazisində yerləşir. Təsrrüfat işləri zamanı təsadüfən aşkar olunmuşdur. Bu zaman nekropoldakı dağılmış qəbirlərin bir qisminin materialları toplanılaraq Şərur rayon Tarix Diyarşunaslıq Muzeyinə təhvil verilmişdir. Onlar Erkən Dəmir dövrünə aid boz rəngli küpə, kasa və piyalə tipli qabların qırıqlarından ibarət olmuşdur (74, s. 163).

***Yurdçu nekropolu.*** Eyni adlı kənddən qərbdə, Yurdçu qədim yaşayış yerinin şimalında yerləşir. Sahəsi 5 hektara yaxındır. 1983-cü ildə təsadüf nəticəsində aşkar olunmuşdur. Bu zaman nekropolun yerləşdiyi sahədə su anbarı tikilərkən bir neçə qəbir dağıdıldığından onlara məxsus maddi-mədəniyyət

nümunələri (gil qablar, tunc bəzək əşyaları və silahlar) üzə çıxmışdır.

Nekropolda aparılmış kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, buradakı qəbirlər daş qutu tipli olmuşdur. Sarıdərə, Kolanı nekropollarında olduğu kimi, oradakı daş qutu qəbirlərin üzəri də daş və torpaq qarışıq kurqanla örtülmüşdür. Kurqanların diametri 4-8 m, hündürlüyü 0, 2-0, 5 m olmuşdur. Qəbirlər qərb-şərq, şimal-cənub istiqamətində salınmışdır. Onlar yan tərəfdən iki, baş və ayaqdan isə bir iri sal daşla qurularaq üzəri daş piltələrlə örtülmüşdür. Qəbirlərin tipi və aşkar olunmuş maddi-mədəniyyət nümunələri Son Tunc-Erkən Dəmir dövrünə aid olmuşdur. Oradan küpə, kasa, çaynik tipli gil qablar, tunc nizə ucu, bəzək əşyaları və digər maddi-mədəniyyət nümunələri tapılmışdır (74, s. 52; 38, s. 87-90).

***Qazxan nekropolu.*** Şərur rayonunun Çərçiboğan kəndindən cənubda yerləşir. Nekropolun olduğu ərazi xalq arasında «Kasxan», «Kaxsan» adları ilə tanınır. Abidə V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilmişdir. Aparılmış arxoloji araşdırma zamanı müəyyən olunmuşdur ki, nekropolun yerləşdiyi ərazidə təsərrüfat işlərinin aparılması nəticəsində buradakı qəbirlər tamamilə dağılmış, onların yerüstü əlaməti itmişdir. Dağılmış qəbirlərdən üzə çıxmış küpə, kasa, çölmək tipli qablar e.ə. II mininllliyin sonu-I minilliyin əvvəlinə aid olmuşdur (20, s. 75-78).

***Dəmirçilər nekropolu.*** Şərur rayonun Dəmirçi kəndindən şimalda yamacda yerləşir. Abidənin sahəsi 6 hektara yaxındır. İlk dəfə 1967-ci ildə qeydə alınmışdır (74, s. 78; 24, s. 72). Buradakı qəbirlər daş qutu və torpaq tipli olmaqla iki qrupa bölünmüşdür. Onların çoxu dağılmışdır. Dağılmış qəbirlərdən Erkən Dəmir dövrünə aid keramika məmulatları tapılmışdır (25, s. 60-61). Onlar boz və çəhrayı rəngli küpə, kasa və b. tipli gil qabların hissələrindən ibarətdirlər. Onların əksəriyyəti sadə

düzəldilmişdir, bəzidərinin üzəri dalğalı xətlər və sünbülşəkilli ornamentlərlə, qulaqcıqşəkili çıxıntı ilə bəzədilmişdir.

***Dəmyələr nekropolu.*** Ordubad rayonunun Tivi kəndində, kəndə gedən köhnə avtomobil yolunun aşağısında, təpənin üzərində yerləşir. O şərqdən dərin dərə, şimaldan və qərbdən isə eyni adlı qədim yaşayış yeri ilə əhatə olunmuşdur. Sahəsi 1, 5 hektardan artıqdır. Abidənin yerləşdiyi ərazidə zəngin otlaq sahələri var.

Nekropol 2005-ci ildə V.B.Baxşəliyevin rəhbərliyi ilə tərəfimizdən qeydə alınmışdır. Onun rəhbərliyi ilə apardılan kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində nekropoldakı qəbirlərin tipi müəyyənləşdirilmiş, planları çıxarıımışdır (şəkil 10, 1, 2, 3) (18, s. 84-93; 120, s. 47-49). Aparılan tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, nekropoldakı qəbirlər daş qutu tiplidir. Qəbirlərin çoxu 70-80-ci illərdə orada aparılmış təsərrüfat işləri nəticəsində dağılmışdır, bəzi qəbirlər isə təbii aşınmaya məruz qalmışdır. Buna görə də oradakı qəbirlərin çoxunun üst daşları saxlanmamış, torpaq örtüyü və yan daşları dağılmışdır. Dağılmış qəbirlərdən dördündə aparılan arxeoloji tədqiqatlar zamanı onların planı çıxarılmış, müxtəlif maddi-mədəniyyət nümunələri (gil qablar, əmək alətləri, silahlar, bəzək əşyaları və b.), insan skeletinin qalıqları tapılmışdır.

Nekropoldakı 1 №-li qəbir abidənin şərq qurtaracağında qeydə alınmışdır. Üzunluğu 1, 2 m, eni 0, 6 m olan bu qəbirin divarları kiçik sal daşlarla oval formada qurulmuşdur. Onun bir qismi təbii aşınma nəticəsində dağılsa da üstündəki iki iri sal daş salamat qalmışdır. Qəbirdəki insan skeleti kəlləsi cənub-şərq tərəfə olmaqla bükülü vəziyyətdə olmuş, ətrafına gil qablar qoyulmuşdur. Onlar küpə, kasa, çölmək və b. tipli qablardan ibarət olmuşdur. Qəbirdən aşkar olunmuş maddi-mədəniyyət nümünələrindən bir qismini bəzək əşyaları (daş, şüşə muncuqlar, tunc borucuq, üzük və b.) təşkil edir.

2 №-li qəbir nekropolun şimal-cənub istiqamətində qeydə alınmışdır. Onun uzunluğu 1, 6 m, eni 0, 7 m, dərinliyi

0, 7 m olmuşdur. Bu qəbir nekropoldakı digər qəbirlər kimi pis saxlanıldığından onun üst daşları düşmüş, qərb və şimal divarları dağılmışdır. Buradan pis saxlanılmış skelet qalıqları, keramika məmulatları (küpə, kasa tipli qablar) və bəzək əşyaları (tunc düymə, boyunbağı, üzüklər və əqiq, aqat, şüşşə muncuqlar) aşkar edilmişdir.

Nekropoldakı tədqiq olunmuş 3 №-li qəbir şimal-cənub istiqamətində olub digər qəbirlər kimi təbii aşınmaya məruz qaldığından onun qərb divarları dağılmışdır. Buradan aşkar olunmuş skelet qalıqlarından birinin sümükləri qəbirin cənub divarına sıxışdırılaraq dağılmışdır. Digər skelet isə kəlləsi şimala olmaqla şimal-cənub istiqamətində bükülü vəziyyətdə qoyulmuşdur.

Qəbirdən aşkar olunan maddi-mədəniyyət nümunələri küpə, kasa, qədəh tipli gil qablardan, tunc bəzək əşyalarından (sancaqlar, üzüklər, bilərziklər, boyunbağılar, sırğalar, maqqac və b.) və digər arxeoloji materiallardan ibarətdir.

Nekropoldakı tədqiq olunmuş qəbirlər içərisində 4 №-li qəbir başqalarına nisbətən tamamilə dağıdıldığından onun formasını və tipini müəyyənləşdirmək çətinlik törətmişdir (46, s. 103-108). Lakin ehtimal etmək olar ki, nekropoldakı başqa qəbir abidələri kimi 4 №-li qəbir də daş qutu tipli düzəldilmişdir. Qəbirdən insan sümüyünün qalıqları tapılmamış, müxtəlif formalı boz və çəhrayı rəngli gil qab qırıqları və bir ədəd üzəri parçalanmış dəmir sırğa aşkar edilmişdir. Nekropoldakı qəbirlər, əldə olunmuş maddi-mədəniyyət nümunələri Son Tunc-Erkən Dəmir dövrünə aid olub abidənin həmin dövrə aid olduğunu qeyd etməyə əsas vermişdir.

***Qumluq nekropolu.*** Ordubad rayonunun Bist kəndindən, şimal-şərqdə, Gəmiqayadan qərbdə, Nəsirvaz çayının sol sahilində yerləşir. Onu eyni adlı qədim yaşayış yerindən kənd sakinlərinin biçənək sahəsinə gedən avtomobil yolu ayırır. Nekropol yoldan aşağıda kəndə gedən su arxının

üstündədir. Abidənin yerləşdiyi ərazidə zəngin otlaq sahələri var.

Nekropoldakı qəbirlər daş qutu tiplidir. Onlar yanlarda iki, baş tərəfdən isə bir iri sal daşla qurulmuşdur (şəkil 10, 4, 5). Qəbirlərin çoxu 70-80-ci illərdə kəndə su kanalı çəkilərkən dağıdılmışdır. Bir qrup qəbirlər isə təbii aşınmaya məruz qalmışdır. Buna görə də nekropoldakı qəbirlərin bir çoxunun üst və yan daşları düşmüş, onlara məxsus maddi-mədəniyyət nümunələri üzə çıxmışdır. Yerli əhalinin verdiyi məlumata görə nekropoldakı dağılmış qəbirlərin bir qisminin materialları onlar tərəfindən toplanılsa da çoxlu miqdarda maddi-mədəniyyət nümunələri dağılmış, gil qablar qırılmışdır. Buna görə də nekropolun yerləşdiyi ərazidə keramika qırıqları çoxluq təşkil edir.

Abidə 2005-ci ildə V.B.Baxşəliyevin rəhbərliyi ilə tərəfimizdən aparılan arxeoloji araşdırmalar zamanı qeydə alınmışdır (19, s. 81-85). Orada aparılan kəşfiyyat xarakterli tədqiqatlar zamanı nekropoldakı dağılmış qəbirlərdən dördü təmizlənərək planı çıxarılmışdır (120, s. 47-49). Qəbirlərdən Son Tunc-Erkən Dəmir dövrünə aid çölmək, kasa, küpə, neyrə tipli qablar toplanılmışdır. Əldə olunmuş keramika məmulatları yaşayış yerindən tapılmış gil qablarla oxşarlıq təşkil edərək hər iki arxeoloji abidənin eyni dövrə aid olduğunu göstərmişdir. Yaşayış yeri ilə nekropoldan toplanılan yerüstü keramika nümunələri arasında çəhrayı rənglilərin çoxluq təşkil etməsi onların hamısının eyni istehsal ocağında hazırlandığını qeyd etməyə əsas vermişdir.

Abidənin öyrənilməsi sahəsində aparılan arxeoloji tədqiqatlar tərəfimizdən 2006-2007-ci illərdə də davam etdirilmişdir. Bu zaman Son Tunc-Erkən Dəmir dövrünə aid bir çox yeni maddi-mədəniyyət nümunələri (gil qablar, bəzək əşyaları) yerli əhalidən toplanılaraq öyrənilmişdir (47, s. 98-103). Nekropoldan aşkar olunmuş Xocalı-Gədəbəy tipli xəncərlər xüsusilə diqqətə layiqdir.

***İlikliqaya nekropolu.*** Ordubad aryonunun Tivi kəndi ərazisində, eyni adlı qədim yaşayış yerindən qərbdə, Dəmyələr nekropolunun yaxınlığındı yerləşir. Sahəsi 0, 5 hektara yaxındır. Onun yerləşdiyi ərazi zəngin bitki örtüyünə malikdir.

Nekropol 2005-ci ildə V.B.Baxşəliyevin rəhbərliyi ilə apardığımız arxeoloji araşdırma zamanı qeydə alınmışdır (21, s. 121-122). Bu sahədə aparılan kəşfiyyat xarakterli arxeoloji tədqqatlar sonrakı dövrlərdə də davam etdirilmişdir. Nekropol qumluq ərazidə, yamacda yerləşdiyndən güclü təbii aşınmaya məruz qaldığından onların planını çıxarmaq çətinlik törətmişdir. Aparılan kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində abidədən boz və çəhrayı rəngli gil qablar toplanılmışdır. Toplanılan keramika məmulatları içərisində qalın divarlı, çəhrayı rəngli küpə tipli qab qırıqları nisbətən çoxluq təşkil etmişdir (48, s. 94-98). Nekropoldan əldə olunmuş maddi-mədəniyyət nümunələri Son Tunc-Erkən Dəmir dövrü üçün xarakterik olub, abidənin həmin dövrə aid olduğunu göstərmişdir.

***Göygöl nekropolu.*** Ordubad rayonunun Nürgüt kəndindən şimalda, Göygöldən qərbdə yerləşir. Onun yerləşdiyi ərazidə zəngin otlaq sahələri var. Abidə V.B.Baxşəliyev tərəfindən 2008-ci ildə qeydə alınmışdır. Tədqiqatçı tərəfindən nekropolda aparılmış kəşfiyyat xarakterli arxeoloji araşdırmalar zamanı müəyyən olunmuşdur ki, buradakı qəbirlər kurqan tiplidir. Onların hündürlüyü 1 m, diametri 3 m-ə yaxındır. Kurqanlar daş qarışıq torpaq laylarından yaranmışdır. Onlar tikinti texnikasına və quruluşuna görə e.ə. II-I minilliklərə aid xüsusiyyətlər daşıyaraq, abidənin həmin dövrə aid olduğunu göstərmişdir (21, s. 139).

Naxçıvan ərazisində yerləşən qəbir abidələrinin tədqiqi onların olduqca müxtəlif tipli olduğunu, dəfn adətinə görə fərqləndiyini göstərir. Şübhəsiz ki, bunlar inanclarına görə fərqlənən müxtəlif qəbilələrin ideoloji təsəvvürləri ilə bağlılıq təşkil edir.

Qəbir abidələrinin tədqiqi zamanı qeyd edildiyi kimi, az da olsa (Zeyvə, Aşağı Daşarx, Qarabulaq və b.) bəzi nekropolların yaşayış yerlərinin aşkar edilməməsi belə ehtimal etməyə əsas verir ki, bu nekropollar yarımköçəri həyat tərzi keçirən əkinçi-maldar tayfalarla bağlılıq təşkil edir.

### *1.1.5. Qayaüstü təsvirlər*

Naxçıvan Muxtar Respublikasındakı Son Tunc-Erkən Dəmr dövrünə aid olan qayaüstü təsvirlər Gəmqaya abidəsindəki Qaranquş, Qızgəlin çuxuru, Nəbi yurdu, Göllər adlı yurd yerləri ilə yanaşı ətraf ərazilərdə, bəzi qəbir daşları üzərində də aşkar olunmişdir. Buna görə də onları şərti olaraq üç əsas qrupa bölmək olar.

1. Gəmiqaya təsvirləri.
2. Qəbir daşları üzərindəki təsvirlər.
3. Yuxarı Gilançay vadisindəki qayaüstü təsvirlər.

***Gəmiqaya təsvirləri.*** Gəmiqaya abidəsindəki Son Tunc-Erkən Dəmir dövrünə aid olan qayaüstü təsvirlərin əksəriyyəti dünyanın müxtəlif yerlərində olan petroqliflər kimi heyvan rəsmlərindən ibarət olmuşdur (113, s. 120-125; 113, s. 65-67; 126, s. 205-206; 133, s. 492-493). Onlar sadə və mürəkkəb kompozisiyalı olmaqla bir-birindən fərqlənmişlər. Orada qeydə alınmış Son Tunc-Erkən Dəmir dövrünə aid olan heyvan təsvirlərindən çoxunu keçi rəsmləri təşkil edir. Onların əksəriyyətində keçilərin buynuzları yarımdairəvi şəkildə geriyə qatlanaraq quyruğu ilə birləşdirilərək Xocalı-Gədəbəy mədəniyyətinə aid xüsusiyyətlər daşımışdır.

Gəmiqayadakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan bu tip qayaüstü təsvirlərdə keçi tək, cüt, qrup halında, arxası üstə və b. formalarda çəkilərək Anadolu (39, s. 66), Iran, Ön Asiya (14, s. 42-44), Sibir (163, s. 44-46) və b. petroqlifləri kimi sadə və mürəkkəb kompozisiyalı olmuşdur. Sadə

kompozisiyalı rəsmlərdə keçi tək və ya sürü şəklində heç bir əlavə təsvir olmadan verilmişdir. Mürəkkəb kompozisiyalı rəsmlərdə keçi müxtəlif işarələrlə, svastika, həyat ağacı, insan və b. təsvirləri ilə birlikdə çəkilmişdir. Orada qeydə alınmış iki üçbucağın iti bucağının birləşməsindən əmələ gəlmiş keçi təsvirlərindən bir qrupu Xanlar rayonundan tapılmış gil qabların üzərindəki təsvirlə oxşarlıq təşkil edir (43, s. 126).

Gəmiqaya abidəsindəki keçilərin sürü halında göstərildiyi rəsmlərdən bir qrupunda onlar yandan siluetdə, müxtəlif istiqamətlərdə təsvir olunmuşlar. Digər rəsmlərdə isə keçilər müəyyən bir istiqamətə hərəkət edən vəziyyətdə və ya qarşı-qarşıya otlayan formada çəkilmişlər. Oradakı qayaüstü təsvirlərin əksəriyyəti qədim əkinçi-maldar tayfaların dini-ideoloji görüşləri ilə bağlı olsa da, onlardan bəziləri bir qədər real üslubda verilərək, əkinçi-maldar tayfaların təsərrüfat və məişət həyatı ilə bağlı müəyyən səhnələri əks etdirmişdir. Belə maraqlı qayaüstü təsvirlərdən birində keçinin qabaq ayaqları irəliyə, dal ayaqları geriyə qatlanmış vəziyyətdə çəkilərək onun sola doğru qaçması bir qədər real uslubda verilmişdir. Keçinin ön tərəfində, buynuzu ilə eyni səviyyədə üfüqi vəziyyətdə bir ucu haçalanmış, digər ucu qatlanmış işarə həkk edilmişdir (39, s. 27). Oradakı bu tip qayaüstü təsvirlərdən birində yeddi baş keçi içərisi dörd ədəd nöqtələrlə doldurulan düzbucaqlı formalı fiqurla birlikdə verilmişdir (şəkil 11, daş № 443) (68, s. 65). Bu təsvirdə düzbucaqlı formalı fiqur heyvanın saxlanıldığı yeri (dəyəni) göstərir. Onun içərisinin nöqtələrlə doldurulması isə heyvanların sayını bildirir.

Gəmiqayadakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan mürəkkəb kompozisiyalı qayaüstü təsvirlər sırasına keçilərin oğlaq və həyat ağacı rəsmləriylə birlikdə verilməsi, həyat ağacının təklikdə çəkilməsi, arxa-arxaya və ya qarşı-qarşıya durmuş heyvan təsvirləri də daxil olmuşdur (68, s. 62, 66, 236, 250, 286; 39, s. 37-45; 14, s. 54; 16, s. 109, 213). Onlardan bir qrupu Azərbaycanın müxtəlif yerlərindən tapılmış Son Tunc-

Erkən Dəmir dövrünə aid olan gil qabların üzərindəki təsvirlərlə oxşarlıq təşkil etmişdir (123, tab. XXIX). Bəzi təsvirlər isə Ön Asiya, Şumer incəsənəti üçün xarakterik motivli olmuşdur (14, s. 42).

Gəmiqaya abidəsində qeydə alınmış arxa-arxaya durmuuş qoşa heyvan fiqurlu təsvirlərdən bir qismində iki keçi, digər təsvirdə isə keçi və maral rəsmləri verilmişdir (16, s. 213) (şəkil 13, № 1). Bu təsvirlər formaca Cənubi Qafqaz, Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən tapılan heyvan fiqurları ilə oxşarlıq təşkil edərək müəyyən elmi nəticələrin əldə olunmasına köməklik etmişdir (165, s. 132-147).

Gəmiqayadakı Son Tunc-Erkən Dəmir dövrünə aid keçi təsvirlərindən bir qrupunda bu heyvanlar insanla birlikdə verilərək real həyat hadisələri ilə bağlı olan səhnələri əks etdirmişdir. Oradakı bu cür qayaüstü təsvirlərdən birində insanlardan biri mərkəzi planda olub, ayaqlarını bir qədər aralı qoymuş, qollarını düz vəziyyətdə yanlara açmışdır. Ondan solda və sağda, qarşısında hərəkət vəziyyətində üç adam rəsmi çəkilərək heyvan sürüsünün maldar tayfanın cəngavərləri tərəfindən müdafiəsi ilə bağlı müəyyən bir səhnə canlandırılmışdır (39, s. 44).

Gəmiqayada qeydə alınmış buynuzları arxaya qatlanmış keçinin canavarla üzbəüz dayanması rəsmində də real həyat hadisələri ilə bağlılıq olsa da, bu təsvir daha çox ritual xarakter daşımış, müəyyən dini ayinlə bağlılıq təşkil etmişdir (14, s. 55; 68, s. 98). Təsvirdə canavar tək xətlə uzun quyruqlu, qulaqlarını şəkləmiş vəziyyətdə çəkilmişdir. Onun arxa ayaqlarının yuxarı hissəsi bədəninə dairə şəklində birləşdirilmişdir. Canavarla keçi arasında uzun dalğalı xətt verilərək bütün türk xalqları üçün xarakterik olan «Qurd ağzı bağlanılması» ayini əks olunmuşdur (94, s. 314). Bu təsvirin Son Tunc-Erkən Dəmir dövrünə aid olması haqqında konkret fikir söyləmək bir qədər çətindir. Lakin arxeoloji mənbələrə nəzər salsaq görərik ki, Gəmiqayada heyvanların mübarizə səhnəsini əks etdirən çoxlu

sayda bu tip qayaüstü təsvirlər aşkar olunmuşdur. Onların əksəriyyəti Mesopotomiya, Orta Asiya, Qara Dəniz incəsənəti üçün xarakterik xüsusiyyətlər daşımış, Xocalı-Gədəbəy mədəniyytinə aid olan tunc kəmərlərin (45, s. 68-109) üzərindəki bir qrup rəsmlərlə oxşarlıq təşkil etmişdir.

Bu tip qayaüstü təsvirlər arasındakı bənzərlik dünyanın bir çox yerlərində məskunlaşmış insanların dini-ideoloji görüşlərində, mifik düşüncə tərzində də özünü göstərmişdir (58, s. 120; 142, s. 75). Keçi ilə bağlı əfsanə və rəvayətlər yalnız Naxçıvanda deyil (87, s. 34), Azərbaycanın digər bölgələrində (85, s. 44-46) və dünyanın müxtəlif yerlərində mövcud olmuşdur.

Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, Orta Asiya və Sibirdə yaşayan türk xalqlarının arasında Al-Albastı, Al arvadı keçi şəkilində təsəvvür edilmişdir. Tuvalılarda ailə ocağı ilə bağlı mərasimlərdə başı sarı keçidən istifadə olunuşdur (86, s. 16, 162). Altaylar uşağı dağ keçisinin sümüyü vasitəsiylə bəd ruhlardan qorumuşlar (84, s. 89).

Gəmiqayadakı Son Tunc-Erkən Dəmir dövrünə aid edilən mərasim səhnələri ilə bağlı olan qayaüstü təsvirlər içərisində üç nəfər insanın rəqs edən vəziyyətdə verildiyi rəsm daha çox maraq doğurmuşdur (şəkil 13, daş № 115, a). Təsvirdə insanlardan biri əlində çoban dəyənəyini tutaraq onun əkinçi-maldar tayfaların həyatındakı aparıcı mövqeyi ilə bağlı müəyyən mərasimi icra etmişdir (68, s. 64, 101).

Gəmiqayadakı Son Tunc-Erkən Dəmir dövrünə aid heyvan təsvirlərindən bir qrupunu oküz, at, it rəsmləri təşkil etmişdir. Onlar keçi təsvirləri ilə müqayisədə nisbətən azlıq təşkil edir.

Gəmiqayada qeydə alınmış Son Tunc-Erkən Dəmir dövrünə aid öküz təsvirlərinin az olmasının əsas səbəbi ondan ibarətdir ki, bu dövrdə yarımköçəri maldarlığın daha çox inkişaf etməsi nəticəsində iribuynuzlu maldarlıq təsərrüfatı

zəifləmiş, xırdabuynuzlu heyvandarlıq üstünlük təşkil eddir. İribuynuzlu heyvanlardan əsasən yük və qoşqu qüvvəsi kimi istifadə edilmişdir. Buna görə də Gəmiqayada qeydə alınmış 40-dan artıq araba rəsminin çoxunda öküz, bəzilərində isə at qoşqu qüvvəsi kimi verilmişdir.

Araba rəsmlərindən bir qrupu dördtəkərli, bir qismi isə ikitəkərli formada çəkilmişdir (şəkil 11, daş № 30; şəkil 13, № 4) (68, s. 18; 16, s. 248). Onların içərisindəki ikitəkərli araba rəsmlərindən əksəriyyəti (şəkil 11, daş № 30, 1; daş № 49, 2) Mingəçevirdən (26, s. 95), Qobustandan (66, s. 88; 157, s. 15) tapılmış e.ə. I minilliyin əvvəlinə aid ikitəkərli gil araba modelləri ilə oxşarlıq təşkil etmişdir. Yaxın Şərqdəki arxeoloji abidələrdən (Xurvin (Tehranın şimal-şərqində), Kaluraz (Gilanda)) tapılmış yüklü heyvan fiquru, araba modelləri ilə məntiqi cəhətdən oxşar olmuşdur (88, s. 17, 23-26). Onların arasındakı bənzərlik insanların dini-ideoloji görüşlərində, mifik düşüncə tərzində də, özünü göstərmişdir (58, s. 120).

Öküzün buynuzları vasitəsilə Ön Asiya Allahlarının və Allahlaşdırılmış hökmdarların baş geyimləri bəzədilmişdir. Zərdüşt dininin kitabı olan "Avesta" da isə göstərilmişdir ki, "...kim öküzün qayğısına qalarsa, o, cənnətə düşər. Buna görə də onu döymək, incitmək, nahaq yerə öldürmək böyük günahdır» (44, s. 58).

Qədim Şərq xalqlarının tarixində öküz totemi müxtəlif formalarda özünü göstərir. Türk xalqlarının tarixində okiizün ilahiləşdirilməsi ilə bağlı xeyli miqdarda əfsanələr yaranmışdır. E.ə. II minilliyin sonu I minilliyin əvvəllərinə aid Xurvin (Tehranın şimal-şərqində), Kaluraz (Gilanda) abidələrində öküzün ilahiləşdirilməsi ilə bağlı çoxlu maddi-mədəniyyət nümunələri tapılmışdır. Hələf (Tel-Hələf) (Şimali Ikiçayarası) (156, s. 99) Kalibanqan (Hindistan) abidələrində qulağında sırğa olan öküz şəklindəki qaba, qoşqulu öküz heykəllərinə təsadüf edilmişdir (88, s. 17, 23- 26).

Misirdə insanlar Allahları müxtəlif heyvan görkəmində təsvir etmişlər. Burada allah Apis öküzü təmsil etmişdir. Qədim Misirlilərin dini inanclarında həmçinin öküz Ptax allahı da olmuşdur. O, Osiris, Ra kimi Allahları əks etdirmişdir. Misirlilərin dini təsəvvürlərinin təkmilləşməsindən sonra Ra, Qor şahin, Xnum qoyun, ilahə Xotxor isə öküz başlı Allah görkəmində təsəvvür edilmişdir (88, s. 210-212).

Qədim İkiçayarası əhalisi də, allahları müxtəlif heyvan görkəmində təsvir etmişlər. Burada allah Ea balıqqulağı yaxud tısbağa, Marduk əfsanəvi əjdaha, Qulat it, Şedu və Lamassu isə qanadlı öküz şəklində təsəvvür edilmişdir (88, s. 114; 156, s. 190).

Türk xalqları öküzə güc, qüvvət, məhsuldarlıq simvolu kimi baxaraq onu müqəddəsləşdirmişlər. Qırğızlar, uyğurlar və başqa türkdilli xalqlar öküzün müqəddəsliyini bildirmək üçün onu göy rəngli təsəvvür etmişlər. Burada göy rəng Tanrı simvolunu bildirmişdir (84, s. 160).

Qırğızlarda Göy öküzlə bağlı əfsanələrin birində onun susuz qalan çobanlara buynuzları ilə yeri qazıb su çıxartması, onları ölümdən qurtarması, buynuzları arasında yeri saxlaması haqqında məlumatlar vardır. Qədim "Maaday Qara" əfsanəsində öküzlə bağlı insanların dini-mifoloji görüşləri bir qədər fərqli şəkildə verilmişdir. Burada Merqenlə vuruşan oküz, eləcə də Buğacın qalib gəldiyi öküz Erlik mifik obrazın zoomorf şəklinə düşməsi kimi göstərilmişdir (84, s. 163, 168).

Gəmiqaya abidəsində bir neçə yerdə it təsvirləri qeydə alınmışdır. Onlar tək və ya qalın xətlərlə döymə, qazma, sürtmə üsulu ilə çəkilmiş, sadə və mürəkkəb kompozisiyalı olmuşlar (39, s. 27, 32, 36, 42; 68, s. 24, 26, 65). Oradakı it təsvirləri ölçülərinə, çəkilmə texnologiyasına və kompozisiyasına görə bir-birindən fərqlənirlər. Onların bir qismində it qulaqlı çəkilsə də bəzilərində qulaqsız təsvir edilmişdir. Qulaqlı it təsvirlərindən fərqli olaraq qulaqsız rəsmlər çoban itinin təsviridir. Həmin təsvirlərdən bir çoxu

formaca Zəngəzurdan, Göyəm dağlarından, Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələrdən tapılmş bir qrup it rəsmləri ilə oxşarlıq təşkil edir. Onlar Mingəçevir, Sarıdərə, Tovuzçay nekropollarından və digər abidələrdən tapılmış it sümükləri ilə məntiqi cəhətdən bağlılıq təşkil edərək Son Tunc-Erkən Dəmir dövründə Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da it kultunun geniş yer tutduğunu göstərir (70, s. 5-25). Buna görə də Gəmiqayadakı qulaqsız it təsvirlərindən (çoban iti) çoxunun Son Tunc-Erkən Dəmir dövrünə aid olduğunu ehtimal etmək olar.

Gəmiqayadakı qulaqsız it təsvirlərindən bir qismi sadə çəkilərək onların adi hərəkətini (hürməsini) əks etdirmişdir. Bəzi rəsmlər isə bir qədər mürəkkəb kompozisiyada çəkilmişdir. Sadə kompozisiyalı rəsmlərdən bir qismində itin ağzı geniş açılmış, quyruğu yuxarı qalxmış və ya sakit vəziyyətdə siluetdə verilmişdir (şəkil 12, daş № 215, 1). Mürəkkəb kompozisiylı rəsmlərdə isə it insanla, heyvanla birlikdə müxtəlif variantlarda çəkilmişdir (68, s. 65; 39, s. 27).

Gəmiqayadakı mürəkkəb kompozisiyalı it təsvirlərindən birində altı baş keçi insan və itlə birlikdə verilərək qədim əkinçi-maldar tayfaların təsərrüfat həyatı ilə bağlı müəyyən kompozisiyanı əks etdirmişdir. Təsvirdə keçilərdən dördü sağa, ikisi isə sola doğru hərəkət vəziyyətində çəkilmişdir. Heyvanlardan biri erkək cinsli, sürünün başçısı, digəri isə onun balası kimi verilmişdir (39, s. 29; 67, s. 8). Oradakı çəpiş və təkə təsvirləri tədqiqatçıların qeyd etdiyi kimi, nəsl artımı ilə bağlı olsa da öz kökünü heyvandarlıqla bağlı müəyyən həyat hadisəsindən götürmüşdür. Ona görə ki, qeyd olunan qayaüstü təsvirdəki insan və it rəsmləri heç də təsadüfən çəkilməmiş heyvanların otarılması (örüşü) ilə bağlı müəyyən epizodu əks etdirmişdir.

Eyni semantik mənalı təsvirlərdən birində keçinin bir tərəfində insan, digər tərəfində qulaqsız it rəsmi çəkilərək çobanın sürünü toplayıb eyni bir istiqamətə yönəltməsi epzodu

verilmişdir (39, s. 29). Başqa bir qayaüstü təsvirdə isə hasar içərisində iki keçi, hasarın bitdiyi yerdə, keçilərlə eyni istiqamətdə iki it rəsmi çəkilərək (şəkil 12, daş № 347, 2, 3) heyvanların yataq yerlərində itlər tərəfindən qorunması səhnəsi əks edilmişdir (70, s. 8 ).

Gəmiqaya abidəsində qeydə alınmış at və ulaq təsvirlərindən hansılarının Son Tunc-Erkən Dəmir dövrünə aid olması haqqında konkret fikir söyləmək bir qədər çətinlik törətsə də, bu məsələ haqqında da müəyyən ehtimal yürütmək olar.

Arxeoloji mənbələrə nəzər salsaq görərik ki, uzunqulaq və yə qatırlar tarixən ağır yük götürmək, koç zamanı heyvan sürüləri ilə ayaqlaşmaq qabiliyyətinə malik olmuşlar (121, s. 140-142). Onlardan ilk dəfə Azərbaycanda nə vaxt istifadə olunması haqqında konkret elmi fikir olmasa da qədim Şərq ölkələrində bu heyvanlar e.ə. III minillikdə yük və minik vasitəsi kimi istifadə olunmuşdur (130, s. 123). Şumerlər eramızdan 2000, misirlilər 1400, babillər isə 1200 il əvvəl atdan minik vasitəsi kimi istifadə etmişlər (42, s. 23). Azərbaycanda isə atla bağlı maddi-mədəniyyət nümunələrinə Şahtaxtı, I Kültəpə (96, s. 220), II Kültəpə (43, s. 115-117), Dağlıq Qarabağ, Xanlar, Qalakənd, Gədəbəy (44, s. 134; 180, s. 55) və b. arxeoloji abidələrində təsadüf olunmuşdur. Əldə olunmuş arxeoloji materiallar Erkən Tunc dövründən başlayaraq Dəmir dövrünün əvvəllərinə qədər olan dövrü əhatə etmişdir. Onlar bu dövrlərdə Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da atlardan yük və qoşqu qüvvəsi kimi istifadə olunması nəticəsində at kultunun geniş yer tutduğunu göstərmişdir.

Gəmiqayada at təsvirləri müxtəlif variantlarda çəkilmişdir (39, s. 53-54; 68, s. 22, 23, 174, 193, 217, 236). Onlardan birində at ikitəkərli araba ilə birlikdə qoşqu qüvvəsi kimi verilmişdir (68, s. 18) (şək 12, daş № 247). Bəzi təsvirlərdə insanların atın üstündə təsvir olunması vasitəsilə

heyvanların atlı çobanlar tərəfindən otarılması və örüş səhnəsi göstərilmişdir.

Gəmiqayada qeydə alınmış bu cür qayaüstü təsvirlərdən birində üç atlı və bir keçi (şəkil 11, daş № 70) verilmişdir. Başqa bir təsvirdə isə atın üzərində insan iki keçi ilə birlikdə əks etdirilmişdir (şəkil 12, daş № 322) (68, s. 22-23). Həmin qayaüstü təsvirdə insanın ayaqlı göstərilməsi, qollarını yanlara açması Sialk B nekropolundan (şəkil 14, 1), Dağıstan petroqliflərindən tapılan atlı rəsmləri ilə oxşarlıq təşkil edərək Cəmiqayadakı bu cür təsvirlərin Son Tunc-Erkən Dəmir dövrünə aid olduğunu qeyd etməyə əsas verir (69, s. 17-33).

Gəmiqaya abidəsində uzunqulaq təsviri çox az qeydə alınmışdır. Onlardan bəzilərində uzunqulaq keçi ilə birlikdə verilmişdir. Keçilərdən bəzilərinin buynuzu Xocalı-Gədəbəy abidələrindəki bir qrup rəsmlər kimi yarımdairəvi şəkildə arxaya qatlanaraq Son Tunc-Erkən Dəmir dövrünə aid xüsusyyətlər daşıyır (39, s. 29).

Gəmiqayadakı Son Tunc-Erkən Dəmir dövrünə aid qayaüstü təsvirlərdən bir qrupu müxtəlif işarələrdən, insan, quş rəsmlərindən ibarət olmuşdur. Orada insan rəsmləri müxtəlif variantlarda çəkilmişdir (14, s. 60-74; 68, s. 61, 60-67; 39, s. 25-33). Onların bir qrupunda insanlar üçbarmaqlı verilərək (şəkil 13, № 2) Xocalı-Gədəbəy mədəniyyətinə aid gil qabların, Qızılburun boyalı küpəsinin üzərindəki təsvirlərlə oxşarlıq təşkil etmişdir (123, s. 126; 36, s. 144).

Gəmiqaya abidəsində qeydə alınmış quş təsvirlərindən hansıların Son Tunc-Erkən Dəmir dövrünə aid olması haqqında konkret fikir söyləmək bir qədər çətindir. Oradakı quş rəsmilərindən bir qrupu təsvir edilmə motivinə görə "Kür-Araz mədəniyyəti"nin son mərhələsinə aid gil qabların üzərindəki rəsmlərlə oxşarlıq təşkil edir (16, s. 228).

Gəmiqayadakı Son Tunc-Erkən Dəmir dövrünə aid quş təsvirlərinin dövrləşdirilməsi ilə bağlı ilk elmi addım İ.M.Cəfərzadə tərəfindən atılmışdır. Tədqiqatçı buradakı

rəsmlərdən birinin Son Tunc-Erkən Dəmir dövrünə aid olması haqqında konkret fikir söyləyərək, onun Qobustandakı (Boyükdaşda) Son Tunc-Erkən Dəmir dövrünə aid quş təsvirləri ilə oxşarlıq təşkil etdiyini müəyyənləşdirmişdir (29, s. 169). Həmin qayaüstü təsvirdə quşun bədəni oradakı digər rəsmlər kimi ovalvari-dördkünc şəkildə, boynu uzun, irəliyə doğru dik, başı aşağı əyilmiş formada çəkilmişdir (39, s. 48).

Gəmiqaya abidəsində Son Tunc-Erkən Dəmir dövrünə aid xüsusiyyətlər daşıyan quş rəsmləri bir neçə yerdə qeydə alınmışdır. Onlar müxtəlif variantlarda təsvir edilərək ölçülərinə, kompozisiyasına görə bir-birindən fərqlənir. Təsvirlərdən bir qrupunda quş boynunu yuxarı qaldıraraq başını dik tutmuş, ayaqlarını aralı qoyaraq müəyyən bir istiqamətdə hərəkət vəziyyətində təsvir olunmuşdur (39, s. 47). Bir qrup qayaüstü təsvirlərdə quşun boynu uzun, qanadları açıq, qıçları isə bir qədər qatlanmış vəziyyətdə verilmişdir (68, s. 26). Aşkar olunmuş quş təsvirləri kompozisiya baxımından bir-birindən fərlənməsinə baxmayaraq onların hamısını birləşdirən ortaq cəhət ondan ibarətdir ki, bütün quş təsvirlərinin bədənləri düzbucaqlı şəkildə çəkilmişdir (şəkil 12, daş № 445, № 454, 1).

Gəmiqaya abidəsində qeydə alınmış Son Tunc-Erkən Dəmir dövrünə aid olan qayaüstü təsvirlərin içərisində qədim əkinçi-maldar tayfaların astral inamları ilə bağlılıq təşkil edən qayaüstü təsvirlər də müəyyən yer tutur. Onlar qoşa dairələrdən, səkkizşəkilli işarələrdən, müxtəlif formalı günəş rəsmlərindən və digər təsvirlərdən ibarətdir. Oradakı qoşa dairələrdən ibarət təsvirlərin bir qrupu tədqiqatçı V.B.Baxşəliyevin qeyd etdiyi kimi Sibirdə, Göyəm dağlarında olan rəsmlərlə oxşarlıq təşkil etmişdir (14, s. 35).

Gəmiqayadakı astral inamla bağlılıq təşkil edən qayaüstü təsvirlərin əksəriyyəti günəş rəsmlərindən ibarətdir. Bu təsvirlərdən içərisində iki çıxıntı, nöqtə və ya svastika olanlar, şüaşəkillilər Son Tunc-Erkən Dəmir dövrünə aid xüsusiyyətlər daşıyaraq, onların bir qrupunun bu dövrə aid

olduğunu qeyd etməyə əsas vermişdir (şəkil 13, № 3). Ona görə ki, arxeoloji mənbələrə nəzər salsaq görürük ki, şüaşəkilli naxışlardan ibarət ornamentlər Erkən Dəmir dövrünə aid boyalı qabların ayrılmaz xüsusiyyətlərindən olmuşdur (16, s. 213; 89, s. 115-118). İkiçıxıntılı, içərisində nöqtə və ya svastika olan Günəş rəsmlərinə Sibirdəki Son Tunc-Erkən Dəmir dövrünə aid qayaüstü təsvirlərin arasında (163, s. 44-46), Xocalı-Gədəbəy mədəniyyətinə aid qabların üzərində (123, s. 80-83) kifayət qədər aşkar edilmişdir.

Gəmiqaya abidəsindəki qayaüstü təsvirlərin içərisində Son Tunc-Erkən Dəmir dövrünə aid sxematik xarakterli işarələrdən bir qrupunu "8" şəklində olan rəsmlər təşkil edir (68, s. 60-63; 39, s. 49) (şəkil 13, № 3, № 5). Onların bəziləri motivinə görə Xocalı-Gədəbəy mədəniyyətinə aid gil qabların üzərindəki rəsmlərlə oxşarlıq təşkil edir (123, tab. II, 8, tab. XIV, 1, tab. XV, 4, tab. XIX, 7), bir qrup rəsmllər isə fərqlənir. Oradakı bu tip rəsmlər həm şaquli, həm də, üfüqi vəziyyətdə çəkilmişdir. İstər təklikdə, istərsə də insan, heyan rəsmləri ilə birlikdə verilmişdir. Bəzi heyvan rəsmlərinin bədəni də "8" şəklində təsvir edilmişdir (şəkil 11, daş № 275, 2) (68, s. 61).

***Qəbir daşları üzərindəki təsvirlər.*** Naxçıvan Muxtar Respublikasının ərazisində Son Tunc-Erkən Dəmir dövrünə aid olan qəbir daşları üzərində təsvirlər Kolanı və Sarıdərə nekropollarında aşkar olunmuşdur.

***Kolanı nekropolundakı qəbirüstü təsvirlər.*** Kolanı nekropolundan bu tip iki təsvir aşkar olunmuşdur. Onlar nekropoldakı 7 №-li qəbirin yan divarındakı iri sal daşların üzərində tədqiqatçı alim V.H.Əliyev və V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır (90, s. 10-12; 12, s. 86-87) (şəkil 15, 2, 3). Aparılan arxeoloji araşdırmalar zamanı tədqiqatçı bu rəsmlərdəki bəzi detalların Sibir, Cənubi Qafqaz, Cəmiqaya, Xatunçay, Qobustan qayaüstü təsvirlərində, Xocalı-Gədəbəy mədəniyyətinə aid gil qabların üzərində, Misir heroqliflərində, Orxon-Yenisey yazılarında təsadüf olunduğuna əsaslanaraq

təsvirlərdən birində (hündürlüyü 103 sm, eni 82 sm olan trapesformalı daş lövhə üzərndəki rəsm) günəş tanrısının, digərində isə hami rühun çəkildiyini qeyd edərək, rəsmlərin qədim əkinçi-maldar tayfaların dini-ideoloji görüşləri ilə bağlı olduğunu göstərmişdir (13, s. 36-37; 118, s. 205-207).

Bu təsvir haqqında hələlik heç bir əlavə fikir söyləmək mümkün olmasa da onu qeyd etmək olar ki, aşkar olunmuş rəsmlərdən hər ikisində insanların dini-ideoloji görüşləri ilə bağlı müəyyən kompozisiyanın ifadə edilməsi tamamilə məntiqə uyğundur.

***Sarıdərə nekropolundakı qəbirüstü təsvirlər.*** Bu təsvirlər nekrolopldakı qəbirlərdən birinin (4 №-li qəbir) örtük daşı üzərində qeydə alınmışdır (şəkil 11, 4). Onlar quş təsvirindən və kəsişən xətlərdən ibarətdir (73, s. 50; 12, s. 86-87). Nekropoldan aşkar olunmuş quş təsviri Gəmiqaya abidəsindəki bir qrup quş rəsmi ilə (39, s. 47; 68, s. 26) yanaşı, Şahtaxtı, II Kültəpə (36, s. 51, 59), Sarıdərə (13, s. 28) və digər abidələrdən əldə olunmuş quş fiqurlu asma bəzək əşyaları ilə məntiqi cəhətdən bağlılıq təşkil edərək, qədim əkinçi-maldar tayfaların dini-ideolji görüşləri, mifik düşüncə tərzi ilə bağlı müəyyən kompozisiyanı bildirir.

***Yuxarı Gilançay vadisindəki qaya təsvirləri.*** Bu maddi-mədəniyyət abidəsi 2008-ci ildə müəllif tərəfindən qeydə alınmışdır. Tapılan təsvirlər (iyirmidən çox), yurd yerlərinin qalıqları bir-birləri ilə bağlılıq təşkil edərək bu ərazidə məskunlaşmış insanların maddi və mənəvi mədəniyyətini öyrənmək sahəsində mühüm elmi əhəmiyyət daşıyır. Abidədəki qayaüstü təsvirlərin hamısı eyni dövrə aid olmamış, Tunc dövrünün müxtəlif mərhələlərini, Erkən Dəmir dövrünü əhatə etmişdir (şəkil 15, 1, 5-11).

Yuxarı Gilançay vadisində qeydə alınmış Son Tunc-Erkən Dəmir dövrünə aid qayaüstü təsvirlərdən bir qismi Gəmiqaya rəsmləri ilə oxşarlıq təşkil edir, beziləri isə fərqlənir. Bütövlükdə aşkar olunmuş yeni qayaüstü təsvirlər bu ərazidə

məskunlaşmış qədim əkinçi-maldar tayfaların həyat tərzini, dini-ideoloji görüşlərini öyrənməyə köməklik edərək, bir sıra mühüm elmi nəticələri əldə etməyə imkan verir. Onlar Gəmiqaya abidəsində oduğu kimi insan, heyvan təsvirlərinə, astral rəsmlərə, yazı elementlərinə bölünərək döymə və cızma üsulu ilə çəkilmişdir.

Yuxarı Gilançay vadisində qeydə alınmış insan təsvirlərindən bir qismi təklikdə çəkilmişdir, bəziləri isə heyvan və astral rəsmləri ilə birlikdə verilmişdir. Təsvirlərdən birində cızma üsulu ilə qabaqda keçi, onun arxasında əlində dəyənək tutmuş insan hərəkət vəziyyətində çəkilərək Gəmiqayadakı Son Tunc-Erkən Dəmir dövrünə aid bir qrup təsvirlər kimi maldarlıqla bağlı real həyat hadisələrindən biri əks olunmuşdur (şəkil 15, 1). Başqa bir qayaystü təsvirdə isə insanın başı üzərində ayı və günəşi simvolizə edən rəsm döymə üsulu ilə çəkilərək qədim əkinçi-maldar tayfaların astral inamları ilə bağlı müəyyən kompozisiyaəks olunmuşdur. Oradan aşkar olunmuş insan rəsmləri formaca müxtəlif olsa da rəsmlərin hamısını birləşdirən ortaq cəhət Gəmiqaya abidəsindəki bir çox qayaüstü təsvirlər kimi, insanın qollarını yanlara açmış vəziyyətdə göstərilməsidir. Əllərini yanlara açmış insan rəsmləri uğur, himayə və müdafiə ilə bağlı olmuşdur (14, s. 65)

Yuxarı Gilançay vadisində qeydə alınmış heyvan təsvirləri keçi, maral, canavar və digər rəsmlərdən ibarətdir. Onların əksəriyyəti keçi təsvirlərindən ibarətdir. Qayaüstü təsvirlərin bir çoxu nisbətən sadə çəkilmişdir. Bəziləri isə müxtəlif işarələrlə, damğalarla birlikdə verilmişdir. Aşkar olunmuş belə qayaüstü rəsmlərdən birində döymə üsulu ilə dağ keçisi və tısbağa təsvir olunaraq insanların dini-ideoloji görüşləri, mifik düşüncə tərzi ilə bağlı müəyyən kompozisiya əks edilmişdir.

Maral, qoyun, qoç rəsmləri də digər qayaüstü təsvirlər kimi sadə və mürəkəb kopozisiyalı çəkilmişlər. Onlar

Gəmiqaya təsvirləri ilə yanaşı Naxçıvandakı tunc dövrünə aid olan arxeoloji abidələrdən tapılan osteoloji qalıqlarla (104, s. 155) bağlılıq təşkil edərək bu ərazidə məskunlaşmış qədim tayfaların həyatında keçinin, maralın və digər heyvanların mühüm yer tutduğunu bir daha sübut edir.

Yuxarı Gilançay vadisindən tapılmış maral rəsmlərindən birində marallardan biri kiçik, digəri isə böyük (ana-bala şəklində) formada sxematik şərti işarə ilə birlikdə çəkilərək müəyyən kompozisiyanı bildirmişdir. İşarələrdən biri dört çıxıntı şəklində olub svastkaya bənzədilmişdir. Digər işarə isə üç çıxıntılıdır. Oradan aşkar olunmuş digər qayaüstü təsvirlərdən birində cızma üsulu ilə buynuzları bir-birinin üzərinə qatlanılmış dağ qoçu rəsmi sxematik işarələrlə birlikdə verilərək dünyanın üçtəbəqəli və dörttərəfli olması ilə bağlı insanların dini-ideolji görüşlərini əks etdirmişdir. Bu isə onunla bağlılıq təşkil edir ki, Türk mifologiyaında, eləcə də Azərbaycan türklərində dünya modeli vertikal olaraq üç, horizontal olaraq dörd yerə bölünmüşdür (14, s. 21).

Yuxarı Gilançay vadisindən tapılan heyvan təsvirlərindən 13 №-li rəsm daha çox maraq obyektinə səbəb olmuşdur. Bu rəsm Gəmiqayadakı ulaq rəsmi ilə oxşarlıq təşkil etsə də bəzi xüsusiyyətlərinə görə onlardan fərqlənir. Belə ki, Gəmiqayada qeydə alınmış ulaq rəsmi başını aşağı salmış vəziyyətdə, kontur xətlərlə çəklmişdir (68, s. 223). Bu rəsmdə isə ulaq başını düz tutmuş vəziyyətdə, iri qulaqlı verilmişdir (şəkil 15, 8).

Yuxarı Gilançay vadisindən aşkar olunmuş maraqlı qayaüstü təsvirlərdən birini yırtıcı heyvanların dırnaqlıları parçalaması ilə bağlı rəsmlər təşkil edir. Onlardan birində Gəmiqaya abidəsindəki bəzi təsvirlər kimi yırtıcı heyvan öz ovunu ağzı ilə tutaraq bir qədər yuxarı qaldırmış vəziyyətdə çəkilərək Mesopotomiya, Orta Asiya, Qara Dəniz incəsənəti üçün xarakterik motiv yaradılmışdır (şəkil 15, 5). Bu təsvir Xocalı-Gədəbəy mədəniyytinə aid tunc kəmərlərin (45, s. 68-

109), Yaycı (104, s. 238), Şahtaxtı (95, s. 27-36) boyalı qablarının üzərindəki bir qrup təsvirlərlə eyni semantik məna daşıyır.

Yuxarı Gilançay vadisindən tapılan astral təsvirlərdən 10 №-li və 11 №-li daşın üzərindəki rəsmlər daha çox marağa səbəb olmuşdur. Onlar abidənin daha dərindən öyrənilməsinə və bir sıra elmi nəticələrin əldə olunmasına köməklik etmşdir.

Vulkanik mənşəli bazalt daşı üzərində çəkilən 10 №-li qayaystü təsvirin yuxarı hissəsi şaquli xətlə ikiyə bölünərək nöqtələrlə doldurulmuşdur (şəkil 15, 11). Ətrafında isə əlavə nöqtələr, svastika formalı işarələr verilmişdir. Nöqtələrdən dördü şaquli xətdən sağda, beşi solda, biri isə yuxarıda çəkilmişdir. 11 №-li qayanın üzərindəki təsvirdə qoşa dairələr svastika, bucaq şəkilli işarələrlə birlikdə çəkilmişdir (şəkil 15, 7).

Bu təsvirlərin semantikasını aydınlaşdırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, dairənin şaquli xətlə ikiyə bölünməsi, nöqtələrdən ibarət işarələr, svastika, qoşa dairə rəsmləri dünyanın müxtəlif yerlərində olduğu kimi Gəmiqayada da qeydə alınmışdır. Dairənin ikiyə bölünməsinin sutkanı (gecə və gündüzü) bildirməsi (67, s. 27-29), dünya modelinin binar oppozisiyada verlməsi, svastika rəsminin günəşi simvolizə etməsi, dünyanın dörtərəfli olduğunu göstərməsi (14, s. 33, 39, 40) ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Sibir türklərinin mifologiyasına görə nöqtələrdən ibarət işarələr ulduzları simvolizə etmiş, qoşa dairələr isə Veneranı göstərmişdir (163, s. 44-46). Qeyd olunan fikirlər müxtəlif olsa da onların hər birinin kokü astral inamla bağlılıq təşkil edərək dünyanın müxtəlif yerlərində məskunlaşmış insanların dini-ideoloji görüşlərində oxşarlığın olduğunu göstərmişdir.

Yuxarı Gilançay vadisindən aşkar edilmiş qayaüstü təsvirlərdən bir qrupunu üzərində araba, heyvan, müxtəlif işarələr çəkilən rəsmlər təşkil edir. Onlar Gəmiqayadakı Son Tunc-Erkən Dəmir dövrünə aid bir qrup qayaüstü təsvirlərlə

oxşarlıq təşkil etsə də kompozisiya baxımından onlardan müəyyən qədər fərqlənir. Oradan tapılan bu cür maraqlı qayaüstü təsvirlərdən birini 16 №-li rəsm təşkil edir. Təsvirdə daşın aşağı hissəsində Gəmiqaya abidəsində (39, s. 25- 57; 17, s. 74-79) və dünyanın bir çox yerlərində olduğu kimi, yazı xarakterli işarələr (163, s. 4-5; 180), yuxarıda isə it və insan təsviri çəkilərək müəyyən kompozisiya ifadə olunmuşdur (şəkil 15, 6). İnsanın qolları yanlara açılmış, qıçının biri ilanvari formada əyilmişdir. Bu təsvirin Son Tunc-Erkən Dəmir dövrünə aid olması haqqında konkret fikir söyləmək bir qədər çətinlik törədir. Lakin aparılan müqayisəli araşdırmaya əsasən onu qeyd etmək olar ki, Gəmiqayada, Göyəm dağlarında qeydə alınmış Son Tunc-Erkən Dəmir dövrünə aid qulaqsız it təsvirləri kimi orada da çoban iti çəkilmişdir.

İstər Gəmiqaya abidəsində, istərsə də Yuxarı Gilançay vadisində və bəzi qəbir daşları üzərində qeydə alınmış təsvirlərin öyrənilməsi göstərir ki, Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid qayaüstü təsvirlər həmin dövrdə bu ərazidə məskunlaşan qədim tayfaların həyat tərzini və ideologiyasını əks etdirir. Onlar maldarlığın insanların həyatında əsas yer tutduğunu göstərir.

# II FƏSİL

## ARXEOLOJİ MATERİALLARIN TƏHLİLİ

### *2.1. Əmək alətləri*

Tarixin bütün dövrlərində olduğu kimi, Son Tunc-Erkən Dəmir dövründə də əmək alətləri cəmiyyət həyatının ictimai-iqtisadi inkişaf səviyyəsini göstərən əsas arxeoloji materiallardan olmuşdur. İnsanlar həyat tərzlərindən asılı olmayaraq daşdan, sümükdən, tuncdan, dəmirdən müxtəlif tipli əmək alətləri düzəltmişlər. Buna görə də dünyanın bütün yerlərində olduğu kimi, Naxçıvan Muxtar Respublikasının ərazisindəki Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən də müxtəlif tipli daş, sümük, tunc və dəmir əmək alətləri tapılmışdır.

Bu dövrə aid yaşayış yerlərindən əldə olunmuş maddi-mədəniyyət nümunələri içərisində sümükdən düzəldilmiş əmək alətləri daş və metal alətlərlə müqayisədə azlıq təşkil edir. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Tunc dövrünün əvvəlki mərhələlərinə nisbətən, Son Tunc-Erkən Dəmir dövründə metallurgiya və metalişləmənin daha çox inkişaf etməsi nəticəsində sümük alətlərdən istifadə olunması nisbətən aradan qalxmış, onlar metal əşyalarla əvəz edilmişdir.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən tapılmış daş və metal əmək alətlərinin tədqiqi onu göstərir ki, həmin dövrdə həm oturaq, həm də yarımköçəri həyat tərzi keçirmiş tayfaların məişətində əmək alətlərindən geniş istifadə olunmuşdur. Əldə olunmuş daş əmək alətlərinin əksəriyyəti əkinçilik təsərrüfatı ilə bağlı olub, qədim əkinçi-maldar tayfaların bu sahədə müəyyən mədəniyyətə

malik olduğunu gösərmişdir. Onların vasitəsilə istehsal olunmuş məhsullarla insanlar həm özlərinin tələbatlarını ödəmişlər. Həm də əlde etdikləri məhsulun artıq qalan hissəsini mübadilə vasitəsinə çevirmişlər. Yaşayış yerlərindən əldə olunmuş bir qrup əmək alətləri toxuculuq və dabbaqlıq mədəniyyəti ilə bağlılıq təşkil edir. Oturaq yaşayış yerlərindən fərqli olaraq, yarımköçəri yaylaq maldarlığı ilə bağlı yaranmış mövsümü yaşayış məskənlərindən əkinçiliklə bağlı əmək alətlərinin (dən daşı və sürtgəclər, həvəngdəstələr və b.) tapılması onu göstərir ki, dağlıq və dağətəyi yerlərdə məskunlaşmış tayfalar maldarlıqla yanaşı olaraq az da olsa əkinçiliklə məşğul olmuşlar. Onlar əmək alətlərindən (dən daşı və sürtgəclər, həvəngdəstələr və b.) yeməli bitki köklərini, mübadilə nəticəsində əldə etdikləri taxılı və digər ərzaq məhsullarını emal edərək özlərinin qidaya olan tələbatlarını ödəmişlər.

Naxçıvan Muxtar Respublikasındakı Son Tunc-Erkən Dəmir dövrünə arxeoloji abidələrdən əldə olunmuş əmək alətlərini iki qrupa bölmək olar:

Birinci qrupa daşdan düzəldilmiş həvəngdəstələr, dən daşları, sürtgəclər, bülövlər, gil iy başlıqları daxildir.

İkinci qrup əmək alətləri tuncdan düzəldilmiş maşalarla, bıçaqlarla təmsil olunmuşdur.

***Dən daşları və sürtgəclər.*** Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrin çoxundan (Babatəpə (74, s. 51), I Kültəpə, Qızılburun (96, s. 152-153), II Kültəpə (35, s. 93), Şahtaxtı (111, s. 102, tab. XXX, 1-4), Qalacıq (170, s. 22-23), Qarnıyarıq (13, s, 34), Qumluq (19, s. 84), İlikliqaya (21, s. 129) və b.) dən daşları və sürtgəclər tapılmışdır. Onlara həm bütöv şəkildə, həm də qırılmış formada təsadüf olunmuşdur. Əldə olunmuş maddi-mədəniyyət nümunələri qırmızı və ya boz rəngli tuf daşından, qranitdən (porfier) və digər suxurlardan müxtəlif formada hazırlanmışlar.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş dən daşları əsasən iki qrupa bölünmüşdür (şəkil 16,1,4).

Birinci qrupa daxil olmuş dən daşları qayıqşəkilli formada düzəldilmişdir (şəkil 16, 1, 4, 5, 19). Qayıqşəkilli formada düzəldilmiş dən daşlarının oturacağı yarımdairəvi, üst hissəsi çuxur olub, hər iki tərəfdən ücları yuxarıya qalxmışdır.

İkinci qrup dən daşları isə ovalvari formada hazırlanmışdır (şəkil 16, 5, 19). Ovalvari formalı dən daşlarının üst hissəsi yastı, oturacağı qabarıq düzəldilmişdir.

Sürtgəclər uzunsov formada hazırlanmışdır. Onların istifadə olunan üzü yastı, istifadə olunmayan üzü isə qabarıqdır. Bu əmək alətinin bir çoxunun ucları yarımdairəvi hazırlansa da bəziləri bir qədər şiş və ya qabarıq düzəldilmişdir.

***Daş çəkiclər.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən (Babatəpə (73, s. 51), I Kültəpə, Qızılburun (96, s. 152-153), II Kültəpə (35, s. 93), Şahtaxtı (111 s.102, tab. XXX, 1-4), Qalacıq (170, s. 22-23) və b.) əldə olunmuş bu tip əmək alətləri boz rəngli tuf daşından uzunsov formada düzəldilmişdir. Əksəriyyəti sadə olmuşdur. Bəzilərinin üzərində kəzlər açılmışdır (şəkil 16, 2, 7-10). Onlar forma və xüsusiyyətlərinə görə bir-birindən fərqlənərək iki əsas tipə bölünmüşlər:

Birinci tipə daxil olan daş çəkiclərin bir qrupu armudvari gövdəli olub ortası qabarıq, ucları isə yarımdairəvi düzəldilmişdir.

İkinci tipə daxil olanlar isə üçbucaq formalı olub yuxarı tərəfi ensiz, aşağı tərəfi enli hazırlanmışdır.

Armudvari formalı daş çəkiclər (II Kültəpə, Şahtaxtı və b.) tünd boz rəngli çay daşından hazırlanmışdır. Onların əksəriyyətinin ortası qabarıq, ucları yarımdairəvi olmuş, üzərində kəz açılmışdır. Uzunsov, üçbucaq formalı daş çəkiclərdən fərqli olaraq bu tip çəkiclərdə kəz onların yuxarı tərəfindən və yanlarından açılmışdır.

Üçbucaq formalı, uzunsov çəkiclər açıq və tünd boz rəngli tuf daşından hazırlanmışdır (Babatəpə, Qalacıq və b.). Onların əksəriyyətinin hər iki səthi sürtülərək yastılanmışdır. Bu tip çəkiclərin bir ucu iti, digər ucu isə yarımdairəvi formada düzəldilmişdir. Üzərlərində bir və ya bir neçə kəz açılmışdır. Kəzlər onların əsasən gövdəsinin ortasını əhatə etmişdir.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş hər iki tip daş çəkiclərin analoquna Azərbaycanın müxtəlif bölgələrində (Mingəçevir (106, s. 150), Üzərliktəpə (143, s. 388-342), Kilikdağ, Xanlar (124, s. 19) və b.) təsadüf olunmuşdur.

***Həvəngdəstələr.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən ((Babatəpə (74, s. 51), I Kültəpə, Qızılburun (96, s. 152-153), II Kültəpə (35, s. 93), Şahtaxtı (111, s. 102, tab. XXX, 1-4), Qalacıq (170, s. 22-23), Qarnıyarıq (13, s. 34) və b.) əldə olunmuş həvəngdəstələrin hamısı boz rəngli tuf daşından düzəldilmişdir. Həvəngin gövdəsi qabarıq, üzəri bir qədər hamar, dayaz, kiçik diametrli olmuşdur (şəkil 16, 18). Dəstənlər isə nazik uzunsov formalı düzəldilmişdir (şəkil 16, 9). Onların işlək tərəfi ovalvari formada, həvəngin diametrinə uyğun olmuşdur. Dəstənın bu cür hazırlanması həvəngdə yeməli bitki toxumlarını, rəngləri və digər məhsulları əzməyi asanlaşdırmışdır.

Aparılan araşdırma zamanı məlum olur ki, bu tip daş əmək aləti Naxçıvanla yanaşı olaraq Kilikdağ, Xanlar (124, s. 19), Mingəçevir (106, s. 21-25), Üzərliktəpə (143, s. 348), Qarabağ (30, s. 70), Babadərviş (55, s. 39; 134, s. 81) və digər abidələrdən kifayyət qədər tapılmışdır.

***İy başlıqları.*** Naxçıvan Muxtar Respublikasının ərazisində öyrənilmiş Son Tunc-Erkən Dəmir dörünə aid olan arxeoloji abidələrdən (I Kültəpə (96, tab. XIV, 12-15), II Kültəpə (104, s. 87), Şahtaxtı (111, tab. XXX, 11, 12), Qarnıyarıqdan (73, s. 11) və b.) aşkar olunmuş iy başlıqlarının hamısı insanların toxuculuq mədəniyyəti ilə bağlılıq təşkil edir.

Onlar vasitəsilə insanlar saxladıqları xırdabuynuzlu heyvanların yununu əyirərək ip hazırlamış, paltar toxuyaraq özlərinin geyimə olan tələbatlarını ödəmişlər. Aparılan müqayisələr onu göstərir ki, bu tip əmək alətlərindən Tunc dövrünün bütün mərhələlərində olduğu kimi Son Tunc-Erkən Dəmir dövründə də istifadə olunmuşdur. Azərbaycanın bütün bölgələri kimi Naxçıvanda da, Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən çoz az miqdarda sümük iy başlıqları tapılmışdır. Bunun səbəbi həmin dövrdə metallurgiya və metalişləmənin inkişaf etməsi ilə əlaqədar sümük alətlərdən az istifadə olunmasıdır.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən tapılmış sümük iy başlıqları əsasən heyvanın lülə sümüyündən hazırlanmışdır. Onu düzəldərkən heyvanın sümüyü iki hissəyə parçalanmış, ortasından ikitərəfli deşik açılmışdır. Gil və ya daş iy başlıqları isə diskşəkilli və ya dairəvi formada düzəldilmişdir. Onların bəziləri qırılmış gil qabların parçasından hazırlanmışdır (30, s. 37-50, tab. II, 6, tab. V, 8). Bütün iy başlıqlarının ortasında deşik açılmışdır (şəkil 16, 14-16).

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən tapılmış iy başlıqlarının bənzərlərinə Şamxorda (44, s. 152), Mingəçevirdə (106, tab. XLV, 1-3) və Cənubi Qafqazdakı digər arxeoloji abidələrdə təsadüf olunmuşdur (145, s. 13, şək. 20).

***Bülövlər.*** Bu əmək aləti daşdan düzəldilərək ozünəməxsus spesfik xüsusiyyəti ilə seçilmişdir (şəkil 16, 3). Onlardan əmək alətlərinin, silahların və digər əmək alətlərin itilənməsində, cilalanmasında istifadə olunmuşdur. Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid I Kültəpə (36, s. 93), Dəmyələr (18, s. 85) abidələrindən tapılmış bülövlərin hamısı formaca bir-biri ilə oxşarlıq təşki edir. Onlar düzbucaqlı və ya ellipisvari formada düzəldilmişdir. Əksəriyətinin bir tərəfindən deşik açılmışdır.

***Bıçaqlar.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən çox az miqdarda tunc bıçaq aşkar olunmuşdur (şəkil 16, 13, 20). Onlar II Boyəhməd (75, s. 35), Qızılburun (119, s. 64) nekropollarından tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin hər biri özünəməxsus spesfik xüsusiyyəti ilə fərqlənir.

Qızılburun nekropolundan tapılmış tunc bıçağın tiyəsi dəstəyinə qədər enli hazırlanmışdır. O güclü təbii aşınma nəticəsində korroziyaya məruz qaldığından yaxşı saxlanılmamışdır (şəkil 16, 20).

Boyəhməd nekropolundan əldə olunmuş tunc biçaq Qızılburun abidəsindən tapılmış bıçaq kimi yastı tiyəli düzəldilsə də ozünəməxsus xüsusiyyəti ilə seçilir. Onun yastı tiyəsi ortadan ucuna döğru bir qədər əyri düzəldilərək dəyirmiləşmişdir. Qısa saplağı ucuna doğru ensizləşmişdir (şəkil 16, 13). Əldə olunmuş hər iki tip maddi-mədəniyyət nümunələrinin analoquna Mingəçevir (106, şəkil 63), Gəncəçay (76, s. 91), Gədəbəy (44, s. 92-93), Qarabağ (30, tab. 49, 8), Daşkəsən (137, tab. 13, 15) və b. abidələrində təsadüf olunmuşdur.

***Maşalar.*** Naxçıvandakı Haqqıxlıq (73, s. 60), Dəmyələr (18, s. 88, şəkil 3, 5) abidələrindən tapılmış Son Tunc-Erkən Dəmir dövrünə aid bu əmək alətlərinin hər ikisi (şəkil 16, 11,12) Iqdir yaxınlığından, Trialettidən (147, s. 69-70), Mingəçevirdən (44, s. 88), Hacıvəllər nekropolundan (71, tab. III, 8) və digər abidələrdən tapılmış maşalar kimi nazik tunc təbəqəni döymə üsulu ilə düzəldilmişdir.

Əmək alətlərinin tədqiqi onu göstərir ki, Son Tunc-Erkən Dəmir dövründə köçmə və yarımköçəri maldarlıqla məşğul olan əhali sənətkarlıqla yanaşı olaraq əkinçiliklə də məşğul olmuş, əkinçilik məhsüllarını özləri emal etmişlər.

## *2.2. Keramika məmulatı*

Keramika məmulatı qədim əkinçi-maldar tayfaların məişətini, təsərrüfat həyatını, qonşu tayfalarla olan iqtisadi-mədəni əlaqələri öyrənmək üçün əsas arxeoloji materiallardan biridir. Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş keramika məmulatları boz və çəhrayı rəngli olmaqla iki qrupa bölünür. Onlar bir qayda olaraq narın və ya iri qum qarışığı olan gildən hazırlanmışdır. Boz rəngli keramikalar əsasən sadə, çəhrayı rənglilərin bir qrupu boyalı düzəldilmişdir.

***Boz rəngli keramika.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən tapılmış boz rəngli keramikaların əksəriyyəti küpə, kasa, çölmək, qədəh, vaza, nehrə və b. tipli qablardan ibarətdir.

***Küpələr.*** Bu məişət və təsərrüfat avadanlığı iri, orta və kiçik həcmlidir. Qabların əksəriyyəti qulpsuz, bir qrupu isə qulpludur. Onlar forma və xüsusiyyətlərinə görə bir-birindən fərqlənərək üç əsas tipə bölünür:

Birinci tipə xaricə qatlanmış ağız kənarlı, qısa boğazlı, qabarıq gövdəli küpələr daxildir (şəkil 17, 1-5). Onlar Kolanı, Sarıdərə (73, s. 65, 42-45; 12, s. 26, 41), Dəmyələr (18, s. 84-93; 46, s. 103-108), Boyəhməd (75, s. 15-33; 13, s. 48) və digər abidələrindən tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin əksəriyyəti sadə düzəldilmiş, heç bir ornamentlə naxışlanmamışdır. Bir qrupunun üzəri cızma, çərtmə xətlərlə, müxtəlif həndəsi ornamentlərlə bəzədilmişdir. Bu tipə daxil olan Kolanı, Sarıdərə küpələrindən bir qismi ornamentlərinə görə bir-biri ilə oxşarlıq təşkil edir. Onların üzəri düz və dalğalı xətlərlə naxışlanmışdır.

Sarıdərə nekropolundan əldə olunmuş üzəri cızma xətlərlə naxışlanmış küpələrdən bir qrupu Kolanı abidəsindən tapılan küpələrdən biri ilə nisbətən oxşarlıq təşkil edir (şəkil

17, 2, 4). Qabarıq gövdəli, qısa boğazlı, xaricə qatlanmış ağız kənarlı Sarıdərə küpələrindən biri Kolanı küpələrindən fərqlənir. Onun üzərindəki bir cərgə dalğalı xətt aşağıdan və yuxarıdan üfüqi xətlərlə məhdudlanmışdır (şəkil 17, 3). Kolanı nekropolundan tapılmış küpənin üzərindəki dalğalı xətlərdən ibarət naxış bir neçə cərgə olub səliqəsiz çəkilmişdir (şəkil 17, 1).

Boyəhməd nekropolundan əldə olunmuş xaricə qatlanmış ağız kənarlı, qısa boğazlı, qabarıq gövdəli küpələrin üzəri Şahtaxtı abidəsindəki bir qrup küpələr kimi düz və bucaq şəkilli xətlərlə səliqəsiz naxışlansmışdır (şəkil 16, 5).

İkinci tipə xaricə qatlanmış ağız kənarlı, silindir boğazlı, kürə gövdəli küpələr daxildir (şəkil 17, 6-8). Onlar Kolanı, Sarıdərə (73, s. 65, 42-45; 13, s. 26, 41), Zeyvə (74, s. 163), İlikliqaya (21, s. 121) və b. abidələrindən tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin əksəriyyəti qulplu, bəziləri qulpsuz düzəldilmişdir.

Kolanı nekropolundan əldə olunmuş bu tip küpələrdən biri formaca digərlərindən fərqlənir (şəkil 17, 7). Erkən Dəmir dövrü üçün xarakterik olan bu qabın oxşarları Şahtaxı (13, s. 14-15), Culfa (33, s. 72-86; 13, s. 12-13), Qızılburun abidələrində əldə olunmuşdur.

Zeyvə nekropolundan tapılmış xaricə qatlanmış ağız kənarlı, silindir boğazlı, kürə gövdəli küpələrdən biri qulpludur (şəkil 17, 8). Onun üzərindəki qulp Culfa (13, s. 13), Gədəbəy (123, s. 65-66) abidələrindən tapılmış küpələr kimi çıxıntılı düzəldilmişdir.

Üçüncü tip kupələr xaricə qatlanmış ağız kənarlı, bikonik gövdəli hazırlanmışdır (şəkil 17, 9-11). Onlar Kolanı, Sarıdərə (73, s. 65, 42-45; 13, s. 26, 41), Dəmyələr (18, s. 84-93; 46, s. 103-108) və b. abidələrindən tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələri digər küpələr kimi naxışsız və naxışlı olmaqla iki qrupa bölünür. Onların bir qrupu Kolanı, Sarıdərə abidələrindən aşkar olunmuş birinci tip

küpələr kimi cızma, çərtmə xətlərlə naxışlanmışdır (şəkil 17, 11). Bir qismi isə qabartmalarla bəzədilmişdir (şəkil 17, 10).

Əldə olunmuş bütün tip küpələrin bənzərlərinə Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrlə yanaşı olaraq, Azərbaycanın digər abidələrində, o cümlədən Xocalıda (144, s. 375), Xanlarda (76, s. 102), Xaçbulaqda (3, s. 85), Gədəbəydə (44, s. 68) və başqa abidələrdə təsadüf edilmişdir.

***Kasalar.*** Bu qablar forma və xüsusiyyətlərinə görə bir-birindən fərqlənərək üç əsas tipə bölünür:

Birinci tipə bikonik gövdəli kasalar daxildir (şəkil 18,1-10). Onlar Haqqıxlıq, Sarıdərə, Kolanı, Qalacıq (73, s. 57, 43-44, 65; 13, s. 25, 39, 16), Boyəhməd (75, s. 15) və başqa abidələrdən tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən bir çoxunun ağzının kənarı xaricə qatlanmış, bəziləri isə düz ağızlı hazırlanmışdır. Onlar sadə, naxışlı və qulpsuzdur. Bəzilərinin üzərində qulp əvəzinə deşikli qulaqcıqşəkilli çıxıntı qoyulmuşdur (şəkil 18, 2, 6).

Kasalar naxışlarına görə bir-birindən fərqlənir. Kolanı, Boyəhməd, Sarıdərə və digər abidələrdən tapılmış qulpsuz bikonik gövdəli kasaların bir qisminin ağzının altı ilə çiyninin arası batıq zolaqlarla əhatələnərək naxışlanma motivlərinə görə bir-birinə bənzəyir (şəkil 18, 8, 9, 10).

Kolanı nekropolundan əldə olunmuş üzəri üfüqi batıq zolaqlarla naxışlanmış kasalardan bəziləri (şəkil 18, 1, 4, 5) naxışlanma motivinə görə Sarıdərə nekropolundakı bir qrup kasalarla oxşarlıq təşkil etməsinə baxmayaraq, bəzi xüsusiyyətlərinə görə onlardan fərqlənir. Kolanı nekropolundan əldə olunmuş üzəri dalğalı xətlə naxışlanmış kasa (şəkil 18, 1) naxışlanma motivinə görə oradan və Sarıdərə nekropolundan tapılmış boz rəngli küpələrin bəzilərinin üzərindəki ornamentlərlə oxşardır.

İkinci tip kasalar qabarıq gövdəli hazırlanmışdır (şəkil 18, 11-17). Bu tip kasalar Naxçıvandakı Son Tunc-Erkən

Dəmir dövrü abidələrində geniş yayılmışdır. Onlar Boyəhməd (75, s. 15), Kolanı, Sarıdərə, Qalacıq, Haqqıxlıq (73, s. 57, 43-44, 65; 13, s. 25, 39. 16), Yurdçu (74, s. 51; 38, s. 87-90), İlikliqaya (20, s. 121), Dəmyələr (18, s. 84-93) və digər abidələrdə aşkar edilmişdir. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin bir qisminin ağız kənarları azca içəri qatlanmışdir. Bəziləri xaricə qatlanmış ağız kənarlı düzəldilmişdir. Xaricə qatlanmış ağız kənarlı kasaların bir qisminin ağzının altı batıq zolaqlarla əhatə olunmuşdur. Düz ağız kənarlı kasalardan bəzilərinində onların ağzının altında bikonik gövdəli kasalar və bir qrup çölməklər kimi qulaqcıqşəkilli çıxıntı olmuşdur (şəkil 18, 14). Bəzilərinin yarımdairəvi qulpu vardır (şəkil 18, 13).

Kolanı, Boyəhməd, Sarıdərə nekropollarından əldə olunmuş üzəri cızma naxışlı kasalardan bir qismi xüsusi ilə diqqəti cəlb edir. Bu abidələrdən əldə olunmuş üzəri dalğalı xətlə naxışlanmış kasalar ornamentlərinə görə bir-biri ilə oxşarlıq təşkil etsə də, onlardan hər birinin özünəməxsus spesfik xüsusiyyətlər daşıyır.

Sarıdərə kasasının üzərindəki dalğalı xətlər (şəkil 18, 15) çəkilmə üsuluna görə Kolanı nekropolundan tapılmış kasa ilə oxşarlıq təşkil etsə də onların arasında bəzi fərqli cəhətlər var.

Kolanı nekropolundan əldə olunmuş üzəri dalğalı xətlə naxışlanmış kasalardan biri tamamilə fərqli xüsusiyyətə malikdir (şəkil 18, 3). Oradan əldə olunmuş ikinci kasa isə Sarıdərə kasaları ilə oxşardır (şəkil 18, 11). Onlar arasında əsas oxşarlıq ondan ibarətdir ki, hər iki qabın üzərindəki dalğalı xətt çəkilmə üsuluna görə eyni olmuş, yuxarıdan və aşağıdan cızma xətlə məhdudlanmışdır.

Bu kasalar arasında fərqli xüsusiyyət ondan ibarətdir ki, Kolanı nekroplundan əldə olunmuş kasanın üzəri bir dalğalı xətlə naxışlanmış, Sarıdərə kasasının üzərinə isə üç dalğalı xətt

çəkilmişdir. Dalğalı xətlərdən biri nisbətən böyük, digər ikisi isə kiçik olmuşdur.

Haqqıxlıq nekropolundan əldə olunmuş kasalardan birinin üzərinə bir-birinin içərisində yerləşdirilmiş bucaqlar çəkilmişdir (şəkil 18, 16). Digər kasa konnelyur ornamentli olmuşdur (şəkil 18, 17). Üzəri bucaqlarla naxışlanmış kasa ornamentlərinə görə Naxçıvan, Qızılburun, Şahtaxtı abidələrindən tapılmış boyalı kasalarla nisbətən oxşarlıq təşkil etsə də, bəzi xüsusiyyətlərinə görə onlardan fərqlənmişdir. Nekropoldan əldə olunmuş konnelyur ornmentli kasanın analoquna İlikliqaya (20, s. 121), Zeyvə, Şahtaxt, Qalacıq (13. s. 15-17, 19), Xaçbulaq, Xanlar (57, s. 40; 3, s. 90), Daşkəsən (137, s. 150; 123, s. 74) və başqa abidələrdə təsadüf olunmuşdur.

Üçüncü tip kasalar konusvari gövdəlidir (şəkil 18, 18-31). Onlar Boyəhməd (74, s. 15), Kolanı, Sarıdərə, Haqqıxlıq, Qalacıq (73, s. 57, 43-44, 65; 13, s. 16, 25, 39), Aşağı Daşarx, Zeyvə (74, s. 77, 163; 13, s. 19) və b. abidələrindən tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin əksəriyyəti düz ağız kənarlıdır, bəzilərinin ağzı xaricə qatlanmışdır. Birinci və ikinci tip kasalar kimi üçüncü tipə daxil olan konusvari gövdəli kasalar da sadə və naxışlı olmaqla bir-birindən fərqlənir. Onların əksəriyyəti qulpsuzdur. Bəzilərinin ağzının kənarında qulp əvəzinə qulaqcıqşəkilli çıxıntı qoyulmuşdur (şəkil 18, 26, 29, 25). Həm sadə, həm də naxışlı kasalar arasında oxşar və fərqli əlamətlər vardır.

Sadə kasaların əksəriyyətnin ağzının kənarı gövdəsindən dərin batıqlarla ayrılmışdır. Onların bəzilərinin çiyin hissəsi xaricə doğru çıxıntılıdır (şəkil 18, 27, 30, 31).

Naxışlı kasaların üzərinə çızma xətlər, müxtəlif həndəsi ornamentlər çəkilmişdir. Onların bir qismi ornamentlərinə görə fərqlənir, bəziləri isə bir-biri ilə bənzərdir.

Şahtaxtı, Qalacıq, Zeyvə və digər abidələrdən tapılmış konnelyur ornamentli kasalar (13, s. 14, 16, 19) naxışlanma

motivinə görə həm bir-biri ilə, həm də digər aidələrdən əldə olunmuş kasalarla oxşardır (123, s. 53-55; 76, s. 99; 77, s. 38) (şəkil 18, 19, 20, 22, 23, 24, 29).

Boyəhməd (şəkil 18, 18) və Dəmyələr (şəkil 18, 28) nekropollarından əldə olunmuş üzəri dalğalı xətlə bəzədilmiş kasalar naxışlanma motivinə görə bir-biri ilə oxşarlıq təşkil etsə də, onların hər biri özünəməxsus xüsusiyyəti ilə fərqlənir. Boyəhməd kasasının üzəri nisbətən səliqəsiz, Dəmyələr kasası nisbətən səliqəli naxışlanmışdır. Dəmyələr nekropolundan əldə olunmuş kasanın üzərindəki dalğalı xətt Kolanı, Sarıdərə nekropolundan tapılmış qabarıq gövdəli kasalar kimi aşağıdan və yuxarıdan cızma xətlə məhdudlanmışdır.

Şahtaxtı nekropolundan əldə olunmuş üzəri cızma xətlə naxışlanmış konusvari gövdəli kasa naxışlanma motivinə görə Kolanı nekropolundakı bir qrup bikonik gövdəli kasalarla oxşarlıq təşkil edir (şəkil 18, 19). Oradan əldə olunmuş ağzının altı relyef kəmərlə əhatə olunmuş, üzəri çərtmə naxışlarla bəzədilmiş konusvari gövdəli, halqa dabanlı kasanın analoquna Qızılburunda və Culfada təsadüf edilmişdir (şəkil 18, 21).

***Çölməklər.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş keramika məmulatlarından bir qrupunu çölməklər təşkil edir. Onlar formaca iki əsas tipə bölünür:

Birinci tip çölməklər qabarıq gövdəli hazırlanmışdır (şəkil 19, 1-22). Onlar Boyəhməd (75, s. 15), Kolanı, Haqqıxlıq, Qarnıyarıq, Sarıdərə (73, s. 65, 57, 40, 43; 13, s. 26, 31, 34, 39), Dəmyələr (18, s. 84-93), İlikliqaya (21, s. 121) və başqa abidələrdən tapılımışdır. Əldə olunmuş çölməklərin əksəriyyəti xaricə qatlanmış ağız kənarlıdır. Bəzilərinin ağzı azca içəri qatlanmışdır (şəkil 19, 2, 14). Bu tipə daxil olan çölməklərin bir çoxu qulpsuz, bəziləri qulpludur. Onların qulpları yarımdairəvi şəkildə (şəkil 19, 22) və ya deşikli qulaqcıqşəkilli çıxıntı formasında düzəldilmişdir (şəkil 19, 2, 5, 14). Çolməklərdən bir qrupu sadə (şəkil 19, 14, 21), bəziləri isə

naxışlıdır (şəkil 19, 1-13, 15-20, 22). Naxışlı çölməklərin həm oxşar, həm də fərqli cəhətləri vardır. Onların naxışlanmasında çərtmələrdən (şəkil19, 4-6, 10, 11, 15, 18), cızma (şəkil 19, 3, 7), dalğalı (şəkil 19, 17, 20, 9) xətlərdən, dördbucaqlı formalı batıqlardan (şəkil 19, 16), basma ornamentlərdən (şəkil 19, 22) və torlu bucaqlardan (şəkil 19, 8) istifadə olunmuşdur.

Boyəhməd, Sarıdərə, Kolanı nekropollarından əldə olunmuş qabarıq gövdəli çölməklər qulaqcıqşəkilli çıxıntılarına görə bir-biri ilə oxşarlıq təşkil etsə də naxışlanma motivinə görə fərqlənirlər. Sarıdərə nekropolundan əldə olunmuş çölmək sadə olmuş (şəkil 19, 14), Boyəhməd nekropolundan tapılmış çölməyin üzəri isə cızma xətlə səliqəsiz naxışlanmışdır (şəkil 19, 2).

Kolanı, Qarnıyarıq, Haqqıxlıq, Sarıdərə abidələrindən əldə olunmuş üzəri çərtmə ornamentlərlə bəzədilmiş çölməklərin bir qrupu naxışlanma metoduna görə, bir-biri ilə oxşarlıq təşkil etsə də onlardan hər biri özünəməxsus xüsusiyyətləri ilə seçilmişdir (şəkil 19, 4, 5, 11, 12, 18).

Qarnıyarıq, Haqqıxlıq çölməklərindən bəziləri ornamentlərinə görə bir-biri ilə tamamilə oxşarlıq təşkil edir (şəkil 19, 6, 10).

Haqqıxlıq, Sarıdərə nekropollarından əldə olunmuş bəzi çölməklərin üzərində çərtmə naxışlar cızma xətlə iki yerə ayrılmışdır (şəkil 19, 11, 15, 18).

Kolanı nekropolundakı qabarıq gövdəli, qulaqcıqşəkilli çxıntılı çölməyin üzərindəki çərtmə naxışlar kəmərvari formada çəkilərək naxışlanma motivinə görə həmin abidədən tapılmış bikonik gövdəli çölməklə oxşarlıq təşkil edir (şəkil 19, 5).

Boyəhməd nekropolundan tapılan üzəri cızma xətlə naxışlanmış çölməyin bənzərlərinə Qarnıyarıq, Kolanı (73, s. 10, 65), Şahtaxtı (13, s. 15) və digər abidələrdə təsadüf edilmişdir (şəkil 19, 3).

Haqqıxlıq, Sarıdərə, Dəmyələr nekrollarından əldə olunmuş üzəri dalğalı xətlə naxışlanmış çölməklər ornamentlərinə

görə bir-biri ilə oxşarlıq təşkil etsə də, bəzi xüsusiyyətlərinə görə fərqlənir (şəkil 19, 9, 17, 20).

Haqqıxlıq nekropolundan tapılmış çölməyin üzərindəki dalğalı xətt dörd cərgə üfiqi xətlə birlikdə verilmişdir.

Dəmylər nekropolundakı çölməyin üzərindəki dalğalı xətt aşağıdan və yuxarıdan cızma xətlə məhdudlanmışdır.

Naxçıvanın Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrindən əldə olunmuş qabarıq gövdəli çölməklərin bənzərlərinə Xaçbulaq, Xanlar, Daşkəsən (123, s. 53-55; 74, s. 101), Sarıtəpə (77, s. 37-40) və b. abidələrində təsadüf edilmişdir.

İkinci tip çölməklər bikonik gövdəli düzəldilib (şəkil 19, 23-31). Onlar Boyəhməd (75, s. 17; 13, s. 47), Kolanı, Haqqıxlıq, Sarıdərə (73, s. 65, 57, 44; 13, s. 26, 32, 40), İlikliqaya (21, s. 121) və başqa abidələrdən tapılmışdır. Qabarıq gövdəli çölməklər kimi, onların da bəzisi əsasən qulpsuz, bir qrupu isə qulplu düzəldilmişdir. Onların qulaqcıq şəklində olan qulplarının üzərində kiçik deşik qoyulmuşdur (şəkil 19, 26). Bəzilərinin qulpları nisbətən cıxıntılı hazırlanmışdır (şəkil 19, 27). Qabarıq gövdəli çölməklər kimi onlar da, sadə (şəkil 19, 27, 29) və naxışlı (şəkil 19, 23-26, 28, 30, 31) olmaqla bir-birindən fərqlənir. Onların naxışlanmasında cızma (şəkil 19, 23, 28, 30), çərtmə (şəkil 19, 24, 25) və basma (şəkil 19, 31) ornamentlərdən istifadə olunmuşdur. Ornamentlərin bəziləri bir-biri ilə oxşarlıq təşkil edir, bir qrupu isə fərqlənir.

Sarıdərə nekropolundan əldə olunmuş çölməyin üzərindəki bir-birinin içərisində yerləşdirilmiş bucaqlar (şəkil 19, 30) naxışlanma motivinə görə Boyəhməd, Qızılburun, Şortəpə, Şahtaxtı və digər abidələrdən əldə olunmuş qablarla oxşarlı təşkil edir. Sarıdərədən əldə olunmuş üzəri çızma xətlə naxışlanmış çölməyin bənzərlərinə Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrin çoxunda təsadüf edilmişdir. Sarıdərə nekropolundan tapılmış üzəri konnelyur ornamentli çölmək (13, s. 26) naxışlanma motinə

görə Naxçıvandakı Şahtaxtı, Zeyvə, Qalacıq və başqa abidələrin materialları ilə oxşarlıq təşkil edir (13, s. 14, 16, 19). Oradan əldə olunmuş bu tip qabların dairə şəkilli möhür formalı naxışlıları Xanlar, Gəncə kurqanlarından (123, s. 55, 68), Qarabulaq (56, s. 45), Xaçbulaq (3, s. 90) nekropollarındakı daş qutu qəbirlərdən əldə olunmuş keramika məmulatları ilə oxşarlıq təşkil edir.

Kolanı nekropolundan taplmış üzəri kəmərvari çərtmə ornamenlərlə bəzədilmiş bikonik gövdəli çölmək (şəkil 19, 25) naxışlanma motivinə görə həmin abidədən əldə olunmuş qabarıq gövdəli çölməklə daha çox oxşarlıq təşkil edir (şəkil 19, 24).

İlikliqaya nekropolundan əldə olunmuş çölməyin üzəri Dəmyələr abidəsindən tapılmış qabarıq gövdəli çölmək kimi (şəkil 19, 22) basma üsulla naxışlansa da, ornamentlərinin motivinə görə ondan fərqlənir. Iikliqaya nekropolundakı çölməyin üzəri Dəmyələr nekropolundan əldə olunmuş çölməkdən fərqli olaraq üçbücaq formalı basma ornamentlə bəzədilmişdir (şəkil 19, 31).

***Qədəhlər.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş gil qabların bir qrupunu qədəhlər təşkil edir. Onlar gövdəsinin, ağız kənarının formasına və başqa xüsusiyyətlərinə görə bir-birindən fərqlənərək iki əsas tipə bölünür:

Birinci tip qədəhlər qabarıq gövdəli, yastı oturacaqlıdır. Onlar Boyəhməd (75, s. 17; 13, s. 47), Kolanı (73, s. 65; 13, s. 26), Dəmyələr (18, s. 84-93) Mərdangöl, Muncuqlutəpə (109, tab. XLVI, 4; LXXII, 6, 7) və b. abidələrindən tapılmışdır (şəkil 20, 1, 2, 3). Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən bir çoxunun ağzının kənarı xaricə qatlanmış, bəziləri isə düz ağız kənarlı hazırlanmışdır (şəkil 20, 2). Əksəriyyəti sadə, bir qismi isə naxışlıdır. Onların çoxu qulpludur. Qulplar kəsikdə dairəvi formalıdır. Əldə olunmuş qədəhlər formaca bir-biri ilə

oxşarlıq təşkil etsə də hər bir qabın özünəməxsus xüsusiyyəti olmuşdur.

Boyəhməd nekropolundan tapılmış bu tipə daxil olan qədəhin üzərindəki qulp (şəkil 20, 1) Kolanı, Culfa nekropollarından əldə olunmuş bikonik gövdəli qədəhlərdən bəziləri kimi çıxıntılı düzəldilmişdir (şəkil 20, 5, 7, 12). Üzəri Sarıdərə, Culfa, Dəmyələr qədəhləri kimi cızma xətlə naxışlanmışdır (şəkil 20, 3, 9, 13). Dəmyələr nekropolundan əldə olunmuş qabarıq gövdəli qədəhlərdən fərqli olaraq Kolanı, Culfa qədəhləri kimi naxış onun ağzının kənarına çəkilmişdir.

İkinci tip qədəhlər bikonik gövdəli, yastı oturacaqlı düzəldilibdir. Onlar Boyəhməd (75, s. 17; 13, s. 47), Kolanı, Sarıdərə, Haqqıxlıq (73, s. 65, 57, 44; 13, s. 26, 32, 40), Culfa (13, s. 31; 33, s. 72-86), Şahtaxtı (10, s. 65; 96, tab. XI, tab. VIII; 13, s. 15), Qızılburundan (36, s. 74) tapılmışdır. Bu tip qədəhlərin ağız kənarları düz (şəkil 20, 4, 6, 11-14) və ya xaricə qatlanmış (şəkil 20, 7-10) formadadır. Bəzilərinin ağzı azca içəri qatlanmışdır (şəkil 20, 5). Düz ağız kənarlı qədəhlərdən bir qisminin boğazı silindirik-konusvari formada düzəldilmişdir (şəkil 20, 4, 6).

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş bikonik gövdəli qədəhlər də qabarıq gövdəlilər kimi qulplu və qulpsuz olmaqla bir-birindən fərqlənirlər. Onların bir qrupunun üzərində en kəsiyi dairəvi olan sadə qulpu vardır (şəkil 20, 4, 6, 9, 11, 13). Bəzilərinin qulpları Boyəhməd nekropolundan əldə olunmuş qabarıq gövdəli qədəh kimi qolçuqlu düzəldilmişdir (şəkil 20, 5, 7, 8, 12). Qabarıq gövdəli qədəhlər kimi bikonik gövdəlilər də, əsasən sadə olmuşdur. Bəzilərinin üzəri çzma xətlərlə naxışlanmışdır. Onların üzərindəki ornamentlər arasında həm fərqli, həm də oxşar əlamətlər vardır.

Sarıdərə nekropolundan tapılmış qədəhlərdən birinin üzəri cızma, dalğalı xətlərdən ibarət mürəkkəb kompozisiya ilə naxışlanmışdır (şəkil 20, 10). Onun üzərindəki bucaqvari

ornament Şahtaxtı nekropolundan əldə olunmuş çölməklərdən birinin üzərindəki naxışla (şəkil 19, 30) oxşarlıq təşkil edir. Sarıdərədən tapılmış üzəri basma üsulla oval formalı batıqlarla naxışlanmış qədəh isə üzünəməxsus spesfik xüsusiyyəti ilə fərqlənir (şəkil 20, 9).

Culfa nekropolundan əldə olunmuş ağzının kənarı cızma xətlə naxışlanmış qədəh (şəkil 20, 13) ornamentlərinə görə Boyəhməd qədəhi (şəkil 22, 1), Kolanı, Sarıdərə kasaları (şəkil 18, 1-5, 7), Qarnıyarıq çölməyi ilə (şəkil 19, 28) oxşarlıq təşkil edir.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan hər iki tip qədəhlərin bənzərləri Xuvrin, Təpə Sialk, Çandar, Göytəpə, Həsənli və başqa arxeoloji abidələrdə aşkar edilmişdir (13, s. 40).

*Vazalar.* Bu qablar hündür və qısa ayaqlı olmasına, gövdəsinin formasına görə bir-birindən fərqlənərək iki əsas tipə bölünür:

Birinci tipə tək ayaqlı, bikonik gövdəli vazalar daxildir. Onlar Şahtaxtı (10, s. 64; 89, s. 156), Qızılburun (36, s. 74) abidələrindən tapılmışdır (şəkil 21, 1-4, 6, 8). Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən bir qrupu hündür, bir qismi qısa boylu düzəldilmişdir. Qısa boylu vazaların ağzının kənarında deşikli qulaqcıqşəkilli çıxıntı qoyulmuşdur. Bu tipə daxil olan vazaların bir qrupu naxışsız, bəziləri isə naxışlı düzəldilmişdir. Naxışlı vazaların bəzilərinin ağzının kənarında cızma xətlər çəkilmişdir. Bir qrup vazalar isə fərqli motivdə şuaşəkilli batıqlarla, çızma xətlərlə və müxtəlif həndəsi ornamentlərlə naxışlanmışdır.

II Şahtaxtı nekropolundan əldə olunmuş üzəri batıq xətlərlə naxışlanmış bu tip vazalardan biri (şəkil 21, 3) ornamentlərinə görə Şahtaxtı, Qalacıq, Zeyvə və b. abidələrindən tapılmış üzəri cızma xətlərlə naxışlanmış, konnelyur ornamentli kasalarla (13, s. 14, 16, 19) oxşarlıq təşkil edir.

İkinci tip vazalar qabarıq gövdəli, üçayaqlı düzəldilmişdir (şəkil 21, 7, 9, 10). Onlar Qızılburun (36, s. 74), Naxçıvan (35, s. 9), İlikliqaya (21, s. 121; 48, s. 94-98), Mərdangöl (4, s. 69-72), Muncuqlutəpə (109, tab. XVIII, 6; tab. LXI, 2) nekrpollarından tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən bir qisminin ayaqları Mingəçevirdən (106, tab. XLIII, 6, 9) və Azərbaycanın digər bölgələrindəki arxeoloji abidələrdən tapılmış vazalarda olduğu kimi, çubuq şəklində düz düzəldilmişdir (şəkil 21, 7, 9). Bəzilərinin ayağı (şəkil 21, 5) Culfa nekropolundan əldə olunmuş boyalı vaza kimi (33, s. 78) dizdən bükülən insan qıçını xatırlatmışdır (şəkil 21, 9, 10). Bu tipə daxil olan vazaların hamısı naxışsızdır.

*Nehrələr.* Bu qablar küpə, kasa, çölmək tipli qablarla müqayisədə nisbətən azlıq təşkil edir. Onlar I Kültəpə, II Kültəpə, Qalacıq, Şahtaxtı (10, s. 63; 111, s. 97; 96, tab. XXXII, 5) və digər abidələrdən aşkar edilmişdir (şəkil 22). Onlar bir qayda olaraq üzunsov, simmetrik gövdəli, qısa boğazlı, yastı oturacaqlıdır. Əksriyyəti qulpsuzdur. Bəzilərinin üzərində kəsikdə yarımdairəvi olan qulp və ya göbələkşəkilli çıxıntı vardır (şəkil 22, 10). Bir qismi sadə, bəziləri isə naxışlıdır. Onların üzərindəki naxışlar ornamentlərinə görə bir-biri ilə oxşarlıq təşkil etsə də, digər keramika məmulatları kimi bunların da hər birinin özünəməxsus spesfik xüsusiyyətləri vardır.

I Kültəpə abidəsindən tapılmış nehrələr forma və xüsusiyyətləinə görə II Kültəpə nehrələri ilə oxşarlıq təşkil edir (şəkil 22, 1, 2).

Şahtaxtı Govurqalasından əldə olunmuş nehrənin üzərindəki ornament (şəkil 22, 3) Qalacıq nehrəsi ilə oxşarlıq təşkil etsə də, bəzi xüsusiyyətlərinə görə ondan fərqlənir.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş nehrələrin oxşarları Mingəçevirdə (106, tab. XXXII, 1-3, tab. XXXIV, 10),

Qobustanda (66, s. 46; 158, s. 80-81) və digər arxeoloji abidələrdə aşkar edilmişdir.

***Çəhrayı rəngli keramikalar.*** Çəhrayı rəngli keramika məmulatlarının içərisində küpə, kasa, çölmək, çaynik və b. tipli qablar üstünlük təşkil edir.

***Küpələr.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş çəhrayı rəngli küpələr üç əsas tipə bölünür:

Birinci tipə xaricə qatlanmış ağız kənarlı, silindrik boğazlı, qabarıq gövdəli küpələr daxildir (şəkil 23, 1-6). Onlar I Kültəpə, Qızılburun, Naxçıvan, Culfa nekropolundan (96, s.18, 182; 36, s. 64, 76-79; 16, s. 139), II Kültəpə yaşayış yerindən (32, s. 69-73) tapılmışdır. Bu abidələrdən əldə olunmuş birinci tipə daxil olan boyalı küpələrin naxışlanmasında əsasən torlu üçbucaqlardan və bucaqlardan istifadə olunsa da, hər bir qab öxünəməxsus spesfik xüsusiyyəti ilə seçilir. Onların üzərinə naxışların bir qismi səliqəli, bəziləri nisbətən səliqəsiz çəkilmişdir.

Qızılburun nekropolundan əldə olunmuş qırmızı rəngli küpələrdən birinin üzəri bir-birinin içərisində yerləşdirilmiş bucaqlarla naxışlanaraq Culfa, Naxçıvan, Şortəpə küpələrinin bir qrupu kimi, yuxarıdan və aşağıdan enli üfüqi xətlər arasına alınmışdır (şəkil 23, 5).

Naxçıvan nekropolundan tapılmış küpələrin üzərindəki Erkən Dəmir dövrü üçün xarakterik olan torlu üçbucaqlar, bucaqlar, şüaşəkilli ornamentlər bir qədər səliqəsiz şəkildə svastika formasında təsvir edilərək Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələrdən əldə olunmuş xəncərlərin, gil qabların üzərindəki bir qrup rəsmlərlə oxşarlıq təşkil edir. Onlar kimi qədim əkinçi-maldar tayfaların dini-ideoloji görüşləri ilə bağlı müəyyən kompozisiyanı bildirir (123, s. 85, 87) (şəkil 23, 3, 4).

İkinci tip küpələr düz ağız kənarlı, silindirik boğazlı, qabarıq gövdəlidir (şəkil 23, 7-9). Onlara Qızılburun, Culfa,

Şahtaxtı (16, s. 139; 92, s. 30; 10, s. 63) I Kültəpə (96, s. 18) və b. abidələrində təsadüf edilmişdir. Bu tipə daxil edilən küpələr ağız kənarının qurluşuna görə biri-biri ilə oxşarlıq təşkil etsə də, bəzi xüsusiyyətlərinə görə fərqlənirlər. Onların bir qrupunun boğazı qısa (şəkil 23, 7, 8), bəzilərininki isə uzundur (şəkil 23, 9). Qısa boğazlı küpələrin gövdəsi əsasən qabarıq, uzun boğazlı küpələrin gövdəsi kürə formasında düzəldilmişdir.

Uzunboğaz küpələrin boğazları nisbətən dar olmuşdur. Onların əksəriyyəti qulpsuz, bəziləri qulplu hazırlanmışdır (şəkil 23, 9). Bu tipə daxil olan küpələrin naxışlanmasında torlu üçbucaqlardan, bucaqlardan istifadə olunmuşdur. Onların bir qrupu naxışlanma motivinə görə bir-biri ilə oxşarlıq təşkil edir, bəziləri isə fərqlənir.

Culfa nekropolundan əldə olunmuş düz ağız kənarlı, silindirik boğazlı, qabarıq gövdəli küpələrdən biri bu baxımdan diqqətcəkicidir. Onun üzərində qulp əvəzinə deşikli qulaqcıqşəkilli çıxıntı qoyulmuşdur. Xarici səthi narıncı fonda qırmızı rəngli enli xətlərlə naxışlanmışdır. Naxışlanma motivinə görə həmin abidədən əldə olunmuş çölməklərdən bəzilərinin üzərindəki ornamentlərə oxşarlıq təşkil edir (şəkil 23, 8).

Üçüncü tip küpələr xaricə qatlanmış ağız kənarlı, bikonik gövdəlidir. Onlar Şahtaxtı, Qızılburun, Şortəpə (16, s. 139; 95, s. 32; 36, s. 64, 76), I Kültəpə (96, s. 18), II Kültəpə (32, s. 69-73) və b. abidələrindən tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin əksəriyyətinin gövdəsi narıncı rənglə boyanaraq qara rəngli qoşa xətlər arasına alınmış torlu üçbucaqlarla naxışlanmışdır. Onların bir qrupunda naxışlar yalnız qara rənglə, bəzilərində isə qara və qırmızı rənglərlə çəkilmişdir. Naxışların bir qrupu səliqəli, bəziləri isə səliqəsizdir.

Qızılburun nekropolundan əldə olunmuş bu tip küpələrdən birinin üzərində torlu üçbucaqlar qıvrılmış ilan rəsmləri ilə birlikdə verilərək kompozisiya baxımından Govurqaladan (36, s. 64), Sarıtəpədən (77, s. 38; 178, s. 69) və Cənubi Qafqazdakı

digər abidələrdən (147, s. 38) əldə olunmuş boyalı küpələrlə oxşarlıq təşkil edərək insanların dini-ideoloji görüşləri ilə bağlı müəyyən fikri ifadə etmişdir.

Şahtaxtı nekropolundan əldə olunmuş xaricə qatlanmış ağız kənarlı, bikonik gövdəli səliqəsiz naxışlanmış küpələrdən biri sarı fon üzərindən qara və qırmızı rəngli bucaqlarla, torlu üçbucaqlarla bəzədilərək naxışlanma motivinə, ornamentlərinə görə Qızılburun, Şortəpə küpələri ilə oxşarlıq təşkil edir. Lakin bəzi xüsusiyyətlərinə görə onlardan fərqlənir. Onun üzərindəki bucaqlar, torlu üçbucaqlar Qızılburun, Şortəpə küpələrindən fərqli olaraq yalnız yuxarıdan qara rəngli xətlə məhdudlanmışdır (şəkil 23, 13).

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən forma verən küpələrlə yanaşı, xeyli miqdarda forma verməyən küpə qırıqları da əldə olunmuşdur. Onların içərisində II Kültəpə abidəsindən tapılmış üzərində heyvan və insan rəsmi çəkilmiş küpə qırıqları daha çox marağa səbəb olmuşdur (96, tab. XXVIII, 7; 36, s. 66; 32, s. 70). Bu keramikalar Şahtaxtı (95, s. 28), Nəhəcir (75, s. 80) abidələrindən əldə olunmuş boyalı küpələr kimi əkinçi-maldar tayfalarla bilavasitə bağlılıq təşkil edərək onların maddi və mənəvi mədəniyyətini öyrənmək sahəsində mühüm əhəmiyyət daşıyır.

***Kasalar.*** Bu qablar gövdəsinin və ağız kənarının qurluşuna görə bir-birindən fərqlənərək üç əsas tipə bölünür:

Birinci tipə qabarıq gövdəli, xaricə qatlanmış ağız kənarlı kasalar daxildir (şəkil 24, 1, 2, 3). Onlar Şahtaxtı, I Kültəpə, II Kültəpə və b. abidələrindən tapılmışdır (16, s. 138; 36, s. 72, 81). Əldə olunmuş maddi-mədəniyyət nümunələri naxışlanma motivinə görə bir-birindən fərqlənir.

Şahtaxtı, II Kültəpə nekropollarından əldə olunmuş bu tip kasaların bir qrupunun üzəri qırmızı rənglə boyanaraq qara rənglə naxışlansa da onlar ornamentlərinə görə bir-birindən fərqlənirlər. Şahtaxtı nekropolundan əldə olunmuş kasanın

üzəri şüaşəkilli ornamentlə naxışlanmışdır (şəkil 24, 1). II Kültəpə abidəsindən əldə olunmuş kasaların üzərində torlu bucaqlar çəkilmişdir (şəkil 24, 2, 3). Bu abidədən əldə olunmuş üzəri torlu bucaqlarla naxışlanmış kasalardan bəziləri (şəkil 24, 3) Qızılburun, Naxçıvan, Şortəpə, Culfa, Şahtaxtı və digər abidələrdən tapılmış bir qrup küpələrin üzərindəki ornamentlərlə oxşarlıq təşkil edir (şəkil 23, 1-3, 6, 9, 10).

İkinci tip kasalar düz ağız kənarlı, xaricə qatlanmış ağız kənarlı, qabarıq gövdəli, ağzının kənarı iki yandan içəri batıq formada düzəldilmişdir. Onlar Cülfa, II Kültəpə, Qızılburun abidələrindən tapılmışdır (16, s. 137; 96, tab. XXIX, 5, 7; 36, s. 73). Bu qabların naxışlanmasında əsasən tolu üçbucaqlardan istifadə olunsa da, hər biri özünəməxsus ornamental xüsusiyyəti ilə fərqlənir (şəkil 28, 5, 6, 9). Culfa nekropolu və II Kültəpə yaşayış yerindən əldə olunmuş bu tipə daxil olan boyalı kasalar naxışlanma motivinə görə tamamilə fərqlənir (şəkil 24, 5, 6). II Kültəpə yaşayış yerindən aşkar olunmuş ağzının kənarı iki yandan içəri batıq olan, düz ağız kənarlı, qabarıq gövdəli kasanın üzərini əhatə edən torlu üçbucaqlar bütövlükdə səkkiz guşəli ulduz rəsminə bənzəyir (şəkil 24, 6).

Qızılburun nekropolundan əldə olunmuş kasanın üzəri sarı rənglə boyanaraq qoşa xətlər arasına alınmış, əsası aşağıya olan torlu üçbucaqlarla naxışlanmışdır. Bu qab ornamentlərinə görə həm oradan, həm də Naxçıvan, Şortəpə, Culfa, Şahtaxtı və digər abidələrdən tapılmış bir qrup küpələrlə oxşarlıq təşkil etməsinə baxmayaraq, bəzi xüsusiyyətlərinə görə onlardan fərqlənir (şəkil 23, 1-3, 6, 9, 10). Qızılburun kasasının uzərindəki tolu üçbucaqların əsası aşağıya çəkilmişdir. Naxçıvan, Şortəpə, Culfa, Şahtaxtı və b. abidələrindən tapılmış küpələrin üzərindəki torlu üçbucaqların əsası isə yuxarıya çevrilmişdir.

Üçüncü tip kasalar düz ağız kənarlı, konusvari gövdəlidir. Onlar II Kültəpə, Şahtaxtı, Qızılburun, Culfa abidələrindən tapılmışdır (16, s 138; 36, s. 70, 80). Digər keramika

məmulatları kimi, bu tipə daxil olan kasalar da gövdəsinin, ağız kənarının formasına görə bir-biri ilə oxşarlıq təşkil edir (şəkil 24, 4, 7, 8, 10-12). Əldə olunmuş kasaların bir qrupu qulpsuzdir. Bir qisminin ağzının kənarında deşikli qulaqcıqşəkilli çıxıntı düzəldilmişdir (şəkil 24, 4, 7, 8, 12). Onların üzəri sarı, ya da narıncı rənglə boyanaraq, qırmızı rəngli enli xətlə, bucaq və şüaşəkilli ornamentlərlə naxışlanmışdır. Naxışlar bütün qabların gövdəsini və oturacağını əhatə etmişdir. Bu tipə daxil olan kasaların naxışlanma motivində müəyyən oxşar və fərqli cəhətlər movcuddur.

Qızılburun, Şahtaxtı nekropollarından əldə olunmuş düz ağız kənarlı, konusvari gövdəli kasaların üzəri səliqəsiz naxışlanmışdır (şəkil 24, 4, 10, 11). Culfa nekropolundan aşkar bu tip kasalar naxışlanma motivinə görə bir-biri ilə oxşarlıq təşkil etsə də onlardan hər biri özünəməxsus xüsusiyyəti ilə seçilir (şəkil 24, 7, 8, 12). Nekropoldan əldə olunmuş bu tip kasalardan birinin oturacaq hissəsindəki ornament Gəmiqayadakı 258 №-li daşın üzərindəki təsvirlə (68, s. 221), Tel Mağzəliyyədən (160, s. 487), Mingəçevirdən (106, tab. XLI, 11) tapılmış keramikaların üstündəki ornamentlə oxşarlıq təşkil edərək Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrin Yaxın Şərq abidələri ilə bağlılığını öyrənmək sahəsində mühüm əhəmiyyət kəsb edir (şəkil 14, 3, 4).

***Çölməklər.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş çölməklər iki əsas tipə bölünür:

Birinci tip çölməklər qabarıq gövdəlidir. Onlar Qızılburun, Culfa, Şahtaxtı və b. abidələrindən tapılmışdır (16, s. 137, 138; 36, s. 70, 79). Əldə olunmuş çölməklərin ağzı düz, oturacağı yastıdır. Qabların əksəriyyəti qulpsuz, bəziləri qulpludur (şəkil 25, 3, 4, 6). Qulplu çölməklərin ağzı genişdir. Onların qulpu sadə ya da çıxıntılı formada düzəldilib. Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən hər biri özünəməxsus xüsusiyyətləri ilə fərqlənir.

Culfa nekropolundan əldə edilmiş birinci tipə daxi olan qabarıq gövdəli, qulpsuz çölməklərdən bəzilərinin üzərində (şəkil 25, 8) Qızılburun, Naxçıvan, Şortəpə (şəkil 23, 2, 3, 12) və başqa abidələrdən tapılmış bir qrup boyalı küpələrin naxışına bənzər torlu üçbucaqlar çəkilmişdir.

Qızılburun, Culfa nekropollarından tapılmış birinci tipə daxil olan boyalı çölməklərdən bir qrupunun üzəri Qazxan (20, 75-78), Yurdçu (13, s. 18), I Kültəpə (96, s. 182), Şahtaxtı (83, şəkil 57, 5), Sarıtəpə (178, s. 70), Babadərviş (134, s. 58) və b. abidələrindən əldə olunmuş qabarıq gövdəli çölməklər kimi, Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan yuvarlaq göbələkşəkilli qabartma ilə bəzədilmişdir (şəkil 25, 5, 7). Onların bir qrupu sadə olmuş, bəzilərinin üzəri isə müxtəlif həndəsi ornamentlərlə bəzədilmişdir. Bu tipə daxil olan Qızılburun, Culfa çölməkləri naxışlanma metoduna görə həm bir-biri ilə, həm də, bəzi qulplu çölməklərlə oxşarlıq təşkil edir. Lakin onların hər birinin özünəməxsus spesfik xüsusiyyətləri vardır (şəkil 25, 3).

Culfa nekropolundan əldə olunmuş üzəri göbələkşəkilli çıxıntılı çölməyin üzərinə "M" şəklində naxış salınmışdır (şəkil 25, 5). Qızılburun nekropolundan tapılmış göbələkşəkilli çıxıntılı çölməyin üzəri perpendikulyar xətlər arasına alınmış "Y" formalı naxışla bəzədilmişdir (şəkil 25, 7).

Nekropoldan əldə olunmuş qabarıq gövdəli qulpsuz çölməklərdən birinin üzəri bir-birinin içərisində yerləşdirilmiş bucaqlarla naxışlanmışdır. Naxışlar qara və qırmızı rənglə nisbətən səliqəli çəkilmişdir (şəkil 25, 2). Bu nekropoldan əldə olunmuş tək qulplu çölməyin naxışlanmasında digər qablarda olduğu kimi qırmızı rəngli enli xətdən istifadə olunmasına baxmayaraq, naxışlanma motivinə görə digərlərindən fərqlənir. Onun yalnız ağzının kənarına qırmızı rəngli enli xətt çəkilmişdir (şəkil 25, 6).

İkinci tip çölməklər bikonik gövdəli düzəldilmişdir (şəkil 25, 1, 4). Onlar Qızılburun, Culfa, Şahtaxtı və b.

abidələrindən tapılmışdır (16, s. 138; 36, s. 70, 79). Əldə olunmuş çölməklər qara və qırmızı rənglə müxətəlif həndəsi ornamentlərlə naxışlanmışdır.

Qızılburun nekropolundan əldə olunmuş tək qulplu çölməklərdən biri ornamentlərinə görə, həmin nekropoldan əldə olunmuş qabarıq gövdəli çölməklərlə oxşarlıq təşkil etsə də, bəzi xüsusiyyətlərinə görə onlardan fərqlənir (şəkil 25, 4). Onun üzərindəki naxış qara və qırmızı rənglə deyil, yalnız qırmızı rənglə çəkilmişdir. Nekropoldan əldə olunmuş bikonik gövdəli çölməyin üzərindəki əsası yuxarıya olan, içərisi paralel xətlərlə doldurulmuş naxış özünəməxsus xüsusiyyəti ilə fərqlənir (şəkil 25, 1).

***Çayniklər.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən (Qızılburun, Naxçıvan, Şortəpə, Şahtaxtı və b.) əldə olunmuş çayniklərin hamısı yastı oturacaqlı, qabarıq gövdəli düzədilmişdir (35, s. 67, 84; 16, s. 138, 139). Onların ağzı geniş olub, içəriyə doğru yığılmışdır. Lüləyi gövdəsinin ortasından başlayaraq ağzının səviyyəsinə kimi qalxmış, bir qədər qabağa doğru əyilmişdir (şəkil 26, 8-10). Çayniklərin bir qrupu qulpsuz (şəkil 26, 7), bir qismi isə qulpludur (şəkil 26, 1-6). Onların bəzilərinin üzərində lüləyin əks tərəfində bir qrup kasalar, çölməklərdə olduğu kimi qulp yerinə üzərində kiçik deşik olan qulaqcıqşəkilli çıxıntı qoyulmuşdur. Aparılan müqayisəli araşdırma zamanı məlum olur ki, Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş çayniklərin çoxu forma və xüsusiyyətlərinə görə Təpəhisar, Göytəpə, Təpəsialk, Urmiya hövzəsi və Şərqi Anadoludakı arxeolji abidələrdən tapılmış (36, s. 68; 153, s. 169-175) çayniklərdən bir qrupu ilə oxşarlıq təşkil edir. Bu qabların naxışlanmasında Orta Tunc dövrünün ənənləri aydın şəkildə özünün göstərir. Onların gövdəsinin yuxarı və aşağı hissəsi qırmızı rənglə, mərkəzi hissəsi sarı rənglə boyanaraq, qırmızı və sarı rənglə, torlu üçbucaqlarla naxışlanmışdır. Bəzilərinin lüləklərində konnelyur ornametlər

çəkilmişdir (şəkil 26, 10). Onlar naxışlanma motivlərinə, formasına görə bir-biri ilə oxşarlıq təşkil etməklə yanaşı, bəzi xarakterik xüsusiyyətlərinə görə fərqlənirlər. Buna görə də Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş çəhrayı rəngli boyalı çaynikləri şərti olaraq üç tipə bölmək olar:

Birinci tip çaynik hündür ayaqlı düzəldilmişdir (şəkil 26, 4). Ona Naxçıvan nekropolunda təsadüf edilmişdir (16, s. 138; 81, s. 7; 36, tab. VIII, 5). Əldə olunmuş bu tip çayniklərin gövdəsi digər çayniklər kimi qabarıqdır. Üzərində qulaqçıqşəkilli çıxıntı qoyulmuşdur. Xarici səthi qara rənglə əsası yuxarıya olan torlu üçbucaqlarla naxışlanmışdır. Üçbucaqlar yuxarıdan və aşağıdan üfüqi xətlərlə məhdudlanmışdır. Onun üzərindəki üçbücaqların içərisindəki torlar Qızılburun, Naxçıvan, Culfa, Şortəpə abidələrindən əldə olunmuş bir qrup qablar kimi qırmızı rənglə çəkilmişdir.

İkinci tip çaynik bikonik gövdəli, yastı oturacaqlı düzəldilmişdir (şəkil 26, 5). Qızılburun nekropolundan tapılmış bi tip çaynikin üzərində deşikli qulaqcıqşəkilli çıxıntı qoyulmuş, xarici səthi qırmızı rəngli torlu ücbucaqlarla naxışlanmışdır. Üçbucaqların arasında qıvrılmış ilan rəsminə oxşar ornament verilmişdir (şəkil 26, 5). Bu qab naxışlanma motivinə görə həmin nekropoldan tapılmış küpələrdən biri ilə oxşarlıq təşkil edir (şəkil 23, 13). Onların üzərindəki ilan rəsmi Şahtaxtı (36, s. 64), Sarıtəpə (76, s. 38) küpələrində olduğu kimi insanların dini-ideoloji görüşləri ilə bağlı müəyyən məna ifadə edir.

Üçüncü tip çayniklər qabarıq gövdəli hazırlanmışdır (şəkil 26, 1, 2, 3, 6, 7). Onlar Qızılburun, Naxçıvan, Şortəpə nekropllarından tapılmışdır (16, s. 138; 36, s. 67, 84; 37, s. 20). Bu tipə daxil olan çayniklərin çoxunun lüləyinin əks tərəfində qulp yerinə üzərində kiçik deşik olan qulaqcıqşəkilli çıxıntı qoyulmuşdur. Birinci və ikinci tipə daxil olan çayniklər kimi onların da naxışlanmasında torlu üçbucaqlardan istifadə

edilmişdir. Üçbücaqlar aşağıdan və yuxarıdan qara rənglə üfiqi xətlə məhdudlanmışdır.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş kermika məmulatının araşdırılması göstərir ki, Arazboyu vadidə oturaq həyat sürən əkinçi-maldar tayfaların təsərrüfatında boyalı qablar, dağlıq zonada yaşayan tayfalarda isə boz rəngli keramika üstünlük təşkil etmişdir. Ehtimal ki, bu insanların həyat tərzi ilə bağlı olmuşdur.

Gil qabların hazırlanması zamanı əvvəlcə istehsal üçün yararlı olan keyfiyyətli qum seçilmişdir. Bu zaman istehsal üçün nəzərdə tutulmuş qumun tərkibinin möhkəm və keyfiyyətli olmasına fikir verilmişdir. Qabların hazırlandığı gilin tərkibini möhkəmləndirmək üçün ona iri və xırda qum dənələri qatılmışdır. Müxtəlif gildən istifadə edilməsi nəticəsində istehsal olunmuş qabların tərkibi də bir-birindən fərqlənmişdir. Hər bir qabın hazırlandığı gilin tərkibindəki dəmir birləşmələri və çürüntülər onun rənginə təsir etmişdir.Yüksək keyfiyyətli gildən hazırlanmış qablar daha çox yararlı, daha çox uzun ömürlü olmuşdur. İnsanlar qabları istehsal edərkən onu ilk olaraq əl ilə yoğrub müəyyən formaya salmışlar. Bu zaman onların simmetiriyasına xüsusi fikir verilmişdir. Qabı müəyyən formaya saldıqdan sonra bişirilmə zamanı çatlamaqdan qorumaq üçün xüsusi üsullardan istifadə etmişlər. İlk olaraq qabı əvvəlcə bir neçə gün kölgə yerdə qoyub yüngül qurutmuşlar. Sonra isə onları müxtəlif temperaturada bişirmişlər. Qabları orta dərəcədə bişirərkən onları çox yuksək olmayan temperaturada hisə vermişlər. Yüksək temperaturada bişirilmiş qabların əksəriyyətini çatlamaqdan qorumaq üçün şüyürləmişlər. Bişirilmə prosesi zamanı hər hansı bir formaya salınmış qab oksidləşdirici alovun təsirindən müxtəlif rəngli olmuşdur. Bu zaman qabın xarici səthi qaralmış, daxili isə karbon birləşməsinin təsir etməməsi nəticəsində açıq rəngli qalmışdır. Qabların bişirilmsi prosesi

zamanı müxtəlif rənglərdə olması üçün onların hazırlandığı gilin tərkibindəki dəmir duzlarının əhəmiyyəti böyük olmuşdur. Bişirilmə prosesi zamanı bütün dəmir duzları və onun başqa birləşmələri dəmir oksidinə çevrilərək qabın rənglənməsində həlledici rol oynamışdır. Qabların rənglənməsində həmçinin boyaq bitkilərindən və müxtəlif menerallardan istifadə edilmşdir. Marqans oksidindən şabalıdı, mis oksidindən yaşıl, dəmir oksidindən sarı, kobalt oksidindən isə mavi rənglər alınaraq boyalı qabların hazırlanmasında istifadə olunmuşdur.

Bu dövrdə Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş gil qabların bəzədilməsində də qabların bəzədilməsində basma, cızma, çərtmə, konnelyur, zoomorf ornamentlərdən, "Ş", "T", "M", "Y" formalı naxışlardan, şiş yapma və dairəvi batıqlardan istifadə olunmuşdur. "Ş", "T", "M", "Y" formalı naxışlar yerli sənətkarlığa məxsus xüsusiyyətlər daşıyır. Yuvarlaq qabartmalar və konnelyur ornamentlər isə ağ ağ inkrustasiyalı keramikalar kimi Xocalı-Gədəbəy mədəniyyətində daha geniş yayılmışdır. Onlar Xocalı-Gədəbəy mədəniyyətinə aid Mingəçevir, Gəncəçay, Xaçbulaq abidələrindən tapılan qablarla oxşarlıq təşkil edir.

Qabların naxışlanmasında istifadə olunmuş həndəsi ornamentlər sadə və mürəkkəb qurluşlu olmaqla iki əsas qrupa bölünmüşdür. Sadə həndəsi ornamentlər içərisində dalğalı, düz və sınıq xətlər daha çox yayılmışdır. Mürəkkəb həndəsi ornamentlər dairə, romb dördbucaq və üçbucaqların kombinasiyasından ibarət olmuşdur.

Son Tunc-Erkən Dəmir dövrünün sonunda qablar səliqəsiz naxışlanmışdır. Bu dövrdə qabların naxışlanmasında kobud, enli xətlərdən istifadə edilmişdir. Son Tunc dövrünə aid qablarda naxışlar qabın əsasən gövdə hissəsini əhatə etmişdir. Erkən Dəmir dövrünə aid qablarda isə naxışlar daha çox qabın gövdəsinə və oturacağına çəkilmişdir. İstifadə olunmuş həndəsi

ornamentlərin bir çoxu sxematik şəkildə olsa da, qədim əkinçi-maldar tayfaların fikirlərini ifadə etmişdir.

## 2.3. Silahlar

*Xəncərlər.* Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş tunc xəncərlər formaca dörd əsas tipə bölünür:

Birinci tipə daxil olan xəncərlərin dəstəyi yastı, tiyəsi üçbucaq formalı, ortası qabarıq hazırlanmışdır (şəkil 28, 1, 2, 6-8, 10, 11). Onların kəsikdə rombşəkilli olan tiyəsinin ucu sivri, ağızları düzdür. Bu tip xəncərlər Kolanı, Qızılburun, Haqqıxlıq nekropollarından tapılmışdır (73, s. 57, 65; 16, s. 141, 142). Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən bəzilərinin qısa dəstəyində bir deşik açılmışdır (şəkil 28, 2, 11).

İkinci tip xəncərlərin tiyəsinin çiyin hissəsinə yerləşdirilən ağac dəstək üçün nəzərdə tutulmuş ovalvari formalı çənbərləri tiyədən ayrı düzəldilmişdir. Onların üçbücaq tipli tiyəsi birinci tip xəncərlər kimi ortada qabartmalı və yastı olmuş, qısa saplağında bir deşik açılmışdır. Ağız kənarları düz, ucu sivri düzəldilmişdir (şəkil 27, 4, 8, 9). Bu tip xəncərlər Kolanı nekropolundan tapılmışdır (73, s. 65; 13, s. 42; 16, s. 142). Oradan əlda olunmuş xəncərlərdən biri istisna olunmaqla (şəkil 27, 3), hamısının şəbəkəli konusvari başlığı vardır.

Üçüncü tipə dəstəyi ilə tiyəsi bütöv şəkildə tökülmüş xəncərlər daxildir (şəkil 27, 1, 2, 5, 6, 7; şəkil 28, 9). Onların tiyəsinin ortası dördkünc formalı qabartmalı, ucu sivri, ağızları iti düzəldilimişdir. Dəstəyinin ortasında ağac inkrustasiya keçirmək üçün oval çərçivə qoyulmuşdur. Bu tip xəncərlər Mərdangöl, Muncuqlutəpə (109, s. 26, 34), Kolanı (73, s. 65; 13, s. 42), Boyəhməd (75, s. 22), Qumluq (19, s. 81-85; 120, s. 47-49) nekropollarından tapılmiişdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən hamısı hazırlanma metoduna və

formasına görə bir-biri ilə oxşarlıq təşkil etməsinə baxmayaraq onların hər birinin özünəməxsus olan spesfik xüsusiyyətləri vardır.

Kolanı nekropolundan əldə olunmuş xəncərin yarpaq biçimli tiyəsi dəstəyinə birləşik hissədə dördbucaqlı formada qalınlaşdırılmışdır (şəkil 27, 2).

Muncuqlutəpə nekropolundan tapılmış xəncərlərdən birinin dəstəyi tamamilə sadə hazırlanmışdır (şəkil 28, 9). Digər xəncərin dəstəyi Kolanı xəncərlərindən biri kimi, konsvari başlıqlıdır (şəkil 27, 1).

Boyəhməd, Qumluq nekropollarından əldə edilmiş xəncərlərin konusvari formalı başlığı şəbəkələrlə bəzədilmişdir (şəkil 27, 5, 6, 7). Qumluq nekropolundan tapılmış bu tipə daxil olan xəncərlərdən birinin konusvari başlığı, gövdəsi üçbucaqlardan ibarət şəbəkələrlə bəzədilmişdir (şəkil 27, 7). Digər xəncərin (şəkil 27, 6) başlığında üçbucaqlar Kolanı xəncərlərində olduğu kimi, (şəkil 27, 5, 6) svastika formasında verilərək, qədim əkinçi-maldar tayfaların dini-ideoloji görüşləri ilə bağlı müəyyən kompozisiyanı bildirmişdir.

Dördüncü tip xəncərlərin yastı formalı dəstəyi ilə tiyəsi ikinci tip xəncərlər kimi bütöv şəkildə tökülmüşdür (şəkil 28, 5, 6). Onlar Culfa, Qızılburun nekropollarından tapılmışdır (36, s. 102; 119, s. 110, şəkil 11, 10-12). Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən hamısının tiyəsi enli və uzunsovdur. Onların tiyəsinin ortası bir qədər qalın, ucu sivri olub, hər iki üzdən yaxşı itilənmişdir. Dəstəyinin hər iki tərəfi ağac, yaxud sümük keçirmək üçün çərçivə formasında düzəldilmişdir. Onların əksəriyyəti başlıqlıdır.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş xəncərlərin müqayisəli şəkildə öyrənilməsi nəticəsində məlum olur ki, bu dövrə aid birinci, ikinci və üçüncü tip xəncərlər yerli mədəniyyətə aiddir. Dördüncü tip xəncərlər isə Ön Asiya mədəniyyətinə aid xüsusiyyətlər daşıyır.

Birinci tip xəncərlərin bənzərlərinə Üzərliktəpə (162, s. 132), Şamxor, Gədəbəy (166, s. 82), Gəncəçay rayonu (164, tab. XIII, 1), Mingəçevirlə (135, s. 10) yanaşı olaraq Cənubi Qafqazdakı digər abidələrdə (165, s. 34-35; 144, s. 67) təsadüf edilmişdir.

İkinci və üçüncü tip xəncərlər Xanlardan (76, s. 91), Mingəçevirdən (106, tab. XIV, 4, 6, 8, 9) və Xocalı-Gədəbəy mədəniyyətinə aid digər abidələrdən (131, s. 22-23; 8, s. 40-45) tapılan xəncərlərlə oxşarlıq təşkil edir.

Ön Asya mədəniyyəti üçün xarakterik olan xəncərlərin bənzərləri Muğanda, Uzuntəpədə (128, tab. V, 5, 2), Gədəbəydə (36, s. 102), Lənkaranda, Astarada (136, s. 749-751) və digər yerlərdə (129, s. 34-35) aşkar edilmişdir.

***Ox ucları.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən (Kolanı, Haqqıxlıq, Sarıdərə (73, s. 65, 53, 56), Mərdangöl (4, s. 69-72), Muncuqlutəpə (105, s. 221-223), və b.) xeyli miqdarda ox ucları tapılmışdır. Onların bir qismi obsidiandan (dəvəgözü daşı) düzəldilmiş, digər qrupu isə tunc və dəmirdən olmuşdur.

Dəvəgözü daşından (obsidian) düzəldilmiş ox ucları üçbucaq formalı olub arxa tərəfindən oyuq açılmışdır (şəkil 29, 16-23). Onlar qanadlı və qanadsız olmaqla iki tipə ayrılır.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən aşkar olunmuş metal ox ucları formaca müxtəlifdir (şəkil 29, 1-8, 11-15). Onlar tökmə və döymə üsulu ilə düzəldilmişdir (şəkil 29, 1, 2, 4, 8, 11, 12, 15). Ucları iti olmuş, tiyəsinin ortasından saplağının istiqaməti boyunca qabarıq zolaq keçmişdir.

İstər tuncdan olan, istərsə də daşdan düzəldilən qanadlı ox uclarının qanadları üçbucaq formasında olub, saplağı boyunca uzanaraq bir qədər içəri yığılmışdır. Onların qanadlarının bu cür düzəldilməsi oxun dəydiyi yerdən asanlıqla çıxmasının qarşısını alaraq, daha çox təhlükə yaratmışdır. Bu tip ox ucları Cənubi Qafqazda daha çox yayılmışdır. Onların

bənzərlərinə Mingəçevirdə (135, s. 12-14; 136, s. 750), Gəncəçay rayonunda (76, s. 16, 92, tab. II, IV), Uzuntəpədə (124, s. 35-37, tab. IX, 4-8), Gürcüstanda (36, s. 99) və digər yerlərdəki (149, şəkil 4; 140, şəkil 4,11) Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdə təsadüf edilmişdir.

Qanadsız ox ucları tökmə üsulu ilə hazırlanmışdır (şəkil 29, 3, 5, 6, 13). Onların çoxunun saplağı yastı, bəziləri isə bir qədər yuvarlaqdır. Tiyəsi bərabər endə olub, ucuna doğru nazikləşmişdir. Tiyəsinin saplaqla birlşən çiyin hissəsi düz və ya mailidir. Onlar formaca Gəncəçay rayonundan (76, tab. XVI, 1), Şamxor və Çovdardan (136, s. 749-751) tapılmış Son Tunc-Erkən Dəmir dövrünə aid ox ucları ilə oxşarlıq təşkil edir.

*Nizə ucları.* Naxçıvandakı Qızılburun (81, şəkil 11, 10.11), Yurdçu (38, s. 88), Culfa (33, s. 81, tab. IV, 9), Mərdangöl (109, tab. LXXI, 1, 2) və digər Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən tapılmış nizə uclarının bəzisi tökmə, bir qrupu isə döymə üsulu ilə yarpaqvari formada hazırlanmışdır (şəkil 29, 9, 10, 14). Onların ucu sivri, tiyəsi enli olmuşdur. Qanadları tiyəsindən ucuna doğru getdikcə daralmışdır. Tiyəsinin ucundan gövdəsinə doğru qabarıq zolaq keçmişdir. Onların bəzilərinin dəstəyi boruşəkilli düzəldilmişdir. Bir qrupununkü isə döyülərək yastılanıb, ortasından kiçik deşik açılmışdır. Bu tip nizə uclarının bənzərləri Mingəçevirdə (106, tab. XV, 16-22), Gədəbəydə (44, s. 103), Gəncəçay rayonunda (76, s. 91), Muğanda (128, tab. XII), Lənkəranda (148, tab. II, 8), Gürcüstanda (168, tab. XXXI, 11; 147, s. 120), Kubanda (140, s. 154), Samtavroda (165, tab. XXXI, 9) və Cənubi Qafqazdakı digər Son Tunc-Erkən Dəmir dövrünə aid olan qəbir abidələrində aşkar edilmişdir (174, s. 68; 167, s. 225).

Silahların araşdırılması Son Tunc-Erkən Dəmir dövründə Naxçıvan abidələrində Xocalı-Gədəbəy, Ön Asiya tipli xəncərlərin yayıldığını göstərir. Bu Naxçıvanda məskunlaşan qədim tayfaların Azərbaycan və Ön Asiya

tayfaları ilə yaxın iqtisadi-mədəni əlaqələrinin olduğunu təsdiq edir. Xocalı-Gədəbəy tipli xəncərlərlə xarakterizə edilən komplekslər bu mədəniyyətin cənuba döğru yayıldığını göstərir. Son zamanlar Cənubi Azərbaycanda Xudafərin ətrafında aşkar olunan abidələr bunu təsdiq edir.

## *2.4. Bəzək əşyaları*

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş maddi-mədəniyyət nümunələrindən bir qismini bəzək əşyaları təşkil edir. Onlar əsasən qəbir abidələrindən tapılmışdır. Əldə olunmuş bəzək əşyalarından bir qrupu döymə, bir qismi isə tökmə üsulu ilə düzəldilərək formasına, ornamentlərinə və istifadə məqsədinə görə bir-birindən fərqlənirlər. Buna görə də Naxçıvanın Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrindən əldə olunmuş bəzək əşyalarını şərti olaraq altı qrupa bölmək olar:

1. Muncuqlar.
2. Baş bəzəkləri (alınlıq, saç boruları, sırğalar və b.).
3. Sinə və ya boyun bəzəkləri (asmalar, boyunbağılar və b.).
4. Geyim bəzəkləri (düymələr, sancaqlar, piləklər).
5. Qol bəzəkləri (üzük, bilərzik və b.).
6. Ayaq bəzəkləri (halqalar).

***Muncuqlar.*** Bu bəzək əşyası qədim Azərbaycan əhalisi arasında çox geniş yayılmışdır. Onlardan boyun, qol, qulaq və ayaq bəzəkləri kimi istifadə edilmişdir. Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş muncuqlar əqiqdən, pastadan, firuzədən, dentalium, sprea, konus tipli dəniz heyvanlarının qabığından, şüşədən, tuncdan və dəmirdən hazırlanmışdır (şəkil 33). Onlar silindirik, diskşəkilli, şarbiçimli, xırda doğranmış formada olmuşlar. Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş muncuqların əksəriyyəti sadə

düzəldilərək yaxşı cilalanmışdır. Bəzilərinin üzəri cızma üsulu ilə müxtəlif həndəsi ornamentlərlə (sınıq, dalğalı xətlərlə, bucaqlarla və b.) naxışlanmışdır (şəkil 33, 9, 11, 16, 17, 23). Bir qrup muncuqların üzəri göy şirlə örtülmüşdür. Üzəri göy şirlə örtülənlər, şüşədən hazırlananlar digər muncuqlarla müqayisədə azlıq təşkil edir. Üzəri göy şirlə örtülmüş muncuqlar Qızılburun, Şahtaxtı, Çalxanqala, Qalaçıq (96, s. 189) arxeoloji abidələrindən tapılmışdır. Şüşədən hazırlanmış muncuqlar Qızılburun, Şahtaxtı, Çalxanqala (100, s. 18), Dəmyələr (18, s. 84-93) abidələrində aşkar edilmişdir.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən tapılmış muncuqların içərisndə əqiqdən düzəldilənlər nisbətən çoxluq təşkil edir. Bunun əsas səbəblərindən biri ölkəmizin əqiq suxurı ilə zəngin olmasıdır (59, s. 96). Sayca çoxluq təşkil edən ikinci tip muncuqlar ağ rəngli pastadan hazırlanmışdır.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş muncuqların içərisində ən çox maraq doğuranlar şüşədən düzəldilənlərdir (şəkil 33, 20, 21, 22, 24, 25). Bunun əsas səbəbi ondan ibarətdir ki, şüşə muncuqların düzəldilməsi heç də sadə olmamışdır. Onlar üzəri göy şirlə örtülmüş muncuqlar kimi yerli xarakter daşımır, Yaxın Şərq mədəniyyəti üçün xarakterikdir.

Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, təbii vulkanik şüşə olan dəvəgözü daşı qədim zamanlardan insanlara məlum olsa da, süni şüşə sonrakı dövrlərdə istehsal edilmişdr. Onun istehsalı məhsuldar qüvvələrin inkişaf səviyyəsindən, yüksək mədəniyyətə sahib olmasından asılı olmuşdur.

Şüşə xəlitəsinin istehsalı üçün şüşə qumundan (kvars qumu), təbii sodadan, metal tozları və ağac külündən hazırlanmış xammal 14000-16000 temperaturada bişirilmişdir. Metal tozlarının müxtəlifliyi və bişirilmə hərarəti şəffaf olan şüşənin rənginə təsir etmişdir. Mis tozu şuşəyə yaşıl və qırmızı,

marqans tozu bənövşəyi və yaxud tünd qəhvəyi, sürmə, qurğuşun tozu sarı, qalay tozu süd rəngi, kobalt tozu isə açıq bənövşəyi rəng vermişdir. Onun istehsalı zamanı əsasən iki texniki metodlardan istifadə olunmuşdur. Həmin metodlardan birini ərimiş xammalın xüsusi qəliblərə tökülməsi təşkil etmişdir. Digər metod isə ərimiş xammalın xüsusi borular vasitəsi ilə üfürülməsindən ibarət olmuşdur (42, s. 74-75). Şüşənin istehsalı çox çətin olduğu üçün ilk vaxtlar ondan ancaq bəzək əşyası kimi istifadə edilmişdir. Belə bəzəklər əsasən imtiyazlı şəxslərə məxsus olduğundan onlara məxsus qəbir abidələrində təsadüf olunmuşdur.

Şüşənin ilk dəfə harada istehsal edilməsi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Tədqiqatçıların bir çoxu onun ilk vətəninin Misir, bir qismi isə Babilistan olduğunu qeyd etmişlər (42, s. 74).

Çində e.ə. V-III əsrlərdə, Romada e.ə. I əsrdə, Azərbaycanda isə I-II əsrlərdə şüşənin istehsal edilməsini sübut edən faktlara təsadüf edilmişdir (5, s. 586). Aparılan arxeoloji araşdırmalar zamanı Gürcüstandakı arxeoloji abidələrdən aşkar olunmuş şüşə bəzəklər e.ə. III minilliyin sonu-II minilliyin əvvəlinə, Xaçbulaq, Şamxor, Cəlilabad (42, s. 73), Dovşanlı, Xocalı, Borsunlu, Bəyimsorov (129, s. 50) abidələrindən tapılanlar e.ə. I mnilliyin əvvəlinə, e.ə. X-XI əsrlərə, Dəmyələr (18, s. 84-93), Şahtaxtı, Qızılburun (100, s. 15) abidələrindən əldə olunanlar isə Orta və Son Tunc dövrlərinə aid olmuşdurlar.

Ən qədim şüşə nümunəsi Misirdə, ilk şüşə əridilən kürə isə Şərqi Fələstində aşkar edilmişdir (42, s. 74). Şərqi Fələstindəki şüşə əridilən kürənin e.ə. III minilliyə aid olduğu ehtimal olunur.

Misirdən tapılan şüşə nümunəsi e.ə. IV-I minilliyə aid ehramlarda aparılan arxeoloji qazıntılar zamanı üzə çıxmışdır. Onun Misirin özündə istehsal olunduğu və ya gətirilmə olması dəqiqləşdirilməsə də, arxeoloji materiallar əsasında sübut

olunmuşdur ki, e.ə. 2800-ci ildə bu ərazidə rəngli şirdən (qlazurdan) istifadə edilmişdir (42, s. 74-75).

1891-1892-ci illərdə Misirdə arxeoloji qazıntılar aparan F.Petri hesab etmişdir ki, ən qədim şüşə istehsalı mərkəzi Mesopotamiyanın şimal hissəsi olsa da, ehtimal etmək olar ki, onun istehsalı Qafqazda Misirdən də qabaq mövcud olmuşdur (77, s. 149). Tədqiqatçının fikri fərziyyə olaraq qalıb bugünə kimi sübut olunmasa da, son illərin tapıntıları bu fərziyyənin həqiqətə uyğun olduğunu göstərir.

Mənbələrə nəzər salsaq görürük ki, Qafqazda şüşənin qədim zamanlardan istehsal olunduğunu sübut edəcək faktlar olmasa da, onun istehsalında istifadə olunan kömür ağacları (palıd, vələs və b.), soda yataqları və şüşə qumu Xəzər sahilində, Xırdalanda, Qarabağda və Azərbaycanın başqa yerlərində kifayyət qədərdir. Daşkəsənin kobalt yataqları isə təkcə Azərbaycanda deyil, həm də, bütün Yaxın Şərqdə məşhurdur (42, s. 75).

***Baş bəzəkləri.*** Baş bəzəkləri alınlıq, saç boruları, sırğalardan ibarətdir.

***Alınlıqlar.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan III Sarıdırə, Kolanı (13, s. 28, s. 44), Qızılbırun (81, şəkil 12, 11), Qumluq (47, s. 98-103) və digər abidələrdən əldə olunmuş alınlıqların hamısı tuncdan düzəldilmişdir (şəkil 30, 1-5). Onlar hazırlanması texnologiyasına və formasına görə bir-birindən fərqlənərək iki əsas tipə bölünür:

Birinci tipə daxil olan alınlıqların ucları xaricə qatlanmışdır (şəkil 30, 1, 2, 5). Onlar Sarıdərə (13, s. 28), Qzılburun (81, şəkil 12, 11) nekropollarından tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələri döymə üsulu ilə lentşəkilli formada düzəldilərək bir-biri ilə oxşarlıq təşkil etsə də, bəzi xüsusiyyətlərinə görə fərqlənirlər.

Sarıdərə nekopolundan əldə olunmuş alınlıqların ortasında kiçik deşik açılmışdır. Onlardan birinin üzərində

döymə nöqtələrlə naxış vurulmuşdur (şəkil 30, 1, 2). Qızılburun nekropolundan tapılmış alınlıq tamamilə sadə olmuşdur (80, şəkil 12, 11).

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş ikinci tip alınlıqlar düz ucludur (şəkil 30, 3, 4). Onlar Kolanı (13, s. 44), Qumluq (47, s. 98-103) abidələrindən tapılmışdır. Əldə olunmuş alınlıqların hər ikisi birinci tipə daxil olan alınlıqlar kimi, lentşəkilli formada döymə üsulu ilə düzəldilmişdir.

Kolanı nekropolundan tapılmış düz uclu alınlığın ucları yuvarlaq formalı hazırlanmışdır. Üzəri cızma xətlə, bucaqvari ornamentlə naxışlanmışdır (13, s. 44).

Qumluq nekropolundan əldə olunmuş alınlığın ucları kəsmə formalı olmuşdur. Üzəri heç bir ornamentlərlə naxışlanmamışdır (47, s. 98-103).

Aparılan müqayisəli araşdırma zamanı məlum olur ki, Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrindən əldə olunmuş dairəvi uclu alınlıqların bənzərləri Gədəbəy, Gəncəçay (79, s. 58), Quşçu (125, s. 134, 140) abidələrində aşkar edilmişdir. Düz uclu düzəldilən isə Mingəçevir (106, s. 20, tab. XVII), Dolanlar, Xaçbulaq (80, tab. IV; 159, s. 63) və digər abidələrdən tapılmış alınlıqlarla oxşarlıq trəşkil edir.

***Saç boruları.*** Saç boruları bəzək əşyaları arasında xüsusi yer tutmuşdur. Alınlıqlardan fərqli olaraq onlardan əsasən xırda hörüklərin yığılmasında istifadə edilmişdir. Onlar Azərbaycanın müxtəlif yerlərindəki Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən fərqli olaraq Naxçıvandan nisbətən az tapılmışdır (III Sarıdırə, Kolanı, Boyəhməd). Əldə olunmuş maddi-mədəniyyət nümunələri forma və xüsusiyyətlərinə görə bir-birindən fərqlənərəq iki əsas tipə bölünür:

Birinci tipə sadə formalı alınlıqlar daxildir (şəkil 30, 6). Qızılburun nekropolundan əldə olunmuş bu tip saç borusu

döymə üsulu ilə nazik metal lövhədən düzəldilərək heç bir ornamentlə naxışlanmamışdır (81, şəkil 13, 28).

İkinci tip saç boruları spiralvari formada hazırlanmışdır (şəkil 30, 7, 8, 12). Sardərə, Kolanı və b. (13, s. 29, 46) nekropollarından əldə olunmuş bu tip saç borularının hamısı nazik tunc məftilin spiral şəkilində burulması metodu ilə düzəldilmişdir.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrindən əldə olunmuş hər iki tip saç borularının bənzərləri Çovdar (79, tab. V, 7, 9), Daşkəsən, Gədəbəy, Qarabağ (65, s. 51-58), Mingəçevir (106, tab. XXI, 28) və digər abidələrdə aşkar edilmişdir.

***Dairəvi lövhələr.*** Saç bəzəklərindən bir qrupunu dairəvi lövhələr təşkil edir (şəkil 30, 9-11). Naxçıvandakı Boyəhməd (75, s. 23), Kolanı (13, s. 45, 46) və digər Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş bu tip bəzək əşyaları ilə Çovdar, Gədəbəy, Xaçbulaq (79, tab. V, 1-6) abidələrindən tapılmış baş bəzəkləri ilə oxşarlıq təşkil etsə də, bəzi xüsusiyyətlərinə görə onlardan fərqlənir. Bu abidələrdən aşkar edilmiş diskşəkilli, dairəvi baş bəzəklərindən fərqli olaraq Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş baş bəzəklərinin arxa hissəsində başa taxmaq üçün ayrıca tunc məftil lehimlənmişdir. Üzərlərində bir (şəkil 30, 11) və ya iki deşik (şəkil 30, 9, 10) açılmışdır. Onların bəzilərinin üzəri üçbucaqlardan ibarət şəbəkələrlə bəzədilmişdir (şəkil 30, 11).

***Sırğalar.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən (III Sarıdərə, Kolanı, Boyəhməd, Haqqıxlıq, Dəmylər, Qumluq və b.) tapılan baş bəzək əşyalarından bir qrupunu sırğalar təşkil edir (şəkil 31). Qulaq bəzəyi olan bu maddi-mədəniyyət nümunəsi formaca bir-birindən fərqlənərək altı əsas tipə bölünür:

Birinci tipə ucları qıvrılmış formada geriyə qatlanan sırğalar daxildir (şəkil 31, 29). Bu tip sırğalar Sarıdırə (13, s.

23), Muncuqlutəpə (109, tab. LXVII, 2), Şahtaxı (111, tab. XXXIII, 14, 22) və başqa abidələrlə yanaşı Azərbaycanın digər bölgələrindəki Son Tunc-Erkən Dəmir dövrü abidələrindən çoxlu miqdarda aşkar edilmişdir (79, s. 76, tab. VI, 11). Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin hamısı naxışsız düzəldilmişdir.

İkinci tip sırğalar kəsikdə yuvarlaq olan tunc məftildən ucları açıq formada düzəldilmişdir (şəkil 31, 2-4, 12, 15, 19, 22, 30, 33). Onlar Sarıdərə, Kolanı (13, s. 28, 43; 73, s. 44, 50, 65), Boyəhməd (75, s. 18), Dəmyələr (18, s. 84-93), Muncuqlutəpə, Mərdangöl (109, tab. XXXII, 1, 6-8; tab. LVIX, 8) nekropolundan və başqa abidələrdən tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin əksəriyyəti naxışsız düzəldilibdir (şəkil 31, 16). Bir qrupunun üzərinə əqiq pasta, balıqqulağı muncuqlar keçirilibdir (şəkil 31, 2-5, 30, 33).

Üçüncü tip sırğaların ucları bitişik və ya bir-birinin üzərnə mindirilmiş formada düzəldilmişdir (şəkil 31, 16, 31, 34, 38). Onlar Sarıdərə, Kolanı (13, s. 28, 43; 73, s. 44, 50, 65), Boyəhməd (75, s. 22), Dəmyələr (18, s. 84-93), Qızılburun (81, şəkil 13, 13-15), Mərdangöl (109, tab. LXXIII, 9, 11, 12) nekropolundan və başqa abidələrdən tapılmışdır. Bu tipə daxil olan sırğaların bəzilərinin üzərinə digər nümunələrdə olduğu kimi əqiq, pasta, balıqqulağı keçirilmişdir (şəkil 31, 34, 38).

Dördüncü tipə daxil olan sırğalar burma uclu hazırlanmışdır (şəkil 31, 1, 6-10, 12-14, 17, 20, 21, 23, 24, 28-30, 39). Bu tip sırğalar Dəmyələr (18, s. 84-93), Kolanı, Sarıdərə (13, s. 28, 43), Muncuqlutəpə (109, tab. LV, 17-19) və başqa abidələrdən aşkar edilmişdir. Əldə olunmuş sırğaların bəzilərinin üzərinə əqiq, pasta, balıqqulağından düzəldilmiş muncuqlar keçirilmişdir. Üzərinə muncuqlar keçirilmiş sırğaların bir qrupunun iki (şəkil 31, 20, 21, 29), bəzilərinin bir ücu (şəkil 31, 23, 28, 36, 37) burulmuşdur. Bir ucu burularaq halqa şəklinə salınmış sırğalardan əksəriyyətinin digər ucu düz düzəldilmişdir (şəkil 31, 6-9, 12-14, 17, 24, 25, 26). Bəzilərinin

uclarından biri döyülərək yastılanıb spiral şəklinə salınmışdır (şəkil 31, 26-28, 36). Onların bəzilərinə əlavə olaraq nazik tunc məftildən hazrlanmış spiralvari halqa da keçirilmişdir (şəkil 31, 28). Bu tip sırğaların düzəldilməsi digərlərindən fərqli olaraq nisbətən çətin olub daha çox sənətkarlıq qabiliyyəti tələb etmişdir.

Beşinci tip sırğalar bütövlüklə spiralvari formada düzəldilmişdir (şəkil 31, 39-42). Onlar Qızılburun (81, şəki 13, 6), Muncuqlutəpə (109, s. 20), Qumluq nekropollarından tapılmışdır.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrindən əldə olunmuş bütün tip sırğaların bənzərləri Mingəçevir (106, tab. XVII, 21, 28), Xanlar (3, s. 85), Nadirbəy təpəsi (65, tab. II, 6), Gədəbəy, Xocalı, Çovdar (80, s. 78; 144, s. 375) və başqa abidələrdə (159, s. 150) aşkar edilmişdir.

***Sinə və ya boyun bəzəkləri.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş asmalar, boyubağılar sinə və ya boyun bəzəklərini təşkil edir.

***Asmalar.*** Bu bəzək əşyaları daşdan, sümükdən və tuncdan düzəldilmişdir. Daş asmalar kimi sümük asmalar da (şəkil 32, 13-16) Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən nisbətən az aşkar olunmuşdur. Onlar III Sarıdərə, Kolanı və b. abidələrindən tapılmışdır (13, şəkil 16, 7, 18; şəkil 33, 13, 14, 15, 16). Tunc asmalar isə kifayyət qədər tapılmışdır (şəkil 32, 1-12, 17-23).

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş sümük asmalar formaca iki tipə bölünür:

Birinci tipə daxil olan asmalar aypara formasında düzəldilmişdir (şəkil 32, 13, 16). Onlar Kolanı, Sarıdərə nekropollarından (13, şəkil 16, 18; şəkil 33, 21) və digər abidələrdən tapılmışdır. Bu asmaların üzərində boyundan asmaq üçün bir və ya bir neçə deşik açılmışdır.

İkinci tipə daxil olan sümük asmalar iki dairədən olub, qısa körpücüklərlə birləşir (şəkil 32, 14, 15). Kolanı, Sarıdərə nekropollarından (13, şəkil 16, 7; şəkil 33, 24) tapılmış bu tip asmaların yuxarısında və aşağısında boyundan asmaq üçün nisbətən geniş olan deşik vardır.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş tunc asmalar formaca beş əsas tipə bölünür:

Birinci tipə eynəkşəkilli asmalar daxildir. Onlar III Sarıdərə, Kolanı (13, s. 29, 45; 73, s. 46), Mərdangöl, Muncuqlutəpə (109, s. 52, 55), Qızılburun (81, şəkil 12, 1) abidələrindən tapılmışdır. Əldə olunmuş maddi-mədəniyət nümunələrindən əksəriyyəti tökmə üsulu ilə düzəldilmişdir (şəkil 32, 9, 10, 11). Bəziləri döymə üsulu ilə hazırlanaraq üçbucaq formalı şəbəkələrlə bəzədilmişdir (şəkil 32, 12). Tökmə üsulu ilə düzəldilmiş eynəkşəkilli asmaların bənzərlərinə Mingəçevir, Xanlar, Gəncəçay və başqa abidələrdə təsadüf olunmuşdur (80, s. 82; 79, tab. XI, 8; 106, tab. XVI, 33, 34).

İkinci tip asma disk şəkilindədir (şəkil 32, 17). Qızılburun nekropolundan əldə olunmuş bu bəzək əşyası dairəvi tunc təbəqədən döymə üsulu ilə hazırlanmışdır (96, tab. XXXII, 10; 80, şəkil 12, 5). Üzəri üçbucaqlardan ibarət şəbəkələrlə bəzədilmişdir. Əldə olunmuş maddi-mədəniyyət nümunəsi forma və xüsusiyyətlərinə görə Xanlar, Çovdar, Mingəçevir, Dolanlar (79, tab. VIII, IX, X), Hacıvəllər (71, tab. III, 6, 7) və başqa abidələrdən (155, s. 154-156) tapılmış diskşəkilli asmalarla oxşarlıq təşkil edir.

Üçüncü tipə tuncdan hazırlanmış aypara formalı asmalar daxildir (şəkil 32, 23, 24). Onlar Kolanı (13, şəkil 16, 5), Qızılburun (150, s. 217-240; 96, tab. XXXII, 11; 81, şəkil 12, 3) nekropolundan və digər abidələrdən tapılmışdır. Əldə olunmuş asmaların arxa hissəsinə boyundan asmaq üsün halqa lehimlənmişdir (şəkil 28, 23). Onlar forma və xüsusiyyətlərinə görə Xanlar (76, s. 93), Çovdar (179, s. 253-254)

kurqanlarından, Quşçu (125, s. 133), Mingəçevir (106, XIX, 31), Hacıvəllər (71, tab. III, 12) daş qutu tipli qəbirlərindən əldə olunmuş asmalarla oxşarlıq təşkil edir.

Dördüncü tip asmalar quş fiquru formasında düzəldilmişdir (şəkil 32, 1-8). Onlar Sarıdərə, Kolanı (73, s. 57, 65; 13, s. 29, s. 49), Muncuqlutəpə (109, tab. LIV, 5, 6), Qızılburun (96, tab. XXXII, 12; 152, s. 66; 81, şəkil 12, 2) və b. abidələrindən tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələri bir-biri ilə oxşarlıq təşkil etsə də, bəzi xüsusiyyətlərinə görə seçilirlər. Ehtimal etmək olar ki, bu xüsusiyyət onların müxtəlif sənətkarlar tərəfindən hazırlanması ilə bağlılıq təşkil edir.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş quş fiqurlu asmaların hamısı tökmə üsulu ilə hazırlanmışdır. Onların bir qrupu ayaqlı, bəziləri ayaqsızdır (şəkil 32, 1-3, 5, 7, 8). Fiqurların üzəri üçbucaqlardan, bucaqlardan, kiçik dairələrdən ibarət şəbəkələrlə bəzədilmişdir. Bütün asmaların üzərində boyundan asmaq üçün bir və ya iki deşik açılmışdır. Naxçıvanın Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrindən əldə olunmuş quş fiqurlu formalı asma bəzək əşyalarının bənzərlərinə Çovdar, Şamxor (179, s. 254), Xaçbulaq, Gədəbəy (79, tab. XXII; 80, s. 74-88), Quşçu (125, s. 113) abidələrində və digər yerlərdə (159, s. 101) təsadüf edilmişdir.

Beşinci tipə zınqırov formalı asmalar daxildir (şəkil 32, 18-22). Onlar Sarıdərə (13, şəkil 16, 3, 4, 9), Qızılburun (150, s. 217-240; 80, şəkil 12, 10, şəkil 13, 8, 20-25) nekropollarından və digər abidələrdən tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən çoxunun üzəri üçbucaq, bucaq formalı şəbəkələrlə bəzədilmişdir. Onlar forma və xüsusiyyətlərinə görə Mingəçevirdən, Dolanlardan, Çovdardan (79, XIII, 1-11, 17; 80, s. 85) tapılmış zınqırov formalı asma bəzək əşyaları ilə oxşarlıq təşkil edir.

***Boyunbağılar.*** Naxçıvandakı I Boyəhməd (75, s. 22), Sarıdərə (73, s. 49), Kolanı (13, s. 44), Qızılburun, Culfa (119, s. 66-67) və digər Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş bəzəklərindən bir qrupunu boyunbağılar təşkil edir (şəkil 38). Onlar istifadə məqsədlərinə görə oxşarlıq təşkil etsə də, hazırlanma metoduna və formasına görə bir-birindən fərqlənərək beş əsas tipə bölünür:

Birinci tipə daxill olan boyunbağıların ucları dairəvi şəkildə xaricə qatlanmışdır (şəkil 38, 3-9). Bu tip boyunbağılar Boyəhməd (75, s. 22), Sarıdərə (13, s. 28), Dəmyələr (18, şəkil 5, 1, 2), Qarabağlar (171, s. 320-321), Culfa (75, s. 10; 112, şəkil 16, 5) və başqa abidələrdən tapılmışdır. Onlar sadə və bəzəkli olnaqla iki əsəs qrupa bölünür. Sadə boyunbağıların bir qismi tökmə üsulu ilə hazırlanmış, xaricdən kəsmələrlə naxişlanmışdır (şəkil 38, 8). Onların bəzilərinin üzərinə əqiq pasta muncuqlar keçirilmişdir (şəkil 38, 7). Bir qrupunun üzəri cızma xətlərlə naxışlanmışdır (şəkil 38, 3. 6). Həm sadə, həm də naxışlı boyunbağıların əksəriyyəti tökmə, bəziləri burma üsulu ilə düzəldilmişdir (şəkil 38, 5, 9).

İkinci tipə ilanvari formada düzəldilən daxil olan boyunbağılar daxildir (şəkil 38, 10). Bu tip boyunbağılar Qızılburun (119, s. 66) nekropolunda aşkar edilmişdir.

Üçüncü tip boyunbağılar nazik tunc məftildən düzəldilmişdir. Onların üzərinə əqiq, pasta, balıqqulağı keçirilmişdir (şəkil 38, 1, 2. 4). Bu tip boyunbağılar Sarıdərə, Kolanı (13, s. 44), Dəmyələr (18, şəkil 5, 3), Muncuqlutəpə (109, tab. LV, 17-19) və b. abidələrindən tapılmışdır. Onların bəzilərinin bir və ya iki ucu döyülərək yastılanıb spiral şəklinə salınmışdır (şəkil 38, 1, 2).

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş boyunbağıların müqayisəli şəkildə öyrənilməsi onu göstərir ki, onların əksəriyyəti tökmə, bir qrupu isə əlavə olaraq döymə üsulu ilə düzəldilmişdir. Döymə üsulları ilə hazıranmış boyunbağılar nisbətən yoğun

tunc məftildən hazırlanmışdır. Onu düzəldərkən tunc məftil döyülərək dördtilli şəklə salınıb, sonra tən ortadan eyni üsulla yastılanmışdır. Həmin hissə hər iki yandan dairəvi kəzlərlə məhdudlandıqdan sonra, xarici səthi və tilləri kəsmə üsulu ilə sınıq xətlərlə naxışlanmışdır. Kəzlərlə məhdudlanmış hissələr dairəvi formada düzəldilmişdir. Bütün tip boyunbağıların bənzərləri Xocalıda (14, şəkil 12), Mingəçevirdə (106, tab. XVII, 17-18), Çovdarda, Dolanlarda (79, tab. VII) və Cənubi Qafqazdakı digər abidələrdə (175, s. 122, 130; 145, s. 95) aşkar edilmişdir.

***Geyim bəzəkləri.*** Geyim bəzəkləri sancaqlar, düymələr, pilləklərdən ibarətdir.

***Sancaqlar.*** Bu tip bəzək əşyaları Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən xeyli miqdarda aşkar edilmişdir. Əldə olunmuş maddi-mədəniyyət nümunələri forma və xüsusiyyətlərinə görə bir-birindən fərqlənərək səkkiz əsas tipə bölünür (şəkil 35):

Birinci tipə yuvarlaq başlıqlı sancaqlar daxildir (şəkil 35, 6, 10, 12). Onlar Culfa (33, s. 83), Qarabağlar (171, s. 320; 73, s. 65), Qızılburun (119, şəkil 20, 12) və b. abidələrindən tapılmışdır.

İkinci tip sancaqlar dairəvi başlıqlı düzəldilmişdir (şəkil 35, 4, 11). Onlar Qızılburun, Qarabağlar nekropollarından (119, s. 72) və digər abidələrdən əldə olunmuşdur. Bu tipə daxil olan sancaqların bəzilərinin ortasında uzunsov formalı deşik açılmışdır (şəkil 35, 11). Bir qrupunun üzəri kəsmə xətlərlə naxışlanmışdır (şəkil 35, 4).

Üçüncü tipə yuxarı hissəsi içəri qatlanmış sancaqlar daxildir (şəkil 35, 5). Onlar Dəmyələr (18, şəkil 3, 11, 18), Şahtaxtı (111,tab. XXXIII, 3, 4), Culfa (33, s. 83) və başqa abidələrdən aşkar edilmişdir.

Dördüncü tip sancağın başlığı ziqzaq formalı düzəldilmişdir (şəkil 35, 3). Culfa nekropolundan (33, s. 83) və

bəzi qəbir abidələrindən əldə olunmuş bu tip sancaqlar nisbətən mürəkkəb olub, daha çox sənətkarlıq bacarığı tələb etmişdir.

Beşinci tip sancağın yuxarı hissəsində kvadrat şəkilli çıxıntısı, ortasında ellipisvari deşiyi vardır (şəkil 35, 7). Bu tip sancaq hələlik Naxçıvandakı Son Tunc-Erkən Dmir dövrünə aid olan arxeoloji abidələrin içərisində yalnız birindən-Qızılburun nekropolundan aşkar olunmuşdur (119, s. 72).

Altıncı tip sancaq burmabaşlı düzəldilmişdir (şəkil 35, 1). Onlar Culfa (33, s. 83), Muncuqlutəpə (109, tab. XXIII, 1, 2; tab. LV, 1, 2, 3), Şahtaxtı (111, tab. XXXIII, 2) və başqa abidələrdən aşkar edilmişdir.

Yeddinci tipə baş və orta hissəsində uzunsov formalı deşiyi olan mismarşəkili sancaqlar daxildir (şəkil 35, 2, 8). Onlar Qızılburun, Qarabağlar və başqa abidələrdən tapılmışdır (119, şəkil 20, 2, 8). Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən bəzilərinin üzərinə əlavə tunc halqa keçirilmişdir (şəki 35, 8).

Səkkizinci tip sancaq zoomorf (heyvan) başlıqlı düzəldilmişdir (şəkil 35, 9, 14). Qarabağlar nekropolundan aşkar edilmiş bu tip sancaqlardan biri qoyun (şəkil 35, 9) digəri keçi başlıqlıdır (şəkil 35, 14).

Aparılan elmi araşdırma onu göstərir ki, Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş bütün tip sancaqların bənzərləri Gədəbəydə (44, tab. XIII, 3, 5; 79, tab. XX, 1-3, 7, 9), Mingəçevirdə, Xaçbulaqda (79, tab. XX, 8; tab. XII, 11), Quşçuda (125, s. 135, şəkil 12), Gəncəçay rayonunda (76, tab. XVI, 7) və digər yerlərdəki həmdövr arxeoloji abidələrdə aşkar edilmişdir. Onların içərisindəki zoomorf ornamentlilər digər yerlərdən əldə olunmuş sancaqlar kimi (7, s. 77; 169, s. 154-162), bilavasitə əkinçi-maldar tayfalarla bağlılıq təşkil edir.

***Düymələr.*** Naxçıvandakı Kolanı (91, s. 12; 13, s. 45), Sarıdərə (73, s. 50, 52; 13, s. 28), Dəmyələr (18, s. 85) və digər Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən

aşkar olunmuş düymələrin çoxu tökmə üsulu ilə hazırlanmışlar (şəkil 34, 1-17). Azərbaycanın digər yerlərindən tapılmış düymələr kimi (28, s. 78) onlar da dairəvi, yarımşar, konusvari formada düzəldilmişdir. Düymələrin bəzilərinin üzərində kiçik deşik açılmışdır. Bir qrupunun arxa hissəsinə ilgəkvari tunc təbəqə lehimlənmişdir (III Sarıdərə). Onların bir qrupu sadə düzəldilmişdir. Bəzilərinin üzəri cızma xətlərlə, üçbucaqlarla naxışlanmışdır. Kolanı, Muncuqlutəpə nekropollarından aşkar olunmuş düymələrdən bir qrupu naxışlanma motivinə görə daha çox diqqəti cəlb edir. Onların üzərində üçbucaqşəkilli ornamentlər svastika formasında verilərək naxışlanma motivinə görə həm bir-biri ilə, həm də, Xocalı-Gədəbəy mədəniyyətinə məxsus maddi-mədəniyyət nümunələri ilə (28, s. 78) oxşarlıq təşkil edərək müəyyən elmi nəticənin əldə olunmasında mühüm əhəmiyyət kəsb edir.

Aparılan elmi araşdırma onu göstərir ki, Naxçıvanın Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrindən əldə olunmuş düymələrin bənzərlərin Mingəçevir (106, tab. XL, 18), Çovdar, Xanlar, Xaçbulaq (80, tab. XV, 14-18) və digər abdələrdən (142, s. 55-59) aşkar edilmişdir.

***Pilәklәr.*** Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən (Haqqıxlıq, I Boyəhməd, II Plovdağ) aşkar olunmuş bəzək əşyalarından bir qrupunu pilәklər təşkil edir. Düymələr və sancaqlar kimi, pilәklər də geyim bəzəkləri sırasına daxildir. Digər maddi-mədəniyyət nümunələri kimi onlar da forma və xüsusiyyətlərinə görə bir-birindən fərqlənir (şəkil 34, 18, 19).

Haqqıxlıq nekropolundan tapılan piləķ konusvari formada düzəldilmişdir. Onun bir ucu digərinin üzərinə qatlanmış, xarici səthi yaşıl mis oksidi ilə örtülmüşdür (72, s. 60).

I Boyəhməd nekropolundan əldə olunmuş pilək oval formalı düzəldilərək, üzəri naxışlarla bəzədilişdir. Naxışlar qabartma dairəciklərdən və döymə üsulu ilə vurulmuş

nöqtələrdən ibarətdir (75, s. 23). Əldə olunmuş hər iki maddi-mədəniyyət nümunəsi Mingəçevirdən, Çovdardan (80, tab. XV, 1, 3) tapılan tunc piləklərlə oxşarlıq təşkil edir.

***Qol bəzəkləri bilərziklər və üzüklərdən ibarətdir.***

***Bilərziklər.*** Azərbaycanın bütün bölgələrində (Mingəçevir, Gəncəçay, Xaçbulaq və s) olduğu kimi Naxçıvandakı Son Tunc və Erəkn Dəmir dövrünə aid olan arxeoloji abidələrdən də (Qarabağlar, Qızılburun, Kolanı, Mərdangöl, Culfa, III Sarıdərə, I Boyəhməd və b.) çoxlu miqdarda bilərzik tapılmışdır (şəkil 34). Onların əksəriyyətinə skeletin qol sümüyü üzərində təsadüf edilmişdir. Bəziləri dağılmış skeletin ətrafından tapılmışdır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrindən hamısı dairəvi və ya ovalvari formada hazırlanaraq, eyni məqsədlə istifadə edilsə də, bəzi xarakterik xüsüsiyyətlərinə görə fərqlənmişlər. Onlar formaca bir-birindən fərqləndiyi üçün bir neçə tipə bölünür:

Birinci tipə lentşəkilli bilərziklər daxildir (şəkil 39, 1,7). Onlar Qızılburun, Culfa, Qarabağlar (119, s. 64, 65), Kolanı (13, s. 44) və digər nekropollardan tapılmış bu tip bilərziklərin hamısı döymə üsulu ilə hazırlanmışdır. Onların bir qrupu çıxıntılı formada, ucları açıq və ya toxunan şəkildə düzəldilmişdir (şəkil 39, 3-6). Bəzilərinin hər iki ucu xaricə qatlanmışdır (şəkil 39, 2). Əksəriyyəti naxışsızdır, bir qrupunun üzəri çızma xətlərlə, müxtəlif həndəsi ornamentlərlə naxışlanmışdır.

İkinci tip bilərziklər tökmə üsulu ilə sadə düzəldilmiş, üzərinə heç bir naxış vurulmamışdır (şəkil 39, 8-16). Qızılburun, Culfa, Qarabağlar, Şahtaxtı (119, s. 64, 65), Kolanı, Sarıdərə (13, s. 27, 44), Dəmyələr (18, səkil 3, 6, 7) və başqa abidələrdən bu tip bilərziklər tapılmışdır. Bu tipə daxil olmuş bilərziklərin bir çoxunun ucları bütöv, bəziləri azca açıq və ya bir-birinin üzərinə mindirilmiş formada düzəldilmişdir.

Üçüncü tipə tökmə üsulu ilə hazırlanmış ilanbaşlı bilərziklər daxildir (şəkil 39, 17-19). Onlara Qarabağlar,

Şahtaxtı nekropollarında (119, s. 65; 116, s. 90) və digər abidələrdə aşkar edilmişdir. İlanbaşlı bilərziklərin ucları bir qayda olaraq bir-birindən aralıdır. Onların bəzilərinin bir, əksəriyyətinin hər iki ucu ilanbaşı formasında düzəldilmişdir.

Aparılan elmi araşdırma onu göstərir ki, Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən tapılmış bilərziklərin bənzərləri Mingeçevirdə, Xaçbulaqda (80, tab. XXV; tab. XXII 1,6,7), Qobustanda (66, tab. X, 10; 157, s.81), Gəncəçay rayonunda (76, tab. VII, 5, 9), Çovdarda, Muğanda (128, tab. XI, 3), Şimali (146, s. 226) və Cənubi Qafqazdakı bir çox abidələrdə aşkar edilmişdir (175, s. 165).

***Üzüklər.*** Naxçıvandakı Kolanı, Sarıdərə (73, s. 43, 65), Boyəhməd (75, s. 18), Yurdçu (73, s. 52), Xalı-Keşan, Muncuqlutəpə, Mərdangöl (109, s. 8, 10, 19) və digər Son Tunc-Erkən Dəmir dövrü arxeoloji abidələrindən aşkar edilmiş üzüklərin hamısı dairəvi və ya ovalvari formada düzəldilməsinə baxmayaraq bəzi xüsusiyyətlərinə görə bir-birindən fərqlənərlər. Buna görə də, onları dörd əsas tipə bölmək olar:

Birinci tipə lenşəkilli üzüklər daxildir (şəkil 36, 3, 19, 20, 25). Onlar Qızılburun (81, şəkil 13, s. 9), Dəmyələr (18. s. 84-87), Kolanı (13, s. 44) nekropollarından və digər abidələrdən tapılmışdır.

İkinci tip üzüklər spiralvari formada düzəldilmişdir (şəkil 36, 11, 21, 23). Onlar Dəmyələr (18, s. 87, şəkil 2, 24), Kolanı (13, s. 45), Haqqıxlıq (13, s. 33) və başqa nekropollardan tapılmışdır. Arxeoloji abidələrdən əldə olunmuş bu tip üzüklərin hamısı nazik tunc məftildən eyni formalı düzəldilmişdir.

Üçüncü tipə üzüklər daxildir (şəkil 36, 2, 4, 6, 13, 15-18, 22, 24, 26-33). Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrin çoxundan (Dəmyələr (18, s. 84-87), Sarıdərə, Kolanı (13, s. 28, 44), Boyəhməd (75, s. 22), Muncaqlutəpə (109, tab. XIII, 2-4) və b.) bu tip üzüklər tapılmışdır.

Dördüncü tip üzük boruşəkilli düzəldilmişdir (şəkil 36, 3). Hələlik Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən birindən-Boyəhməd nekropolundan bu tip üzük aşkar edilmişdir (75, s. 23).

Üzüklərin müqayisəli şəkildə öyrənilməsi göstərir ki, onların bir qismi tökmə, bəziləri döymə üsulu ilə düzəldilmişdir. Onlar forma və xüsusiyyətlərinə görə bir-biri ilə oxşarlıq təşkil etməsinə baxmayaraq bəzi xüsusiyyətlərinə görə fərqlənmişlər. Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş spiralvari formalı üzüklərin hamısı formaca oxşarlıq təşkil etsə də, bəzi xarakterik xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Üzüklərin bir qrupu çıxıntılı (şəkil 36, 1) düzəldilmiş, bir qisminin isə muncuqlardan qaşı olmuşdur (şəkil 36, 7-10). Bu tip üzüklərin ucları sadə üzüklər kimi açıq və ya azca toxunan formada düzəldilmişdir. Lentşəkilli üzüklərin hamısı bir qayda olaraq döymə üsulu ilə hazırlanmışdır.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən tapılmış bütün tip üzüklərin bənzərləri Xanlarda (125, şəkil 30, 1-10), Gəncəçayda (124, şəkil 12), Mingəçevirdə (106, tab. XVII, 32, tab. XX, 3, 5, 10), Şimali və Cənubi Qafqazdakı digər abidələrdə aşkar edilmişdir (145, s. 86; 176, tab. 105, 2, 3).

***Ayaq halqaları.*** Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıanda da Kolanı (72, s. 44), Yurdçu (73, s. 52), Xalı-Keşan, Muncuqlutəpə, Mərdangöl (109, s. 51-55), Dəmyələr (18, s. 85) və başqa Son Tunc-Erkən Dəmir dövrünə aid olan qəbir abidələrindən çoxlu miqdarda ayaq halqaları tapılmışdır (şəkil 37). Onlar formaca sadə birlərziklərlə oxşarlıq təşkil etməsinə baxmayaraq ölcüsünə (böyüklüyünə) görə fərqlənir. Dünyanın müxtəlif yerlərindən tapılmış ayaq halqaları kimi (122, s. 214-227), onların da hamısı tökmə üsulu ilə sadə formada düzəldilmişdir. Kolanı nekropolundan əldə olunmuş ayaq halqalarından biri öz orjinallığı ilə seçilir. Onun

bir ucu düzdür. Digər ucu isə Sarıdərə (13, s. 28), Mingəçevir (106, tab. XVII, 21, 28), Xanlar (3, s. 85), Gədəbəy, Xocalı, Çovdar (80, s. 78) və başqa abidələrdən tapılmış spiralvari sırğalar kimi düzəldilmişdir.

Həm bəzək əşyalarının, həm də xəncərlərin və digər metal məmulatların düzəldilməsində kəsmə, xatəmkarlıq (inkrustasiya), fleqran, basma, qravürə, tökmə, döymə üsularından və müxtəlif ornamentlərdən istifadə edilmişdir.

Kəsmə naxışlarla nazik metal təbəbəqədən kəsilmiş medalyonlar, kəmərlər, xəncərlərin dəstəyindəki başlıqlar bəzədilmişdir.

Fleqran üsulu ilə əsasən bəzək əşyaları naxışlanmışdır.

İnkrustasiya üsulundan silahların dəstəklərini bəzəmək üçün istifadə edilmişdir.

Basma üsulu ilə hazırlanmış bəzək əşyaları (döş bəzəkləri, düymələr, asmalar və b.) nisbətən qabarıq düzəldilmişdir. Bütün tiplərdə istehsal olunmuş maddi-mədəniyyət nümunələrinin daha parlaq olmasına xüsusi diqqət göstərilmişdir.

Qravürə texniki üsulu ilə hazırlanmış bəzək əşyaları basma üsulu ilə düzəldilmiş döş bəzəklərindən, düymələr və asmalardan fərqlənmişdir. Onlar bir qədər səliqəli düzəldilmişdir. Üzərlərində kəsici alətin köməyi ilə çəkilmiş kontur xətlər onların əlavə olaraq işləndiyini göstərir.

Tökmə üsulu ilə hazırlamış maddi-mədəniyyət nümunələri daha sadə olsa da, digər üsullardan fərqli olaraq çoxsahəli və intensiv xarakter daşımışdır. Tökmə üsulu ilə metal əşyaların hazırlanması zamanı heç bir əlavə işlər görülməmişdir. Müəyyən temperaturada əriyən metal təbəqə maye halına düşdükdən sonra xüsusi qəliblərə tökülmüşdür. Onların naxışlanmasında istifadə olunmuş ornamentlər qədim əkinçi-maldar tayfaların həyat tərzini, dini-ideologi görüşlərini əks etdirir.

Bəzək əşyalarının araşdırılması Naxçıvanda məskunlaşan tayfaların qədim mədəniyyətinin Azərbaycanın digər abidələri ilə sıx bağlı olduğunu göstərir. Bu tipə daxil olan maddi mədəniyyət nümunələrinin araşdırılması həmçinin insanların məişətini və mənəviyyatını öyrənməyə imkan verir.

### *2.5. Xronologiya*

Naxçıvanın Son Tunc-Erkən Dəmir dövrü abidələrinin xronologiyası ədəbiyyatda işləndiyi üçün biz əsas məqamlar üzərində dayanacağıq. Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş gil qablar, əmək alətləri, silahlar və bəzək əşyalarının bu dövrə aid abidələrin xronologiyasını müəyyənləşdirmək üçün elmi əhəmiyyəti boyükdür.

Aparılan arxeoloji araşdırmalar göstərir ki, Naxçıvanın Son Tunc-Erkən Dəmir dövrünə aid Arazboyu abidələri, xüsusilə I Kültəpə, II Kültəpə, Qızılburun və digər abidələrin arxeoloji materialları başlıca olaraq boyalı qablarla təmsil olunmuşdur. Bu abidələrdən boyalı qablarla yanaşı olaraq, boz rəngli keramikalar da tapılmışdır. Əldə olunmuş gil qabların istehsalında Tunc dövrü mədəniyyətinin ənənələri davam etmiş və onlarda yeni xüsusiyyətlər ortaya çıxmışdır. Keramikada qulaqcıqşəkilli, göbələkvari çıxıntılar, ştamp və konnelyur ornamentlər geniş yayılmışdır. Çaynik tipli qablar, hündürdabanlı qədəhlər, kənarları iki tərəfdən batıq olan kasalar bu dövr üçün xarakterikdir.

Kənarları iki tərəfdən içəri batıq olan kasalar Cənubi Qafqazda Son Tunc-Erkən Dəmir dövründə geniş yayılmışdır. Bu cür qablar Son Tunc-Erkən Dəmir dövrünə aid Xaçbulaq abidələrində və digər abidələrdə aşkar edilmişdir. Xaçbulaq kurqanları e.ə. XIII-XII əsrlərlə tarixləndirilir (57, s. 40).

Çaynik tipli qablar Cənubi Qafqaz və Yaxın Şərq abidələrindən, xüsusən də, İrandan tapılan çayniklərlə oxşardır.

Naxçıvanın Son Tunc-Erkən Dəmir dövrünə aid çaynikləri Zəngəzur və Göytəpənin həmdövr abidələri ilə bənzərdir. Naxçıvandakı arxeoloji abidələrdən əldə olunmuş çayniklər dövr etibarı ilə Göytəpə, Şərqi Anadolu və Zəngəzurun çayniklərinə yaxındır. Həmin abidələrin qədəh və kasa tipli qabları dövr etibarı ilə Qızılburun və Şahtaxtı abidələrindən tapılan eyni tipli qablarla bənzərdir. Çaynik tipli qablar və hündürdabanlı qədəhlər isə e.ə. II minilliyin sonu ilə tarixləndirilir (16, s. 151).

Naxçıvanın Arazboyu ovalığında yerləşən Son Tunc-Erkən Dəmir dövrünə aid arxeoloji abidələrdən əldə olunmuş arxeoloji materialların içərisində tunc əşyalar dəmirə nisbətən çox aşkar edilmişdir. Əldə olunmuş dəmir əşyalar, o cümlədən xəncər, ox ucluğu və bəzək əşyaları tunc əşyaları tamamilə təkrar edir.

Naxçıvan abidələrinin dövrləşdirilməsi üçün dəqiq stratiqrafiya verən I Kültəpə, II Kültəpə yaşayış yerlərindən əldə olunmuş Son Tunc-Erkən Dəmir dövrünə aid boyalı qablar Qızılburun və Culfa abidələrindən tapılmış qablarla oxşardır. Naxçıvanın arxeoloji abidələrindən əldə olunmuş Son Tunc dövrünə aid böyalı qablar e.ə. XIV-XI əsrə aid edilmiş, Erkən Dəmir dövrünə aid qablar isə e.ə. XI-VIII əsrlərlə tarixləndirilmişdir (36. s. 123-124).

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrüna aid olan dağlıq və dağətəyi ərazidəki arxeoloji abidələr başlıca olaraq cızma naxışlı boz rəngli keramika ilə təmsil olunmuşdur. Konnelyur ornamentli və ştamp (möhür) naxışlı qablara da aşkar edilmişdir. Konnelyur ornamentli keramikanın geniş yayıldığı dövr e.ə. II minilliyin sonuna aid edilir (123, s. 44).

Arxeoloji abidələrdən əldə olunmuş boz rəngli gil qabların bəzi paralellərinə Təpə Sialk, Təpə Ciyan, Xuvrin və Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələrdə rast gəlinsə də, bu regionların Son Tunc-Erkən Dəmir dövrü mədəniyyəti həmin dövrə aid Naxçıvan mədəniyyətindən tamamilə fərqlənir.

Naxçıvanın Son Tunc-Erkən Dəmir dövrü mədəniyyəti müəyyən lokal xüsusiyyətlərə malikdir. Gəncəçay zonasının keramikası üçün xarakterik olan zəngin ornmaentli qablara Naxçıvanda çox az rast gəlinibdir. Bu bölgənin Son Tunc-Erkən Dəmir dövrü abidələrində qədəh, nimçə, banka, çaynik və silindirik lüləyi olan qablar yayılmışdır. Naxçıvanın Son Tunc-Erkən Dəmr dövrü mədəniyəti ilə digər madəniyətlər arasındakı fərqlərin olması həm xronoloji dəyişikliklərlə, həm də, Xocalı-Gədəbəy mədəniyyətinin yerli şəraitə uyğünlaşması ilə bağlılıq təşkil edir.

Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrdən əldə olunmuş boz rəngli keramikanın bəzi nümunələri Orta Dəmir dövrünün paralellərini xatırlatsa da, onlardan fərqlənir. Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrü komplekslərində Şimal-Şərqi İranın Dəmir III dövrü üçün xarakterik olan qablar az aşkar edilmişdir.

Son Tunc-Erkən Dəmir dövrünə aid kollektiv dəfnetmə adəti ilə xarakterizə olunan daş qutu qəbirlər tikinti xüsusiyyəti ilə yanaşı, dəfnetmə adətinə görə Xocalı-Gədəbəy mədəniyyətinin Gədəbəy qrupu ilə oxşarlıq təşkil edir. Boyalı qabların aşkar olunduğu qəbir abidələrində insan skeletinin qalıqları çox az aşkar edilmişdir. Qəbirlərdən xırdabuynuzlu heyvan və quş sümükləri tapılmışdır. Qəbir abidələrindən bir qismində insan skeletinin aşkar edilməməsi də, yerli tunc dövrü mədəniyyətinin ənənələrinin davamı olmuşdur.

Xalı-Keşan nekropolundan aşkar olunmuş arxeoloji materiallar e.ə. II minilliyin sonu-I minilliyin əvvəllərinə aid olan Həsənli V, Dingətəpə III dövrünün materialları ilə oxşarlıq təşkil edir. Mərdangöl nekropolundan əldə olunmuş arxeoloji materiallar e.ə. IX-VIII əsrlərə aid edilmişdir (107, s. 51-52).

Erkən Dəmir dövrünün son mərhələsində geniş yayılan nimçə tipli qabların Sarıdərə nekropolundan çox az tapılması onu göstərir ki, Kolanı, Boyəhməd qəbirləri ilə müqayisədə bu nekropol bir qədər əvvələ aiddir (16, s. 151).

Aparılan arxeoloji araşdırmalara əsasən qeyd etmək olar ki, Naxçıvandakı Son Tunc-Erkən Dəmir dövrünə aid olan arxeoloji abidələrin içərisində qəbir abidələri yaşayış yerləri ilə müqayisədə arxeoloji materialların zənginliyi ilə də fərqlənir. Son Tunc-Erkən Dəmir dövrünə aid yaşayış yerləri kimi qəbir abidələrindən də Xocalı-Gədəbəy mədəniyyətinin izlərinə rast gəlinir (11, s. 35-36). Xocalı-Gədəbəy mədəniyyətinin Naxçıvanda yayılması arxeoloji materialların bütün kompleksi ilə sübut olunur. Bu isə onunla bağlıdır ki, Xocalı-Gədəbəy mədəniyyətinin əsas yaradıcıları olan yarımköçəri əkinçi-maldar tayfaların Naxçıvana hərakəti zamanı onlar yerli əhaliyə məxsus yaşayış yerlərində məskunlaşmışlar.

Qəbirlərdən əldə olunmuş bəzək əşyalarının və silahların abidələrin dövrləşdirilməsi üçün əhəmiyyəti böyükdür. Qəbir abidələrindən aşkar edilmiş çənbərli və dəstəyi çərçivəli bütöv tökülmüş xəncərlər e.ə. XII-XI əsrlərə aid edilir (162, s. 121). Konsvari başlığı olan yastı tiyəli tunc xəncərlər isə e.ə. XIII-XII əsrlərə aid edilir (123, s. 25). Araşdırmalar göstərir ki, Ön Asiya tipli xəncərlərdən istifadə Qafqazda IX əsrədək davam etmişdir.

Yuxarıda qeyd olunanlara əsaslanaraq sonda belə bir yekun nəticəyə gəlmək olar ki, Naxçıvandakı boz və boyalı rəngli keramka, xəncərlər, bəzək əşyaları ilə fərqlənən arxeoloji komplekslər e.ə. II minilliyin sonu-I minilliyin əvvəlinə, daha doğrusu e.ə. XIV-X əsrlərə aiddir.

# NƏTİCƏ

Əlverişli coğrafi movqeyə, zəngin təbii sərvətlərə malik olan Naxçıvan Muxtar Respublikası qədim mədəniyyət mərkəzlərindən biridir. Naxçıvandakı arxeoloji abidələrin tədqiq olunması cəmiyyət tarixinin müxtəlif inkişaf mərhələlərini, yüksəliş və tənəzzül dövrünü izləməyə imkan verir, bir sıra elmi nəticələrin əldə olunmasına gətirib çıxarır. Aparılan araşdırmalar göstərir ki, digər yerlərdə olduğu kimi Naxçıvanda da Son Tunc-Erkən Dəmir dövründə maldarlığın oturaq və yarımköçəri (qışlaq və yaylaq şəklində) formaları inkişaf etmişdir. Əkinçi-maldarlar saxladıqları heyvanların ətindən, südündən və yunundan istifadə edərək həm özlərinin tələbatlarını ödəmiş, həm də onu mübadilə vasitəsinə çevirərək özlərinə lazım olan digər məhsullarla dəyişmişlər.

Naxçıvanda yaşayış məskənləri insanların həyat tərzlərinə, yerin relyefinə görə iki əsas qrupa bölünmüşdür. Onların bir qismi dağlıq və dağətəyi yerdə, bir qrupu isə aran ərazidə salınmışdır.

Dağlıq və dağətəyi yerlərdəki arxeoloji abidələrdən əsasən mövsümü yaşayış yeri kimi istifadə edilmişdir.

